Hər kəs ədalətli olacaq
ƏDALƏT

## *Hikmət Hacıyev:* "Azərbaycan dəhliz yaratmaq üçün hərbi addımlar atmaq niyyətində deyil"



**"Azərbaycan Ermənistanın cənubunda quru dəhlizi yaratmaq üçün hərbi addımlar atmaq niyyətində deyil".**

Adalet.az xəbər verir ki, bunu "Reuters"ə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, Bakı Ermənistan vasitəsilə Naxçıvanla nəqliyyat əlaqəsi yaratmaq istəyir. O, bunun hər iki ölkə və region üçün daha faydalı olacağını bildirib:

"Azərbaycanın Ermənistan Respublikasının suveren ərazisində heç bir hərbi məqsədi və ya hədəfi yoxdur. Bu, Azərbaycanın gündəmindən tamamilə kənardır. Bizim Ermənistana təklifimiz sülh yolu ilə birləşdirici xətlərin, nəqliyyat xətlərinin qurulmasıdır".

## Antiterror tədbirlərində şəhid olan və yaralanan hərbçilərin sayı açıqlandı



**Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 19-20 sentyabr 2023-cü il tarixində həyata keçirilmiş uğurlu lokal antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa olunub.**

Səhiyyə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, lokal antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu şəhid olub.

Şəhid olmuş hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır. Şəhid olanlardan 1 nəfər də mülki şəxsdir.

11 nəfərin şəxsiyyəti Məhkəmə Tibbi Ekspertiza tərəfindən məhkəmə genetik müayinələr aparıldıqdan sonra müəyyənləşdiriləcək. Eyni zamanda, lokal antiterror tədbirləri nəticəsində 511 hərbi qulluqçumuz və 1 mülki şəxs yaralanıb.

Yaralıların ən qısa zamanda müalicəsi üçün yüksək səviyyəli peşəkar həkim briqadaları fəaliyyət göstərir və bütün zəruri tibbi tədbirlər görülür.

## XİN Ermənistana cavab verdi

Bax:səh-4

## Elşad Hacıyev: "Qarabağdakı erməniəsilli sakinlərin təhlükəsizliyi və hüquqları diqqət mərkəzindədir"



**"Azərbaycanın digər bölgələrində yaşayan vətəndaşlar kimi, Qarabağda yaşayan erməniəsilli sakinlərin də təhlükəsizliyi və hüquqlarının qorunması diqqət mərkəzində saxlanılır".**

Adalet.az-ın verdiyi xəbərə görə, bunu jurnalistlərə açıqlamasında Daxili İşlər Nazirliyin (DİN) Mətbuat Xidməti İdarəsinin rəisi Elşad Hacıyev deyib.

Onun sözlərinə görə, Qarabağda yaşayan erməniəsilli sakinlər əsasən sağlamlıq məsələləri ilə bağlı müraciət edirlər: "Onlara lazımı dəstək göstərilir. Füzuli, Kəlbəcər və Ağdamda Fövqəladə Hallar Nazirliyi tərəfindən çadırlar quraşdırılıb. Onlar gündəlik yeməklə də təmin olunurlar".

## Cahid Bağçı: "Qələbəniz şanlı və uğurlu olsun, igidlər!"

**"Qələbəniz şanlı və uğurlu olsun, igidlər!" Adalet.az xəbər verir ki, bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı Azərbaycanın həyata keçirdiyi lokal antiterror tədbirləri zamanı şəhid olan Azərbaycan hərbçiləri ilə bağlı yazıb.**

"Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi antiterror tədbirləri nəticəsində şəhid olan qəhrəmanlara Allah rəhmət eləsin, ailələrinə, silahdaşlarına və qardaş Azərbaycan xalqına səbir diləyirik. Allah rəhmət eləsin!", - paylaşımda qeyd olunub.

## *Ərdoğan:* "Azərbaycanlıların Qarabağdakı ermənilərə münasibəti hər cür tərifdən üstündür"



**"30 il ərzində yaşadıqları bütün ağrılara baxmayaraq, azərbaycanlıların Qarabağda ermənilərə münasibəti hər cür tərifdən üstündür".**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra açıqlamasında bildirib. Ərdoğan deyib ki, Qarabağda mülki insanlara qarşı həssaslıq nümayiş etdirilib. "Azərbaycan ordusunun uğurları ilə fəxr edirik. Allah şəhid qardaşlarımıza rəhmət eləsin, yaralılara şəfalar diləyirəm", - Türkiyə lideri qeyd edib. O, həmçinin regional münasibətlərdən də danışıb:

"Ümid edirik ki, Ermənistan xarici təxribatlara boyun əyməyəcək. Biz qonşumuz İranı da əhatə edəcək birgə layihələrlə regionumuzu çiçəklənən hövzəyə çevirmək istəyirik. Türkiyə ilə dost olan qazanır, düşmən olan uduzur. Dostlarımızın sayını artırmaq üçün bir yol axtarırıq".

## "Azərbaycanın antiterror tədbirindən başqa variantı yox idi"



**"Azərbaycanın keçirdiyi antiterror tədbiri başqa variantın qalmadığını göstərən tədbir idi. Memorandumda (10 noyabr 2020-ci il bəyanatı-red) razılaşdırılmış məsələlərin bəziləri Ermənistan tərəfindən yerinə yetirilməyib".**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan deyib.

"Birincisi, Zəngəzur dəhlizində və Qarabağda Azərbaycanın suverenliyinin vacib idi. Bu baş vermədikdə, qardaşlarımız haqlı olaraq səbirsizliklərini ortaya qoydular. Türkiyə olaraq bu addımı atmağın zəruriliyini Azərbaycana çatdırdıq. Bu, mülki əhaliyə zərər verməyən və Azərbaycanın regionda hüquqi suverenliyinə yol açan qısa bir tədbir idi. İrəli sürdüyümüz rasional izahatlar vəziyyətin Azərbaycanın xeyrinə başa düşülməsində təsirli oldu", - Türkiyənin xarici siyasət idarəsinin rəhbəri qeyd edib.

Hər kəs ədalətli olacaq
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
İctimai-siyasi, hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 37 (6030) 29 sentyabr 2023-cü il
Qiyməti 40 qəpik

# Prezident Cəbrayıl və Zəngilan rayonlarına səfər etdi




Bax:səh-2

## «Bu tədbirlər pandemiyanın törədə biləcəyi fəsadların qarşısını aldı»



**Ölkədə ən çətin və mürəkkəb bir dövrdə icbari tibbi sığortanın tətbiqi vətəndaşlara verilən dəyərin ən böyük təzahürüdür.**

Adalet.az xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev deyib. O qeyd edib ki, insan kapitalının inkişafı, səhiyyənin rəqəmsallaşması və maliyyələşməsi sahələrinə icbari tibbi sığortanın verdiyi töhfə olduqca vacibdir: "Pandemiyanın ilk günlərində icbari sığortanın tətbiq etdiyi rəqəmsal tədbirlər və proqramlar pandemiyanın törədə biləcəyi fəsadların qarşısını aldı. Eyni zamanda, istər dövlət, istərsə də özəl sektorlar arasındakı əməkdaşlığı yeni mərhələyə daşıdı".

## *Zaxarova:* "Kommunikasiyaların açılması regiondakı qonşulara da fayda verəcək"



**"Ermənistan və Azərbaycanın maraqları balansına əsaslanan kommunikasiyaların açılmasına dair razılaşmalar təkcə onlara deyil, həm də regiondakı qonşularına fayda verəcək".**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova brifinqdə bəyan edib.

Onun sözlərinə görə, söhbət Rusiya, Türkiyə və İrandan gedir.

Zaxarova bildirib ki, məsələnin həlli Rusiya, Ermənistan və Azərbaycan baş nazirlərinin müavinlərindən ibarət üçtərəfli işçi qrupu çərçivəsində tapıla bilər və tapılmalıdır.

Rusiya XİN sözçüsü vurğulayıb ki, Kreml Cənubi Qafqazda sabitlikdə maraqlıdır və problemlərin siyasi, diplomatik yollarla həllinin tərəfdarıdır.

O, Moskvanın İrəvan və Bakı ilə müttəfiqlik münasibətlərinin olduğunu qeyd edib.

## Qarabağdakı qondarma rejim özünü buraxdı

**Azərbaycanın Qarabağ bölgəsindəki qondarma qurum özünü buraxır.**

Adalet.az xəbər verir ki, bunu separatçıların "rəhbəri" Samvel Şahramanyan elan edib.

Qərara əsasən, qondarma rejimin bütün qurumları və təşkilatları fəaliyyətini dayandırır. Bununla da "Dağlıq Qarabağ respublikası" öz mövcudluğuna son verir.

## *Fransa Zəngəzurda konsulluq açacaq*

**Fransa Zəngəzurda konsulluq açacaq. Adalet.az xəbər verir ki, bunu Fransanın xarici işlər naziri Ketrin Kolonna Milli Assambleyanın iclasında Fransanın erməniləri qorumaq üçün hansı addımlar atması ilə bağlı suala cavab olaraq bildirib.**

"Biz Ermənistanla müdafiə sahəsində əməkdaşlığı dərinləşdirmişik. Fransa səfirliyində hərbi attaşe olacaq. Tezliklə sərhəddə yerləşən Zəngəzur (Sünik) bölgəsində konsulluq mərkəzi açacağıq", - Kolonna bildirib.

## «Qarabağda istənilən müşahidə missiyası yalnız Bakının razılığı ilə ola bilər»



**"Qarabağda istənilən müşahidə missiyası yalnız Bakının razılığı ilə orada ola bilər. ABŞ-nin təşəbbüsünə gəlincə, hələ ki, bu barədə heç bir konkretlik yoxdur".**

Adalet.az rus mətbuatına istinadən xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bu mövzuda Amerika tərəfi ilə təmasların olub-olmaması ilə bağlı sualı cavablandırarkən deyib. "Orada (Qarabağ - red.) istənilən missiya yalnız Azərbaycan tərəfinin razılığı ilə mövcud ola bilər. Siz ilk növbədə bundan xəbərdar olmalısınız. Biz də öz növbəmizdə İrəvan və Bakı ilə, eləcə də Qarabağ erməniləri ilə təmaslarımızı davam etdiririk", - deyə Peskov bildirib.

Qeyd edək ki, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller daha əvvəl bildirmişdi ki, Birləşmiş Ştatlar Azərbaycanın Qarabağ sakinlərinin hüquqlarını və təhlükəsizliyini təmin etmək üzrə öhdəliklərini yerinə yetirməsinə nəzarət edəcək beynəlxalq missiyanın yaradılması üzərində işləyir. O əlavə edib ki, belə bir təşəbbüs fəal müzakirə olunur.

## *Azərbaycanda karantin rejiminin müddəti uzadıldı*

**Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Nazirlər Kabineti qərar qəbul edib. Qərara əasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2024-cü il 2 yanvar saat 06:00-dək uzadılıb.

## *XİN-dən Qarabağın erməni sakinlərinə çağırış*

**"Biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq".**

Adalet.az-ın məlumatına görə, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyana cavabında bildirilib.

Qeyd olunub ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi və fərdi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsi olmadığı baş nazir Paşinyana yaxşı məlumdur: "Əgər erməni sakinlərinin hansısa seqmenti Azərbaycan qanunvericiliyi və hakimiyyəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq".

Vurğulanıb ki, Ermənistan regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün erməni sakinlərin reinteqrasiya prosesinə maneələri aradan qaldırmalı və hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə əsaslanan sülh müqaviləsi üzrə danışıqlar prosesinin uğurla başa çatmasına fokuslanmalıdır.

## Ruben Vardanyan həbs edildi




**Səbail rayon Məhkəməsində qondarma Dağlıq Qarabağ Respublikasının "dövlət naziri" vəzifəsində çalışmış Ermənistan vətəndaşı Ruben Vardanyan barəsində Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq İdarəsinin təqdimatına baxılıb.**

Adalet.az xəbər verir ki, hakim Ülviyyə Şükürovanın sədrliyi ilə keçirilən prosesdə təqdimat təmin edilib. Məhkəmə tərəfindən Ruben Vardayan barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Ruben Vardanyan ötən gün "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində saxlanılıb.

Ermənistan vətəndaşı olan 1968-ci il təvəllüdlü R.Vardanyanın Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların yaradılmasında və fəaliyyətində iştirak etmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə nəzərdə tutulan cinayət əməllərini törətməsinə əsaslı şübhələr müəyyən edilib.

## *Alen Simonyan:* "Biz sülh sazişinin imzalanmasına hazırıq"

**"Biz bu tarixi şansdan istifadə etmək istəyirik".**

Adalet.az xəbər verir ki, bunu Ermənistan parlamentinin spikeri Alen Simonyan İctimai Televiziyada bildirib.

O, Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın Qranada görüşündə sülh sazişinin imzalanmasının mümkünlüyü ilə bağlı sualı cavablandırarkən deyib:

**"Biz çox istərdik ki, bu, Qranadada olsun. Əbədi müharibə heç kimə lazım deyil. Biz sülh sazişinin imzalanmasına hazırıq".**

Aqil ABBAS
aqilabbas@rambler.ru

## ERMƏNİLƏRDƏN ÜZR İSTƏYİRƏM



***Biz Murovdan ayaqyalın, başıaçıq, piyada, qucaqlarımızda donan körpələrlə gəlmişdik. Sizi öz maşınınızla, unitazınızla, qarşokunuzla, qucağınızda körpələrlə yola saldığımıza və cocuqlarınıza şokolad, su, ərzaq payladığımıza görə üzr istəyirəm.***

***Evlərimizi yandırdınız, yağmaladınız, şəhər və kəndlərimizi darmadağın elədiniz, qəbirlərimizi dağıtdınız, ölülərimizi insanlığa sığmayan təhqir etdiniz. Evlərinizi yağmalamadıq. Şəhərlərimizə, Ağcabədiyə, Ağdama, Tərtərə, Füzuliyə minlərlə raket atdınız. Şəhərlərinizi dağıtmadığımıza , ölülərinizin gorunu eşmədiyimizə görə üzr istəyirəm.***

***Qızlarımızı, qadınlarımızı zorladınız, anaların gözləri önündə oğullarımızın başını kəsdiniz. Yazar Zori Balayan 6 yaşlı qızcığazı divara mismarlayıb dərisini soyub necə ləzzətlə öldüyünü seyr etdiyinə görə, biz balalarınızı öldürmədiyimizə görə, analarınızın gözü qarşısında oğullarının başını kəsmədiyimizə görə üzr istəyirəm.***

Bax:səh-2

## "Ukraynada hərbi əməliyyatı bu tarixdə bitirməliyik"

**Xüsusi hərbi əməliyyatın məqsədlərinə 2025-ci ilə qədər tam nail olmaq lazımdır.**

Adalet.az xəbər verir ki, bu sözləri Rusiya müdafiə naziri Sergey Şoyqu Hərbi Departamentin Kollegiyasının iclası zamanı bildirib.

Nazir qeyd edib ki, ABŞ və müttəfiqləri Ukraynanı silahlandırmağa davam edir və Ukrayna Silahlı Qüvvələrini hərbi əməliyyatlar aparmağa məcbur edir, Kiyev isə təlimsiz əsgərləri mənasız hücumlara göndərir: "Kiyev və onun himayədarlarının hərəkətləri əslində Ukraynanı özünüməhvə sürükləyir. Rusiya şəxsi heyətin hazırlığını təkmilləşdirmək və ordunu ən müasir silah növləri ilə təchiz etməklə Silahlı Qüvvələrinin gücünü artırır".

# Prezident Cəbrayıl və Zəngilan rayonlarına səfər etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Cəbrayıl rayonuna səfər edib.**

Dövlətimizin başçısı Cəbrayıl şəhərində inzibati binanın təməlini qoyub.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş plana əsasən, inzibati bina işgüzar zona kimi müəyyən olunmuş bir hektar ərazidə tikiləcək. Layihəyə əsasən, ərazidə dörd bina inşa ediləcək.

Hər bina müasir üslubda layihələndirilib. İlkin mərhələdə 4-5 mərtəbədən ibarət ikikorpuslu bina kompleksinin tikintisi planlaşdırılır və binalar körpü vasitəsilə əlaqələndiriləcək. Digər 3-4 mərtəbəli binaların tikintisi isə ikinci mərhələ üçün nəzərdə tutulur. Binaların fasadında müasirlik və milliliyin ahəngi əsas götürülüb.

Belə ki, eyvanlarda milli elementimiz olan şəbəkədən istifadə olunacaq.

Layihəyə əsasən, inzibati bina kompleksinin həyətində sakinlərin istirahəti üçün park salınacaq. Buradakı avtomobil dayanacağı elektrik doldurma məntəqələri ilə təmin olunacaq.

Kompleksin elektrik enerjisi təminatını qismən ödəmək məqsədilə binaların damında və istifadə olunmayan boş ərazilərində günəş panelləri quraşdırılacaq.

Prezident İlham Əliyev inzibati binanın təməlini qoydu.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılışını edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda olub.

Dövlətimizin başçısı Alıbəyli kəndinin təməlini qoyub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışını edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Cahangirbəyli" Su Elektrik Stansiyasının açılışında iştirak edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan rayonunda Zəngilan kəndinin təməlini qoyub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Zəngilan şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub, Zəngilan şəhər məscidində görülən işlərlə tanış olub.

Sonra dövlətimizin başçısı Zəngilan şəhərində üçüncü, dördüncü yaşayış komplekslərinin və 160 yerlik uşaq bağçasının təməllərini qoyub.

# İlham Əliyev Blinkenlə Qarabağdakı vəziyyəti müzakirə edib

**Sentyabrın 26-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Adalet.az xəbər verir ki, telefon söhbəti zamanı, erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dövlət başçısı 24 saatdan az müddətdə yekunlaşan antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər verilmədiyini diqqətə çatdırıb.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah prosesinin həyata keçirildiyini və onların Azərbaycan ərazisindən çıxarılması işinin həyata keçirildiyini ABŞ tərəfinə bildirib. Son beş gün ərzində yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə edildiyi vurğulanıb.

Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələrinin və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsinin toplanmış silah və hərbi texnikaya baxış keçirdiyi qeyd olunub.

Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin edilməsi məqsədilə hazırda müvafiq iş aparıldığını vurğulayıb.

Azərbaycan nümayəndələri ilə erməni sakinlərin nümayəndələri arasında reinteqrasiya istiqamətində dialoq aparıldığı, erməni sakinlərə Azərbaycan tərəfindən humanitar yardımlar göndərildiyi, ərazidə infrastrukturun bərpa edildiyi dövlət başçısı tərəfindən qeyd olunub.

Erməni sakinlərə yardımların göstərilməsi istiqamətində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığın həyata keçirildiyi, ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə Azərbaycan tərəfinin hazır olduğu diqqətə çatdırılıb.

**ABŞ dövlət katibi Antoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, bölgədə sabitliyin təmin edilməsinin, yerli ermənilərlə dialoqun vacib olduğunu bildirib.**

# Azərbaycan öz suverenliyini tam təmin etmişdir

**Xəbər verdiyimiz kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 25 sentyabr tarixində Naxçıvanda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb. Türkiyə Respublikasının Prezidentinin Azərbaycana səfəri ilə əlaqədar birgə bəyanat qəbul olunub.**

Qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisə.İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək.

Naxçıvan Azərbaycanın qədim diyarıdır. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir.

Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi. Naxçıvanda da şiddətli döyüşlər gedirdi və məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi iləNaxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bildi. Ancaq o vaxt Naxçıvanın enerji təminatı Azərbaycanın əsas hissəsindən olduğu üçün Ermənistan bütün elektrik və qaz xətlərini kəsmişdi və Naxçıvan faktiki olaraq mühasirədə idi. 15 il Naxçıvan qazsız yaşamışdır.

2005-ci ildə İran İslam Respublikası ilə imzalanmış anlaşmaya görə, mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi təmin edilmişdir. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi isə ikinci xətt vasitəsilə Naxçıvana təbii qazın verilməsinə şərait yaradacaq.

Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcəkdir. Naxçıvanın qazı, nefti olmasa da, günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı böyük planlarmövcuddur.

Naxçıvan yaşıl enerji zonasına çevrilə bilər. Burada həm günəş, həm külək, eyni zamanda, su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaqdır.Azərbaycan öz suverenliyini tam təmin etmişdir. Əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, sentyabrın 19 isə suverenliyimizi tam bərpa etdik.



Qələbə tariximizin parlaq səhifəsi. 24 saat ərzindəhəyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan ərazisində qanunsuz məskunlaşmış Ermənistan ordusu təslim oldu, bizim şərtlərimizi qəbul etdi və beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir.

Artıq Azərbaycandan onun Qarabağ bölgəsinə, orada yaşayan erməni əhalisinə humanitar yardımlar göndərilməsinəbaşlanmışdır. Yanacaq - neft, dizel, benzin, ərzaq məhsulları, dərman preparatları və digər humanitar yardım edilir və bu, bir daha onu göstərir ki, Qarabağ bölgəsində yaşayan insanlar milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşlarıdır, onların təhlükəsizliyi, hüquqları Azərbaycan dövləti tərəfindən təmin ediləcəkdir.

Qarabağ ermənilərinin nümayəndələri ilə Azərbaycanın dövlət strukturlarının nümayəndələri arasında Yevlax şəhərində görüş keçirilmişdir. Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya prosesiuğurla gedəcək.

Qardaşlıq jesti. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında, dünyanın ən ali kürsüsündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycan dövlətinin maraqlarını ifadə edənbəyanatların verilməsi Türkiyənin növbəti qardaşlıq addımıdır.

İkinci Qarabağ müharibəsi zamanı bütün Türkiyə xalqı bizim yanımızda idi. Müharibənin ilk saatlarında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən "Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır" kimi bəyanatın verilməsi bir çoxları üçün ciddi mesaj idi.

Şuşa Bəyannaməsi. Şuşa şəhərində imzalanmış müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı. Bu gün bu əlaqələr ən yüksək zirvədədir və bütün istiqamətlər üzrə biz indi əlaqələrimizin çox fəal dövrünü yaşayırıq.

Strateji əhəmiyyət kəsb edən layihələr. TANAP layihəsi, İğdır-Naxçıvan qaz xətti və Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolutarixi hadisələrdir. Bu layihələr Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəklər.

Logistik layihələrin potensialı. Bakı-Tbilisi-Qars dəmir yolunun potensialı1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da uğurla gedir. Azərbaycan ərazisində işlər böyük ehtimalla gələn ilin sonunda başa çatmalıdır. Müştərək maraqların məzmunu. Bölgədə sülh, əmin-amanlıq olsun, müharibələr olmasın, ölkələrin ərazi bütövlüyü təmin edilsin.

**İqtisadi əməkdaşlığın dinamikası. Bütün istiqamətlər üzrə, o cümlədən ticarət dövriyyəmizin artırılması istiqamətində önəmli addımlar atılmışdır. Bizim ticarət dövriyyəmiz keçən il 6 milyard dollardan çox olub. Ancaq bu ilin yeddi ayında 40 faiz daha artmışdır və daha da artacaq. Preferensial ticarət anlaşması da imzalanmışdır və o siyahıda olan məhsulların sayı da artır.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

# Ayxan Hacızadə: "Azərbaycan hər zaman mülki əhalinin qorunmasına sadiq olub"

**BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türkün fikirləri tərəfimizdən qeydə alındı.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin BMT-nin insan hüquqları üzrə ali komissarı Folker Türkün bölgədəki vəziyyətlə əlaqədar şərhi ilə bağlı yerli medianın sualına cavabında bildirib.

Onun sözlərinə görə, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı atdığı bütün addımlar, o cümlədən son 24 saatlıq anti-terror tədbirləri beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğun şəkildə həyata keçirilib.

"Azərbaycan hər zaman həyata keçirdiyi tədbirlər çərçivəsində mülki əhalinin və mülki obyektlərin qorunmasına sadiq olub. Ermənistanın 30 ilə yaxın hərbi işğalı zamanı kütləvi qətllərə məruz qalan azərbaycanlıların öz hüquqlarından məhrum olmasına baxmayaraq, Azərbaycan öz ərazisində olan bütün etnik azlıqların, o cümlədən ermənilərin hüquqlarının qorunmasına həmişə sadiq olub. Azərbaycan rəhbərliyi bunu dəfələrlə şifahi şəkildə bəyan edib.



Təəssüf ki, indiyədək heç kim bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarını qorumağa, o cümlədən onların təhlükəsizlik və ləyaqət şəraitində qayıtmaq hüquqlarını təmin etməyə dair çağırış etməyib. Azərbaycanın 44 günlük müharibədən, o cümlədən anti-terror tədbirləri həyata keçirildikdən sonra itkin düşmüş şəxslərin yerini tapmaq üçün köməklik göstərməsinə baxmayaraq, 4000-ə yaxın itkin düşmüş azərbaycanlıya qarşı eyni diqqət və həssaslığı müşahidə etmirik. Ümid edirik ki, ali komissarın qurbanların hüquqları baxımından günahkarların məsuliyyətə cəlb olunması və cəzalarını çəkmələri məsələsinin həllini tapması üçün şəffaf istintaq aparmaq çağırışları, Azərbaycanın 30 ilə yaxın müddətdə Xocalı soyqırımı, digər kütləvi qətliam və insanlıq əleyhinə cinayətlərdə təqsirli şəxsləri cəzalandırmaq istiqamətində çağırışlarına məhəl qoymayan beynəlxalq ictimaiyyət tərəfindən ciddi şəkildə qəbul ediləcək.

Biz həmçinin, Ermənistanın, BMT nümayəndəsinin bu çağırışına əməl etməklə, bu ölkənin indiki ərazisindən kütləvi surətdə qovulmuş azərbaycanlıların hüquqlarını inkar etməyəcəyinə və onların öz evlərinə qayıtmaq hüquqlarını təmin etmək üçün dialoqa şərait yaradacağına ümid edirik", - XİN rəsmisi qeyd edib.

# Taleyin ironiyası: Rusiya Qarabağa daşıdığı erməniləri, indi də Ermənistana daşıyır

**2020-ci ilin noyabrında 44 günlük müharibə bitdikdən sonra 3 tərəfli razılığa əsasən Qarabağa yerləşən Rusiya hərbi kontingenti hökmranlıqlarını söz sahibi və vacib sima olduqlarını bildirmək üçün işə başladılar. İlk işləri müharibə dövründə Qarabağı tərk edən erməniləri müxtəlif vədlər vermək və onlara havadarlıq edəcəklərinə inandıraraq yenidən geri qaytardılar.**



Proses uzun çəkdi. 2020-ci ilin 14 noyabrdan 2021-ci ilin yanvarın sonuna qədər Qarabağa rus sülhməramlılarının qaytardığı ermənilərin sayı 48.459-a çatd. Rus sülhməramlıları ermənilərin İrəvandan təhlükəsiz gətirilməsi, yerləşdirilməsi, onlara humanitar yardım və mülki infrasturkturun bərpası ilə elə məşğul oldular ki, sanki separatçılara deyil öz atalarına xidmət göstərdilər.

O ərəfə Qarabağda ruslar 479,2 hektar sahəni, 182,8 km yolu, 710 evi minalardan təmizləyib başa çatdırdılar ki, gələn ermənilər peşman olub geri qayıtmasın.

Sonra Rusiya MN-nin Qarabağla bağlı günlük hesabatında bildirildi ki, Qarabağda 120 min erməni artıq yaşayır. Islində bunu yazarkən necə təsirləndiyimi, igidlərimizin qanı ilə qazanılan qələbəni rusların necə bərbad etdiyin dərindən əsəb keçirdiyimi xatırlayıram. Çox ağır günlər idi . Həzm ediləcək vəziyyət deyildi. Möhtəşəm Səməd vurgun demiş: Cahanda hər hökmü bir zaman verir, Dünən fərman verən bu gün can verir.

### İLAHİ ƏDALƏTİN TƏCƏLLİ TAPDIĞI GÜN

Ruslar erməniləri Qarabağa daşıyarkən, Allahın hökmü ilə bizə dəstək üçün başqa hadisələr də baş verdi. Rusiya Ukraynaya işğalçı bir hücum etdi. "72 saata Ukraynanı məğlub edəcəyəm" proqnozu ilə əl atmağdığı hərbi cinayətlər, törətmədiyi vəhşiliklər qalmadı. Ukrayna Rusiyanın gözlədiyi kimi olmadı bütün gücünü ortaya qoyub işğalçı ilə müharibəyə başladı.

Rusiyaya dəyən zərbələr, xüsusən 2022 -ci ilin aprelin 13-ü Ukrayna hərbçiləri tərəfindən Rusiyanın "Moskva" kreyserinin "Neptun" raketləri ilə vurulması, 186 m uzunluqda, 42,5 m hündürlükdə olan kreyser 510 nəfərdən ibarət ekipajı daşımaq gücünə malik olan 750 milyonluq gəminin batması Rusiyaya layiqli cavab oldu. Rusiyanı bu işğalçı müharibədə pis vəziyyətə qoyan isə itirdikləridir.

Rusiya indiyə qədər 275 850 hərbçi, 4662 ədəd tank, 8914 ədəd zirehli döyüş maşını, 6233 ədəd artilleriya sistemi, 789 ədəd RYAS (reaktiv yaylım atəş sistemi), 531 hava hücumundan müdafiə sistemi, 315 ədəd hərbi təyyarə, 316 ədəd helikopter, 8734 ədəd avtomobil texnikası, 4888 ədəd PUA, 1518 qanadlı raket, 20 gəmi/qayıq, 1 sualtı qayıq, 914 xüsusi avadanlıq itirib. Üstəlik dünyanın super gücləri tərəfindən saksiyalarla cəzalanıb. Bir sözlə, 2020-ci ildəki Rusiya deyil artıq. Rusiyanın belə bir aşağılıq durumu əlbəttə ki, Qarabağda da özünü biruzə verdi. Bu günün məlumatına görə, Qarabağdan Ermənistana 2906 nəfər daxil olub. Məlumatı Ermənistan hökumətinin mətbuat xidməti yayıb.

Onlardan 2100-nin qeydiyyatı başa çatıb, daha 794-ü üçün ehtiyacların qiymətləndirilməsi davam edir.

Qeyd olunur ki, Qarabağı tərk edən şəxslərin axını gecə boyu davam edib. Onların qeydiyyata alınması və qalmaları üçün şərait yaradılması istiqamətində işlər davam etdirilir.

Yeri gəlmişkən, ermənilərin baş bilənləri tez-tez Qarabağ ermənilərinə xəbərdarlıqlar edir ki, reinteqrasiyaya razı olub Azərbaycanın qanunlarını qəbul etməyin, ya mübarizə edin, ya Ermənistana qayıdın.Ümid edirik, öz ağıldankəm başçılarının öyüdünü dinləyən Qarabağ erməniləri Qarabağı daha sürətlə tərk edəcək.

**Rus ordusunun öz əlləri ilə gətirib Qarabağa yığdığı erməniləri öz əlləri ilə aparıb sərhəddən Emənistana tərəf ötürməsi isə Allahın qüdrəti, fələyin ironiyası, Azərbaycan ordusunun məğlubedilməzliyi sayəsindədir.**

**Əntiqə Rəşid**

Aqil ABBAS

# ERMƏNİLƏRDƏN ÜZR İSTƏYİRƏM

*Biz Murovdan ayaqyalın, başıaçıq, piyada, qucaqlarımızda donan körpələrlə gəlmişdik. Sizi öz maşınınızla, unitazınızla, qarşokunuzla, qucağınızda körpələrlə yola saldığımıza və cocuqlarınıza şokolad, su, ərzaq payladığımıza görə üzr istəyirəm.*

*Evlərimizi yandırdınız, yağmaladınız, şəhər və kəndlərimizi darmadağın elədiniz, qəbirlərimizi dağıtdınız, ölülərimizi insanlığa sığmayan təhqir etdiniz. Evlərinizi yağmalamadıq. Şəhərlərimizə, Ağcabədiyə, Ağdama, Tərtərə, Füzuliyə minlərlə raket atdınız. Şəhərlərinizi dağıtmadığımıza , ölülərinizin gorunu eşmədiyimizə görə üzr istəyirəm.*

*Qızlarımızı, qadınlarımızı zorladınız, anaların gözləri önündə oğullarımızın başını kəsdiniz. Yazar Zori Balayan 6 yaşlı qızcığazı divara mismarlayıb dərisini soyub necə ləzzətlə öldüyünü seyr etdiyinə görə, biz balalarınızı öldürmədiyimizə görə, analarınızın gözü qarşısında oğullarının başını kəsmədiyimizə görə üzr istəyirəm.*

*Mən də yazaram. Balayandan da yaxşı yazaram. Amma mən "Qar üstündə qan çiçəyi" əsərimdə Komandirim 18 yaşlı erməni əsgəri görür donub ölür, öz əsgərinin ölməyinə baxmayaraq, onu bağışlayır ki, get yaşa. Buna görə üzr istəyirəm. "Dolu" romanımda erməni qızını Drakon əsgərlərə zorlamağa qoymadığına görə üzr istəyirəm.*

*1992-ci ildə Əsgəranda Ağdam uşaqları mənə güllələmək üçün hədiyyə etdikləri erməni əsgərini güllələmədiyimə, sağ buraxdığıma görə üzr istəyirəm.*

*Bütün tarixi abidələrimizi, məbədlərimizi, məscidlərimizi yandırdınız, içində donuz saxladınız, biz isə Bakıdakı erməni kilsəsini yandırmadıq. Yandırmadığımız cəhənnəm, heç içinə işəmədiyimizə görə üzr istəyirəm.*

*Əsgərana, Martuniyə, Ağdərəyə, Hadruta bircə dənə bomba atmadığımıza görə üzr istəyirəm.*

*Sizi sağ-salamat yola saldığımıza görə, polislərimiz uşaqlarınıza, cocuqlarınıza ərzaq yardımı, su, hətta benzin verdiyinə görə üzr istəyirəm.*

*Və sonda. Sizə işıq, yanacaq, ərzaq, dərman verdiyimizə görə şəhid analarından və şəhidlərin ruhundan üzr istəyirəm.*

*Həm də bunu yazdığıma görə oxuculardan üzr istəyirəm.*

Səxavət Məmməd

# Biz nə istəyirik?



**Müharibə dayanır, deyirik ki, niyə Xankəndinə, Xocalıya, Xocavəndə, Ağdərəyə girmirik. Detalları ilə vəziyyəti ortaya qoyursan ki, əgər müharibə 10 noyabr hədlərində dayanmasa və Kəlbəcər, Ağdam, Ağdərə uğrunda döyüşlər davam etsəydi itkilərimiz 3 minə yaxın yox, 13 minə yaxın olacaqdı müharibə aylarla davam edəcəkdi. Kimə deyirsən?!**

**3 ilə yaxın Azərbaycan tərəfi gözlədi, vaxt verdi, şərait yetişdi və antiterror tədbirlərinə start verdi.**

**Azərbaycan mövqelərə qoşun yeridib, hazırlığa başlamazdan əvvəl səhər, günorta, axşam niyə antiterror başlamırıq, Xankəndində nə vaxt bayraq dalğalandırırıq deyənlər, göründəki vəziyyət ciddiləşib, əməliyyat qaçınılmaz olacaq, yenə dalğaya start verdilər "camaatın balasın qırğına verəcəklər", "çoxlu şəhid olacaq". Niyə antiterror etmirik, o torpaqlar qaldı erməniyə deyən adam bir günün içərisində valı dəyişir. Ay adam, şəhidsiz, itkisiz antiterror, nə bilim adına hər nə qoyusan qoy, əməliyyat olur? Cavabları da duyğusal olur - qaqa, kasub-kusubun balaları qırılacaq, varlıların nə vecinə? Vallah, billah o bir dönəm idi zadəgan övladları orduda xidmət edirdi, zabit olurdular, onda orduda xidmət kişilik, şərəf, ləyaqət, qürur məsələsi idi. Kişilik, şərəf, ləyaqət, qürur çoxdan dəbdən düşüb. Türkiyədə şəhid olanların evlərini görməmisiniz? Bizdə necə əsgərlikdən gələn gənc iş tapa bilmədikdə son variant olaraq orduya yazılıb MAXE olur, ABŞ-də də elədir.**

**Antiterror tədbirləri başlayır və 24 saat sonra yekunlaşır. Öncə iradlar başladı. Erməniyə inanmaq olmaz. Niyə görə, axıra qədər getmədik? Erməniyə istər inan, istər inanma, reallıq və məntiq onu deyirdi ki, məsələnin hərbi yönü bitib. Hətta "the end" yazdım. Yenə dedilər ki, bilmirsən, bu işin axırı yaxşı olmayacaq.**

**Bu işin sonu necə pis ola bilərdi ki, aprel ayından, daha dəqiq Laçın sərhəd keçid məntəqəsi qurulandan separatçılara silah, sursat gəlmirdi. Antiterror əməliyyatı zamanı isə onsuzda əlləri kənardan üzülən separatçıların bölmələri arasında əlaqə kəsildi, bütün yollara və yol qovuşaqlarına Azərbaycan ordusu nəzarət edirdi. Xaricdən olmadığı kimi, daxildən yardımlaşma dayanmışdı. Belə olan halda onsuzda təslimçiliyi qəbul edən tərəfin təslim olmayacaqlarını deyən bəzi qrupları nə qədər dözüş gətirə bilərdi? Belə şəraitdə ya dəli olub müqavimət göstərməlisən, ya da intihara meyilli olmalısan. Başqa variant yox idi.**

**Atəşkəsin ilk günü bəzi qruplar müqavimət göstərdi, onlar sıradan çıxarıladı. Müqavimət gösrəcəklərini bildirən bəzi bölmələr isə sonradan anladılar ki, mənasızdır, silahı qoyub çıxmağa başladılar. Artıq bütün istiqamətlər üzrə silahlılar silahlarını təhvil verib, Ermənistana gedirlər.**

**Bunları görən həmin adamlar deyir ki, bəs orda ermənilər qalacaq? Deyirsən, hə. Deyir, onda bu nə oldu.**

**Bax həmin bu adamlar BMT Təhlükəsizlik Şurasının iclası başlayanda narahat olmağa başladılar ki, birdən Azərbaycana sanksiya tətbiq edərlər, onda onsuzda pis olan həyat şəraitimiz daha da pis olacaq. Azərbaycan elə səliqəli əməliyyat keçirdi ki, nə bir mülkinin burnu qanadı, nə bir mülki obyekt zərər gördü, bunun qarşısında BMT Təhlükəsizlik Şurası heç mık da edə bilmədi.**

**Eyni tip adamlar yenə sual verir, bəs hər şey yaxşıdırsa, niyə bayraq sancmırıq? Ordu işin bitirir, təhvil-təslim işləri aparılır, ondan sonra əraziyə həmin mövqelərə Daxili Qoşunlar daxil olacaq, tədricən isə yaşayış məntəqələrinə giriləcək.**

**Bəs Rusiya sülhməramlıları qalacaq? Rusiya qalacaq, ancaq bundan sonra sülhməramlı kimi fəaliyyət göstərəcəklərini düşünmürəm.**

**Hesab edirəm ki, əvvəlcə ruslar, ardınca isə Azərbaycan polisi və ermənilərdən olan polis nümayəndləri ruslarla birgə fəaliyyət göstərəcək. Ən məntiqlisi də budur.**

**Orda ermənilər yaşadıqca problem həmişə qalacaq. Həqiqətən siz nə düşünürsünüz? Erməniləri ordan kürüyəcəkdik? Onsuzda Azərbaycanla birgə yaşamaq istəməyənlər onsuzda çıxıb gedirlər. Ermənistan da onlara qucaq açır. Onların Ermənistana getməsində elə rəsmi İrəvan özü də maraqlı ola bilər. Ermənistanda ciddi demoqrafik problem var. Həm təbii artım aşağıdır, həm də ölkəni tərk edənlər çoxdur. Ermənistan Qarabağdakı ermənilərə qucaq açaraq bu məsələni nisbətən həll etmiş də olacaq.**

**Deyir, Moskva birdən-birə tikilməyib. Qarabağda da hər şey asta-asta, aram-aram həll olur və olmaqdadır. Əminəm ki, bunları hər kəs görür və dərk edir, belə olan halda bu qədər hay-küy nəyə və kimə lazımdır?**

**Ümumiyyətlə, biz nə istəyirik? Şəhid istəmirik, əməliyyat istəyirik, sanksiya istəmirik, ermənilərin kökün kəsmək istəyirik, şəhidimiz var matəm istəyirik, toy istəmirik, ancaq toylarda qol qaldırıb oynayırıq. Deyir, istəmək işin yarısıdır. Biz hələ toplum olaraq nə istədiyimizi bilmirik...**

# GÖYÇAY: ŞAH ƏSƏRİN FRAQMENTİ

**Ulu öndər Heydər Əliyev üçün Azərbaycanın bütün problemləri onsuz da məlum idi. Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik edən generalın gözündən, əlbəttə heç nə qaçmırdı. İqtisadiyyatdakı gerilik, xüsusilə kənd təsərrüfatının bərbad vəziyyəti, əksər rayonlarda əhalinin yaşayış səviyyəsinin son həddə yaxınlaşması - bütün bunlar vətənpərvər bir insan üçün çox ağır, daha pis perspektivlər vəd edən gerçəklik idi. Onun hakimiyyətə gətirilməsi zərurəti məhz bu səbəbdən yaranmışdı.**



Azərbaycan bütün istiqamətlərdə dirçəlib inkişaf etməli, onun vətəndaşlarının yaşayış vəziyyəti yüksəlməlidir!

Rəhbərin yüksək səviyyəli kadr siyasəti, işgüzarlığın artırılması, xoş gələcəyə doğru ötən hər günün təntənəyə çevrilməsi, nöqsanlara və ədalətsizliyə qarşı barışmazlığı, gənclərə inamı, gələcək üçün daha səviyyəli kadr potensialının formalaşdırılması, ən başlıcası müntəzəmliklə xalqla geniş ünsiyyəti, tez-tez rayonlarda, əsasən kənd təsərrüfatı sahələrində olmaq onun hamıya sirayət edən zəhmətsevərlik və vətən-xalq sevgisi dərsləri idi.

Nəticə çox tez öz həllini tapdı. Paytaxt Bakıda yeni-yeni sənaye müəssisələri, yaraşıqlı binalar, yaşayış mənzilləri artmağa başladı. Pambıqçılığın,



üzümçülüyün, barama və tütünçülüyün, tərəvəzçiliyin ildən-ilə yüksəlməsi Azərbaycanı ayağa qaldırdı, SSRİ kimi nəhəng bir ölkədə birincilər sırasına çıxartdı. Rayonları, kəndləri birləşdirən o dövrlər üçün rahat sayıla biləcək yeni yollar çəkildi. Pambıq zavodları, üzüm emalı müəssisələri, fermentasiya qurğuları və digər vacib tikintilər sürətlə inşa edilərək istehsala qovuşduruldu.

Kəndlərdə həyat görünməmiş bir təntənə və sevinclə gələcək günlərə boylanırdı. Bir çox miskin görkəmli kənd - lər təsərrüfat gəlirlərinin hesabına görkəmlərini dəyişir, ağac doqqazlar, taxta və dəmir qapılarla bəzənir, yeni evlər tikilir, kol-kosdan hörülmüş həyətyanı sahələr səliqəli kərpic və daşlarla ucaldılmış hasarlarla əvəzlənir və bu evlərin küçə qapılarından həyətlərə artıq kəndlinin özünə məxsus müxtəlif markalı minik maşınları da keçib ailə üzvlərini sevindirirdi, xüsusilə də sanki nağıllar aləminə düşmüş uşaqları!

Bütün bunlar uzaqgörən dahiyanə plan-proqramın başlanğıcı idi. Heydər Əliyev bütün nazirlik və rayon rəhbərlərinin qarşısına konkret tələb qoymuşdu: vətəndaşlarımız keçmişin his-pasından çıxaraq yaxşı və firavan yaşamalıdırlar. Nadir hallarda bu müdrik siyasətin qiymətini bilməyənlər də olurdu və Birinci onları bağışlamırdı, cəzalandırırdı.

Beləcə, Ulu öndərin Göyçaya da xüsusi diqqətini xatırlamaq, rəhbərin əziz xatirəsini hörmətlə yad etmək gərəkdir. Həm də Göyçayla bağlı Heydər Əliyevin ümumrespublika səviyyəsində paylaşılan qayğı və diqqətindən başqa, çox böyük həyati əhəmiyyət kəsb edən xüsusi münasibəti də heç vaxt unudulmur. Qədirbilən göyçaylılar Ulu öndərin bir çox qayğıları ilə yanaşı, onun məhz vaxtında göstərdiyi əsl xilaskarlıq missiyasını qəlblərində ən əziz adamın bəşəri obrazı kimi yaşadırlar.

...Onda ki, Göyçay dirçəlib inkişaf yoluna çıxmışdı, onda ki, pambıq tarlaları, üzüm plantasiyaları, nar bağları artıq gözlənilən nəticələri də ötüb keçmişdi, kəndlər canlanmışdı, rayon mərkəzində yeni-yeni tikintilər ucalmağa başlamışdı, bu gözəl çinarlar şəhərini Göyçay çayı deyil, şəhərin ortasından keçək Əlvan adlı çay yatağının qarşı dağların bu yatağa açılan dərələrinin daşıdığı sel suları əməlli-başlı daşqın yaratmış, şəhərin mərkəzini və mərkəzə yaxın küçə və evlərini zədələyib uçurmuşdu. Bu, təbiətin çinarlar şəhərinə verdiyi çox qorxulu bir siqnal idi.

Elə həmin ilin sentyabrında Azərbaycan Respublikası KP MK-nın birinci katibi Heydər Əliyev Göyçaya gəlmişdi. Həmin il güclü təsərrüfat adamı Laçın Mikayılovun sədr olduğu S.Vurğun kolxozu həm rayonda, həm də deyəsən elə respublikada pambıq planını birinci olaraq yerinə yetirmişdi. Və həmin S.Vurğun kolxozu mövsümün sonunadək 150 faizdən artıq məhsul istehsal etmişdi. Rəhbər qabaqcıl təsərrüfata gedib pambıqçılarla çox səmimi söhbətlər keçirərkən orada həmin 1972-ci ilin iyun ayında baş vermiş sel daşqınının təkrar olacağı qorxusu da xatırlanmışdı. Heydər Əliyev bu istiqamətdə də tapşırıqlarını verib Göyçay camaatından xoş əhval-ruhiyyə ilə ayrılmışdı. Yeri gəlmişkən, xatırlatmaq istəyirəm ki, o vaxt Göyçayın birinci katibi məşhur Rüstəm Səfərəliyev idi. Respublika rəhbəri bu işgüzar və zəhmli adamı sanki böyük uzaqgörənliklə Göyçaya göndərmişdi ki, həmişə yaxşı tanınıb sonradan bərbad vəziyyətə düşən rayonu dirçəltməkdə nümunə göstərsin. Bu tarixləri də xatırlamaq lazımdır. Heydər Əliyev Moskvaya getməzdən əvvəl daha iki dəfə - 1978-ci və 1981-ci illərdə də Göyçaya səfərlər etmiş, buradakı təsərrüfat və quruculuq işlərinin hansı səviyyədə olması ilə özü yerindəcə tanış olaraq əlavə tapşırıqlar vermişdir. Artıq kolxoz və sovxozlar öz istehsal istiqamətləri üzrə formalaşmış, şəhərdə onlarla yeni çoxmərtəbəli yaşayış evi tikilmiş, deyəsən Bakıdan sonra ilk yeraltı keçid də qurulmuş, eyni zamanda quşçuluq kompleksləri, yeni çörək zavodu, nar emalı zavodu, toxuculuq kombinatı və bir sıra müəssisələr həmin illərdə məhz respublika başçısının göstərişi və nəzarəti ilə tikilmişdi.

...S.Vurğun kolxozundakı görüş zamanı göyçaylıların Əlvan çayı ilə bağlı xahişindən sonra iki dağın arasından şəhərə daxil olan yatağın üzərində sel suların qarşısı alına bilər səviyyədə bənd tikilmişdi. Bu bənd müəyyən qədər də öz funksiyasını yerinə yetirə bilirdi. Ancaq 1976-cı ilin yayında gecə saat 10 radələrindən başlayan güclü leysan sanki Böyük Qafqazın cənub ətəklərindəki Boz dağın bütün dərələrinin suyunu Əlvana yönəltmişdi. Gecəyarı bənd güclü təzyiqə tab gətirməyib uçdu. Əlvan öz tutumundan 2-3 qat artıq sel sularını üzü aşağı Kürd və Potu kəndlərinin düzənlərinə kimi daşımaq halında deyildi. Sel suları Əlvan ətrafını dağıda-dağıda paralel küçələri də aşıb-daşıb 800-1000 metr sola, 400-500 metr də sağa nə varsa dağlardan axıb gələn lil qarışıq sularla tanınmaz hala qoydu. Şəhərdaxili arxlar, Göyçayın və qonşu rayonların yanğınsöndürən briqadaları və bir də möhkəm özüllü binalar olmasaydı həmin gecə Göyçay şəhərinin ən azı 60-70 faizi su altında qalacaqdı. Həlak olanların sayı 2 nəfər yox, bəlkə də 200-300 nəfəri keçəcəkdi. Həmin illər şəhər əhalisinin sayı 30000 nəfərdən çox idi.

Bu, çox qorxulu hadisə idi. Çünki hamının Arvan dediyi bu yataq əslində çay deyildi. Şəhərin yuxarı hissəsindən içərilərə doğru daxil olan və hamının Arvan adlandırdığı dərədəki onlarla təbii bulağın sularını adi günlərdə zəif bir arx həcmində daşıyırdı şəhər boyu. Mən o vaxtlar bu dərə və çay yatağı haqqında çoxlu yazılar yazıb, nəhayət ki, həmyerlilərimin də leksikonundan Arvan sözünü çıxarmağa müvəffəq oldum. Daha hamı elə mənim kimi Əlvan dərəsi deyir. Əlvan çayı isə daha yoxdur. 1976-cı ilin o ağır təbiət hadisəsindən sonra Birinci onu vaxtında düzgün məlumatlandırmayanları cəzalandırmaqla yanaşı, həmin yerdə o vaxtlar üçün çox nəhəng bir su qurğuları olan bənd tikdirdi. Bu elə də asan məsələ deyildi. Vəsait çox tələb olunurdu və belə tikintilər üçün mütləq Moskvanın razılığı olmalı idi. Heydər Əliyev bütün bu məsələləri sürətlə həll etdi. Heydər Əliyev tikinti başa çatıb istifadəyə verilənə kimi bütün məsələlərə birbaşa özü nəzarət edib göstərişlər verdi. Bu bənd öz funksiyasına görə o qədər möhtəşəm və etibarlıdır ki, artıq heç kəsin... yadına da düşmür. Ancaq Ulu öndərin bu unikal əsəri və ulu ruhu elə o vaxtlardan bəri bu gözəl şəhərin keşiyini çəkməkdədir.



Ulu öndərin Göyçaya olan müstəsna qayğıları söhbət açdığım bu əhvalatlarla bitmir. Rəhbərin ikinci hakimiyyəti dövründə Bakı-Şamaxı-Yevlax magistralının Göyçay çayı üzərində ən müasir qurğulu strateji körpünün tikilməsi böyük hadisə, bayram səviyyəli təmtəraq idi.

Eyni zamanda Ulu öndərin respublika ərazisində şəhər su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə ilk sərəncamı da Göyçay, Ağdaş və Naxçıvan haqqında olmuşdur.

**İndi bütün bunları düşünərkən, Ulu öndər və Göyçay hekayətlərinin olduqca xoş və doğma məqamları gözlərimiz önündə gerçəkdən dahi bir şəxsiyyətin çox böyük və möhtəşəm portreti canlanır. Və düşünürsən ki, Göyçay da daxil olmaqla bütün Azərbaycan, bu günkü müstəqil və Qalib Azərbaycan o Dahinin Şah Əsəridir!**

**Məzahir ƏHMƏDOĞLU**

---

<u>*Rüstəm Hacıyev*</u>

# ABŞ Ukraynaya hərbi yardımı dayandıra bilər



***Ağ Evin milli təhlükəsizlik şurasının strateji məsələlər üzrə kordinatoru Con Kirbi bəyan edib ki, Ukraynaya göndərilən hərbi yardımlara ayrılan vəsait tükənmək üzrədir.***

***Kirbi qeyd edib ki, bi vəsait bir neçə həftəyə çata bilər və ona görə də, Kiyevə davamlı köməyin göstərilməsi üçün Konqress əlavə vəsaitin ayrılması məsələsinə tezliklə qərar verməlidir. Kordinator, qanunvericiləri Ukrayna cəbhəsində əlverişli şəraitin davam etdirilməsi üçün 24 milyard dollar ayrılması məsələsini tezləşdirməyə çağırıb.***

***"Bizim hələ bir neçə həftəyə çata biləcək vəsaitimiz qalıb. Tələb olunan maliyə ayrılmasa, payız və qış aylarında Ukrayna dəstək verməyimiz qəti mümkün olmayacaq"- deyə Kirbi bildirib.***

***Alman politoloqu, Bonn Universitetinin professoru Xaynemann-Qryuder xəbərdarlıq edir ki, Ukrayna tezliklə ABŞ-ın dəstəyindən məhrum ola bilər. Professorun fikirincə, silah-sursat təminatı daha altı ay davam edəcək, sonra dayanacaq. Daha sonra Vaşinqtonun ardınca Qərb dövlətləri də silah-sursat dəstəyini dayandıracaq.***

***Lakin hələ ki, ABŞ, Ukraynaya vəd etdiyi "Abrams" tanklarının ilk partiyasının göndərildiyini təsdiq edib. Tanklatın sayı barədə məlumat verilməsə də, Con Kirbi yaxın vaxtlarda yeni partiyanın göndəriləcəyini bəyan edib.***

***Əslində ABŞ-ın dolları çoxdu və dünyanın istənilən yerində törətdikləri avantyuralar üçün "səxavətlə" milyardlarla dollar səpələməyə hazırdılar və bunu dəfələrlə nümayiş etdiriblər. Kirbinin təlaş dolu bəyanatına da ehtiyac yoxdur. ABŞ qarşısına Rusiyanı çökdürmək məqsədi qoyub və bu məqsədinə çatmaq üçün, lazım gəlsə bütün büdcəsini də ortaya qoya bilər...***

---

# *Ərdoğanla Paşinyan telefonda nədən danışıb?*



**"Ermənistandan prosesi uzatmaq əvəzinə, güclü iradə nümayiş etdirməsini gözlədiyirik".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycandan rəsmi səfərdən qayıdan zaman jurnalistlərin suallarını cavablandırarkən deyib. Onun sözlərinə görə, bu gözləntilərini sentyabrın 11-də Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı zamanı da bildirin: "Biz Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, qonşuluq hüququna hörmət edilərsə, həlli mümkün olmayan heç bir problem görmürük. Azərbaycan-Ermənistan normallaşma prosesində irəliləyişin əldə olunması həm də regional normallaşmaya böyük təkan verəcək".

Türkiyə Prezidenti vurğulayıb ki, ölkəsi Cənubi Qafqazda sabitliyin, sülhün və rifahın bərqərar olması üçün Azərbaycanla işləməyə davam edəcək: "Ümidvaram ki, səfərimiz təkcə ikitərəfli münasibətlərimiz üçün deyil, bütün regionumuz üçün faydalı olacaq. Mənə və nümayəndə heyətimə göstərilən müsbət qəbula görə qardaşım, Azərbaycan Prezidenti İlham Əliyevə bir daha təşəkkür etmək istəyirəm".

---

# *"Marağa 150" - Ordumuz 30 illik yox, 195 illik bir problemə NİDA qoydu*

**Qəti və möhtəşəm qələbəmizdən sonra hər kəsin qəlbində bir sevinc göyərir. 1828-ci ildən etibarən Qarabağı mənimsəyib, oranı "dədəsindən qalmış" kimi hiss edən ermənilər gedəcək. Həm də tamamilə gedəcəklər. Bəli, ermənilərsiz nəhayət bir Qarabağ olacaq və o tamamilə azərbaycanlılara məxsus olacaq.**

Ordumuzun qüdrətli qolu , gücü, qeyrəti və döyüş əzmi 30 yox, 195 illik bir problemə son verdilər! Ali Baş Komandan İlham Əliyev demiş Qarabağ - Azərbaycandır. Və nida işarəsi!

***Xatırlatma:*** 1828-ci il fevralın 10-da imzalanmış "Türkmənçay müqaviləsi"nin XV maddəsi ermənilərin köçürülməsini nəzərdə tuturdu.

XV maddədən: "Şah həzrətləri Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir Bundan başqa, o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satılıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə onun satılması və ya onun haqqında könüllü sərəncam üçün beş illik müddət müəyyən edilir".

Ermənilərin köçürülməsini təşkil etmək üçün İrəvan və Naxçıvanda köçürmə komitələri yaradıldı. Köçkünlərə mühüm imtiyazlar verildi: onlar 6 il müddətində vergi və mükəlləfiyyətlərdən azad edildi, onlara İrandan alınan təzminat hesabına vəsait verildi və s.

Müəyyən hazırlıq tədbirləri həyata keçirildikdən sonra köçürmə başladı. İrandan



köçürülən ermənilərin sayı 40-50 min nəfər təşkil edirdi. 1828-1829-cu il rus-türk müharibəsinin gedişində və müharibədən sonra Türkiyədən də 90 min erməni köçürüldü. İran, Türkiyə və digər Şərq ölkələrində ermənilərin Rusiyaya köçürülməsi bütün sonrakı dövr ərzində davam etdirildi.

Köçürmənin əsas istiqaməti Zaqafqaziya idi.

1823-cü il məlumatına görə Qarabağ vilayətinin (keçmiş Qarabağ xanlığının ərazisi -K.Ş.) 20 minə yaxın ailəsindən cəmi 1, 5 minini erməni ailəsi təşkil edirdi.

Köçürmədən sonra əhalinin etnik tərkibi kəskin şəkildə dəyişir.

1832-ci ildə azərbaycanlılar Qarabağ əhalisinin 64,8 %, ermənilər isə 34,8% təşkil etdi. Bu siyasət məqsədyönlü şəkildə davam etdirilməyə başladı.

XIX əsrin 80-ci illərində Şuşa qəzasında əhalinin milli tərkibində azərbaycanlılar 41,5% ermənilər isə 58,2% oldu.

Rusiyada əhalinin 1897-ci il siyahıya alınmasına görə bu rəqəmlər 45 və 53%, 1917-ci ildə isə 40,2 və 52,3% olmuşdu. 1918-1920-ci illərdə Ermənistan Respublikasının törətdikləri azərbaycanlı qırğınları Qarabağı da əhatə etmişdi. 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Respublikasını təşkil edərkən tarixi ədalətsizliyə yol verildi, Qarabağın dağlıq və aran hissəsi süni şəkildə bir-birindən ayrıldı, erməni əhalisinin konsolidasiyası üçün əlverişli şərait yaradıldı, azərbaycanlıların demoqrafik mövqeyinə ciddi zərbə vuruldu.

**Qarabağdakı "Marağa 150" abidəsi isə dediklərimizə sübutdur!**

**Yaşa Azərbaycan ORDUSU!**

**Əntiqə Rəşid**

---

# "Dərs"in ürəkaçan nəticəsi: "Torpağın sahibi sizsiniz"

**Orta məktəbdə oxuyurdum.3-cü sinifdə. Bir gün sevinə-sevinə gəldim ki, ana, bu gün şeiri əzbərdən söylədim 5 aldım.**

Anam da dedi ki, gəl sabahkı dərsini öyrən. Vecimə almadım. Çantamı atıb getdim "evcik" oynamağa.. Anam bir neçə dəfə xəbərdarlıq eləsə də, kitaba yaxın getmədim. Səhər açıldı.



Çantamı dünən gətirdiyim kimi-ağzını açmamış götürüb getdim dərsə. Rahatam. Bilirəm ki, müəllim məni dərsə qaldırmayacaq Çox rahat. Uşaqlarla, danışıram, gülürəm, zarafatlaşıram. Zəng çalındı. Səlbinaz müəllimə girdi sinfə. Yerini rahatlayıb outran kimi amiranə səslə dedi:

**- Əntiqə, gəl dünən verdiyim şeiri danış!**

Adımı eşidəndə, öldüm yapışdım oturacağa Əntiqə nə gəzir? Rəngim qaçıb, dilim topuq çalır. Nə qədər çalışıram deyəm ki, müəllim dərsimi öyrənməmişəm müəllimin baxışlarını görəndən sonra ağzımdakı söz hara qaçıb gizlənirsə, tapa bilmirəm. Səlbinaz müəllim oturduğu yerdən qalxdı, mənə yaxınlaşdı. Şapalağın səsi yadımdadı Sinifdə exo verdi. Şapalaq məni tutub, uşaqların nitqi batıb..

**-Dərsi başa düşməmişdin? Düşməmişdinsə, soruşaydın, öyrənəydin?Dərsini niyə oxumamısan?**

Cavab verməyə hal nə gəzir? Şşşşaa-appp!

**- Müəllim, oxuyacağam!**

Və elə o gündən 7 il orta məktəb, 2 il 6 ay texnikum, 5 il də universitet . Hələ yadıma düşmür ki, 14 il 6 ay müddətində məktəbə hazırlıqsız gedəm.. Dərsimi hazırlamamış heç çörək yemək də ağlımın ucundan keçməyib. Məni məndən xəlvət müəlliməyə şikayət edən anam hər dəfə Səlbinaz müəllimdən soruşandaki, qız dərsə hazırlıqlı gəlirmi? Səlbinaz müəllim güləgülə deyirdi ki, onun "dərs"ini elə vermişəm ki, ömrü boyu unutmaz! Doğrudan da heç unutmadım!

**Bu xatirəni niyə danışıram?**

Deməli, report.az-a danışan Qarabağın erməniəsilli sakini Robert Safaryan deyib ki, Azərbaycan tərəfdə əsirlikdə olanda



onunla yaxşı rəftar edilib, vəziyyəti ilə yaxından maraqlanıblar:"Mən Azərbaycan xalqını sevirəm. Bu, belə də olmalıydı. Gec-tez siz torpağınızı azad edəcəkdiniz. Mənə nə İrəvan, nə də Qarabağ lazımdır. Səmimi deyim ki, torpağın sahibi sizsiniz. Tənha adamam, Rusiyaya gedəcəm. Xankəndiyə yenidən qayıtmaq istəmirəm. Heç bir təzyiq göstərilmir, normal qaydada yoxlanılıb keçirik".

İndi düşünürəm ki, Qarabağda yaşayan və Azərbaycana qarşı 100 ildir düşmənçilik edən ermənilərin dərsini həşəmətli ordumuz, dəqiq siyasətimiz necə gözəl veribsə, hamısı bülbül kimi cəhcəh vurur. Hələ o gün də bir erməni deyir ki, nə danışırsınız. nə düşmənçilik mən azərbaycanlıları həmişə sevmişəm, Hələ sizing qarmonçalan Aftandil İsrafilovla da dost-tanış olmuşuq!

Hələ görün Qarabağın erməniəsilli sakini Slava Usebyan nə deyib?

Deyib ki, azərbaycanlılarla həmişə münasibətləri yaxşı olub, duz-çörək kəsib:"Mən Xankəndidə, eyni zamanda Bakıda da yaşamışam. Orta məktəbi də elə paytaxtınız Bakıda bitirmişəm. Bakıda Montin qəsəbəsində qalırdım. Azərbaycanlılarla duz-çörək kəsmişəm, çox yaxşı insani münasibətlərimiz olub. Allah etsin, yenidən mehribançılıq olsun. İki evimi-eşiyimi qoyub, çıxdım Xankəndidən. Yanğından mühafizə idarəsində rəis müavini vəzifəsində çalışmışam. Bakıdakı dostlarımla olan şəkillərimi hər zaman saxlayırdım. Erməni tərəfi düşünür ki,



məni burda saxlayıblar. Amma çox rahat şəkildə heç bir təzyiq olunmadan keçid edirəm".

**Qurban olum e sizə "dərs" verənlərə, yaxşı "dərs" verib. İnsan psixologiyasının xeyirliyə inkişafı "dərssiz" mümkün deyil:"Torpağın sahibi sizsiniz". Artıq hər şeyi əzbər bilirsiniz**

**Əntiqə Rəşid**

---

# *Rusiyanı qıcıqlandırmaq cəhdi: ABŞ hərbçiləri Paşinyanı qorumaq üçün qaldılar*

**Erməni jurnalist Georq Xaçatryan elan edib ki, Ermənistan hökumətinin binasında amerikalı desantları Paşinyanı mühafizə edir.**





Zatən 11-20 sentyabrda Ermənistan ordusunun ABŞ-la birlikdə keçirilən "Qartal tərəfdaşı 2023" təlimi hələ başlamamışdan əvvəl amerikanların geri qayıtmayacağı deyilirdi. Hətta bu fikri Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karauz da təsdiqləmişdi. General təlimə gələcək ABŞ hərbçilərinin böyük bir qisminin fərqli adlar altında orada qala biləcəyi ehtimalının yüksək olduğunu bildirmişdi: "Əlbəttə, sözügedən təlimdə əsas məqsəd Rusiyaya siyasi mesaj verməkdir. Ancaq fikrimcə, ABŞ-ın göndərdiyi 85 hərbçinin böyük bir qisminin təlimdən sonra təlim-tədris, təşkilati işlər, hərbi məsləhətçi, müşavir və s. adlar altında Ermənistanda qalma və fəaliyyət göstərmə ehtimalı çox böyükdür. Bu, vəziyyəti daha qarışıq hala gətirəcək, Rusiyanı hiddətləndirəcək və ölkə daxilində hakimiyyət uğrunda mübarizəni qızışdıracaq. Hətta Ermənistanda qalacaq Amerika hərbçilərinin AB-nin oradakı "mülki missiya"sının pərdə arxasında fərqli vəzifələr yerinə yetirən üzvləri ilə birlikdə fəaliyyət göstərəcəyini də təxmin etmək olar. Bütün baş verən hadisələri böyük çərçivədə və hərtərəfli şəkildə görməli, buna görə hazırlığımızı aparmalıyıq. Paşinyan hökumətinin AB missiyasını ölkəyə dəvət etməsini, NATO-nun Avropa İnkişaf Komitəsinin sədri Günter Fehlingerin İrəvanın təşkilata üzvlük təklifini, ABŞ-la birgə keçiriləcək təlimi və digər məsələləri göz önünə aldığımız zaman artıq Qərbin Cənubi Qafqazda Ermənistan üzərindən Rusiyaya qarşı ikinci cəbhə açdığını deyə bilərik". Türkiyəli siyasətçinin sentyabrın əvvəlində söylədiyi fikirlər sentyabrın sonunda təsdiqini tapdı. Beləki, erməni politoloq Abraam Qasparyan da qeyd edib ki, ABŞ hərbçiləri hərbi təlimlər başa çatdıqdan sonra İrəvanı tam heyətlə tərk etməyiblər. Onların bir qismi Baş nazir Nikol Paşinyana dəstək vermək üçün Ermənistanda qalıb.

**Əntiqə Rəşid**

---

# Politoloq: «Ermənistanın Azərbaycan Ordusuna qarşı...»

**"Ermənistanda etiraz aksiyalarını təşkil edənlər onların keçmiş hakimiyyətinin nümayəndələridir. Bura onlar başıboş tələbələri də cəlb ediblər. Çalışırlar ki, Paşinyanı hakimiyyətdən göndərsinlər. Amma onların ictimai təməli çox zəifdir"**



Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə deyib. Politoloq təşkil edilən etiraz aksiyasının heç bir şeyə nail ola bilməyəcəyini bildirib: "Ora bir neçə min adam çıxır və onlara da Paşinyan hakimiyyəti təhvil verən deyil. Yadınıza salmaq istəyirəm ki, Paşinyanı hakimiyyətə gətirib, Sarkisyanı hakimiyyətdən göndərən mitinqlərin sayı yüz minlərlə idi.

Amma indi 10 min adamın etiraz aksiyalarında iştirakı yetərincə deyil. Dünən erməni müxalifəti cəhd etdi ki, Paşinyanın təcrübəsindən istifadə edib Yerevanın əsas küçələrini iflic etsinlər. Amma polis onların qarşısını aldı. Yəni mitinqlərdə kütlə, ideoloji, güc amili yoxdur. Paşinyan da yerində oturub öz siyasətini davam edir.

Ermənistanın Azərbaycan Ordusuna qarşı döyüşə biləcək ordusu yoxdur. Həmçinin Ermənistanın müttəfiqi yoxdur. Rusiya onlardan üz döndərib. Bizim müttəfiqimiz Türkiyədir. Azərbaycan qədər iqtisadi gücü də yoxdur. Qaldı ki, Qarabağı artıq 13 min erməni tərk edib və hələ bu köç davam edəcək. Vəziyyət ağırdır" .

**Vasif Əlihüseyn**

*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*



# DOST BELƏ OLAR!

**...Əsl dost necə olmalıdır?! Onun tərifini dəqiq deyə bilməsəm də, bir onu deyə bilərəm ki, əsl dost çətin gündə sınanır! Heç bu sözlər mənim də fikrim deyil. Müdrik insanların səsləndirdiyi kalamdır. Bircə onu bilirəm ki, əsl dost ağır gündə, dar gündə sınanır!... Əgər həmin dost dar gündə, ağır gündə sənin yanında olursa, bax ona dost demək olar...**

**...Mənim də həyatda dostlarım çox olmayıb, yəni onlar barmaqla sayılasıdır. Və belə dostlardan biri də Baş Dövlət Yol Polisi İdarəsinin rəis müavini olmuş, polis polkovniki, rəhmətlik İlham Rəcəbovdur. Onunla məni uzun müddət yol polisində məsul vəzifədə işləmiş polkovnik Vahid Əliyev tanış etmişdi. Demişdi ki, burada elə bir oğlan əyləşəcəkdir ki, məndən də yaxşı insandır!**



**...Doğrudan da mən İlham müəllimlə tanış olandan sonra gördüm ki, o, nə qədər ziyalı, savadlı, vətənpərvər və mərhəmətli bir şəxsiyyətdir. Mən belə insanlara şəxsiyyət deyirəm! O, vəzifədə olduğu vaxtlar heç vaxt kabinetinin qapısı bağlı olmadı və heç kim də gəlib onun otağının qarşısında gözləmədi! Kimsə onu gözləsəydi! İlham müəllim narahat olar və onu otağa dəvət edib, problemlərini öyrənər, kömək edərdi. Polis orqanlarında belə ziyalı, savadlı, səviyyəli və xalqını sevən adamlar barmaqla sayılar. İlham Rəcəbov Qubada tanınmış və məşhur bir ziyalı nəslin övladı idi. Həmişə də öz ağayanalığı və səmimiyyəti ilə seçilirdi. Təbii ki, ona bu xarakter və xüsusiyyət kökdən gəlirdi. Öz qürurunu və ləyaqətini ömrünün sonuna qədər qorumağı bacardı bu insan!**

**...O, 2020-ci ildə koronavirusdan dünyasını dəyişdi. Onu Türkiyəyə apardılar, orada da həyata qaytarmaq mümkün olmadı. Öz vəsiyyətinə əsasən İstanbuldakı qəbiristanlıqların birində dəfn olundu. Sözün düzü, onun məzarını ziyarət edə bilmədiyimizə görə özümüzü qınayırdıq!**

**İlham müəllimin yaxın dostu və bizim də dostumuz olan Baş Dövlət Yol Polisi İdarəsinin texniki-müfəttişlik şöbəsinin rəisi, polis polkovniki-leytenantı Xalid Əzimov bu yaxınlarda İstanbulda olarkən həmin qəbiristanlığa gedib, İlham Rəcəbovun məzarını ziyarət edib. Və onun məzarının şəklini çəkib! Bax, dost belə olar! Bütün çətinliklərə və problemlərə baxmayaraq, Xalid müəllim əsl dost kimi bizim hamımıza bir nümunə göstərdi və çiynimizdən ağır yük götürdü. Kimsəsizlərə arxa, yetimlərin, acların köməyinə çatan və insanlara təmənnasız yaxşılıq eləyən rəhmətlik dostum, İlham Rəcəbov! Xalid qardaşımızın çəkdiyi məzarının şəklini gördüm, çox üzüldüm və kədərləndim. Bir az da təsəlli tapdım ki, sənin Xalid müəllim kimi sədaqətli dostların varsa, həmişə yaşayacaqsan! Və düşünürəm ki, sən elə sağsan və bizim aramızdasan. Çünki hər gün xatırlanırsan və hər Quran oxuyanda Allaha and olsun ki, ruhuna dualar eləyirəm. Sən Allahın dərgahındasan, biz bu dünyada! Hərdənbir yuxularımıza girirsən və öz nur çöhrənlə bizə bir təsəlli verirsən. Yerin cənnət olsun, İlham qardaşımız!**

## Ermənilər havalanır: "Artsax" özünü buraxır



**Azərbaycan Müdafiə Nazirliyi 19-20.09.2023-cü il tarixlərində keçirilmiş antiterror əməliyyatların qəti qələbəsindən sonra bir çox şərtlər dəyişib.**

Beləki, Qarabağ separatçılarının qondarma qurumunun ləğvi ilə bağlı "fərman" imzalanacaq. Yəni, "artsax" bir qondarma qurum olaraq özünü buraxacaq. Bu barədə erməni Teleqram kanallarında məlumat yayılıb.

Qeyd edəkki, biz - Azərbaycan dövləri olaraq uzun illərdir, onlara xəbərdarlıq edirdik ki, özünüzü döydürməmiş, öldürtməmiş, sapa-sağlam buraxın getsin... Buraxmırdılar! 44 günlük savaşdan sonra yarımcan, antiterror əməliyyatından sonra leşi yerdə qalan s"artsax" artıq özünü buraxmaqla məşğuldur. Yəni havalanır!

Yaşasın, s"artsax" adlı qurumu leşə döndərib, buraxılmağa məcbur edən Azərbaycan ordusu!

**Şəhidlərimizin ruhu qarşısında baş əyirəm!**

**Əntiqə Rəşid**

## "Kompromislər lazımdır"

### Aİ-dən Hacıyevlə Qriqoryanın görüşünə şərh

**Xəbər verdiyimiz kimi Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıyev Ermənistan-Azərbaycan sülh prosesinin irəliləməsi üçün mümkün konkret addımları müzakirə ediblər.**

Adalet.az xəbər verir ki, Avropa Şurasının mətbuat xidməti iki rəsmi şəxs arasında Brüsseldə bu gün keçirilən danışıqların nəticələrini şərh edib. Brüssel gözləyir ki, Ermənistan və Azərbaycan liderləri Qranadada keçiriləcək görüşdə ölkələrin ərazi bütövlüyünün qarşılıqlı tanınmasını təsdiq edəcəklər. Görüşdə Almaniya kanslerinin müşavirləri, Fransa prezidenti, eləcə də Aİnin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi də iştirak edib. Daha sonra müzakirədə qısa müddətə Avropa Şurasının rəhbəri Çarlz Mişel də iştirak edib. Qeyd olunur ki, Avropa Şurası rəhbərinin vasitəçiliyi ilə Ermənistan və Azərbaycan liderlərinin oktyabrın 5-də Qranadada keçirilməsi planlaşdırılan mümkün görüşü ərəfəsində fikir mübadiləsi aparılıb. Tərəflər sərhədlərin delimitasiyası, təhlükəsizlik, kommunikasiyalar, humanitar məsələlər və sülh müqaviləsinin perspektivləri kimi məsələlərə toxunublar. Aİ-nin bəyanatına görə, normallaşma prosesinin bütün sahələrində konkret hərəkətlər və qətiyyətli kompromis həllər lazımdır. Avropa İttifaqı bütün bu hadisələri yaxından izləyir və döyüşlərin mülki şəxslərə təsirinin azaldılmasına kömək etmək üçün ən yüksək səviyyədə iştirak edir.

Aİ həmçinin hesab edir ki, Praqa və Brüsseldə əldə olunmuş razılaşmalara uyğun olaraq, Qranada mümkün görüşdən Yerevan və Bakı bir-birlərinin ərazi bütövlüyü və suverenliyinə sadiqliklərini açıq şəkildə təsdiqləmək üçün istifadə etməlidirlər.

# XİN Ermənistana cavab verdi

**Ermənistan Xarici İşlər Nazirliyinin 27 sentyabr tarixli, 44 günlük Vətən müharibəsi, habelə müharibədən sonra görülən tədbirlər barədə beynəlxalq ictimaiyyəti yanlış yönləndirən bəyanatını qətiyyətlə pisləyirik.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatına dair şərhində bildirilib.

Qeyd olunub ki, Ermənistan Xarici İşlər Nazirliyi bu bəyanatı ilə Azərbaycan ərazilərinin 30 ildən artıq hərbi təcavüzünə və işğalına, Azərbaycana qarşı törədilmiş kütləvi qırğınlara və insanlığa qarşı cinayətlərə görə məsuliyyətini açıq şəkildə inkar edərək saxta rəvayətlər yaymaqda davam edir.

"Azərbaycanın Ermənistanın işğalına və təcavüzünə qarşı apardığı müharibə hər zaman ədalətli olub və bu ilin sentyabrında Azərbaycanın antiterror tədbirləri beynəlxalq hüququn bütün norma və prinsiplərinə açıq şəkildə zidd olaraq Azərbaycanda yerləşdirilmiş qeyri-qanuni erməni silahlı qüvvələrinin yaratdığı təhlükəni legitim olaraq aradan qaldırıb.

Üstəlik, Ermənistan XİN-in yalanlarına zidd və Ermənistanın özündən fərqli olaraq, Azərbaycan heç bir zaman dinc erməni əhalisini hədəf almayıb. Azərbaycanın vəziyyəti siyasi-diplomatik vasitələrlə həll etmək istəməməsi ilə bağlı əsassız bəyanatlara gəlincə, Ermənistan tərəfinə xatırlatmaq istərdik ki, bu ölkə təkcə 30 illik işğal dövründə yox, həmçinin münaqişədən sonrakı dövrdə də bütün sülh səylərini heçə endirib.

Sentyabrın 21-də Ermənistan Baş naziri Nikol Paşinyanın mülki əhaliyə birbaşa təhlükə olmadığını bildirməsi fonunda Ermənistan XİN-in hər vəchlə yerli erməni əhalinin "etnik təmizləmə"yə məruz qalmasına dair məlumatlar yayması Ermənistanın siyasətinin və rəvayətlərinin nə qədər uyğunsuz və yalan olduğunu açıq şəkildə nümayiş etdirir.

Biz bir daha bildiririk ki, Qarabağ bölgəsində yaşayan yerli erməni sakinlərin Ermənistana və ya başqa ölkəyə köçmək qərarı ilə Azərbaycanın heç bir əlaqəsi yoxdur. Biz onlara Ermənistanın yaratdığı hərbi xuntanın girovları olduqları dövrdən daha yaxşı yaşamaq üçün şərait yaratmağa hazırıq. Azərbaycan erməni sakinlərini bərabərhüquqlu vətəndaş kimi reinteqrasiya etmək əzmindədir və Azərbaycanın Konstitusiyası, milli qanunvericiliyi və qəbul etdiyimiz beynəlxalq öhdəliklər bu məqsədə çatmaq üçün möhkəm zəmin yaradır.

Biz Ermənistanın Azərbaycan ərazilərində qurduğu separatçı rejimin onun gözləri qarşısında necə dağıldığını və yox olduğunu görməsinin nə qədər ağrılı olduğunu anlayırıq, lakin indi onlar üçün Azərbaycanla ərazi bütövlüyünə və suverenliyə həm sözdə, həm də əməldə hörmətə əsaslanan sülh və etimad qurmağa diqqət yetirmək daha yaxşı olardı", - deyə məlumatda vurğulanıb.

# "Ağdam tam bərpa olana qədər Ağdərəyə köçüb orada yaşamaq istəyirəm"

*Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra separatçılardan və ermənistan silahlı qüvvələrinin terrorçularından azad edilən ərazilərin siyahısı cəmiyyətimizdə sevinclə qarşılandı.*

*Sevincini bizimlə bölüşən Qarabağ qazisi Elməddin Sərdar ın fikirləri oxucularımıza maraqlı olacağını düşünüb onunla söhbətə başladım.*

**- Elməddin necəsən? Hazırda nə hisslər keçirirsən?**

- Allah şəhidlərimizə rəhmət eləsin,qazilərimizə şəfa versin! Düzünü deyim 2020-ci ildə üzü bəri heç yerə sığmıram, heç yerdə rahatlıq tapa bilmirəm. Eləcə ürəyim yurdumuz üçün quş kimi çırpınır. Hər gün zəng gözləyirəm . Birdən zəng gələcək və deyəcəklər ki, öncə həyatını, sağlamlığını vətənə qurban vermiş qazilərin, veteranlarin azad edilmiş torpaqlarda yaşaması üçün güzəştlər var və onları siyahıya alırıq" Elməddin Sərdar, yaşamaq istədiyiniz şəhərin, kəndin adını mümkünsə deyin,sizi də siyahıya əlavə edək". İnanırsınız, hər gün bu sözü deyəcək adamın zəngini gözləyirəm.





**- Elməddin, axı sən Ağdam şəhərində doğulmusan, böyümüsən sağlamlığını öz yurdunun azadlığı üçün qurban vermisən... Ağdama qayıtmaq fikrin yoxdu ki, ürəyindən digər şəhər və kəndlər keçir?**

- *(Gülür)* Nə danışırsan, Ağdam mənim Məkkəm, Mədinəmdir! Ora qayıdacağımı həsrətlə gözləyirəm. Amma Ağdam təməlindən vəhşi düşmənlərimiz tərəfindən darmadağın olub.Daşı-daş üstündə qalmayıb. Düzdür , Allah dövlətimizi qorusun, tikir-qurur, zəhmət çəkir.

Amma mənimdə durub Bakıdan bunları izləməyə hövsələm çatmır. Əvvəl Şuşada, Ağalıda, Laçında, Zabuxda evim olmasını istəyirdim.. Nə olur olsun Qarabağda yaşayım deyirdim. Amma indi dağıdılmamış, hazır evlər var Ağdərədə, Xocavənddə, Hadrutda, Qırmızı Bazar qəsəbəsində, Şuşakənd kəndində, harda olur olsun!

**-Təkcə bu məntəqələrdə ...?**

- Yox e, Xəlfəli kəndi , Turşsu qəsəbəsi, Daşkənd , Canyataq , Təpəkənd , Dağyurd , Qızıloba - Çərəkdar , Qozlukörpü , Qozlu , Yuxarı Quşçular , Zərdəxaç , Həsənriz , Qızılqaya kəndi, Yuxarı Oratağ kəndi, Xanqutala Xaçmaç, Kərkicahan qəsəbə kəndlərimizdə evlər salamatdır. Ciddi dağıntı yoxdur. Hər yaşayış məntəqəsinə ən azı 20 müharibə iştirakçısı ailəsi ilə birgə yerləşdirilsə, o kəndlər 2-3 aya cənnətə çevirərik! Heç Qarabağda möhtəşəm tikinti və abadlıq işləri ilə məşğul olan dövlətimizə də malliyyə çətinliyi verməriк, hamılıqla, öz cibimizin pulu ilə vallah orda cənnət yaradarıq. Uzun sözün qısası, ən böyük arzum təcili bizi adını sadaladığım kəndlərə göndərsinlər. Canımda qalan gücümü- qüvvəmi indi də vətənimiz inkişafına, Qarabağın yenidən qurulmasına sərf edim.. Onu da deyim ki, bu təkcə mənim arzum deyil, bütün qazilərimizin , veteranlarımızın arzusudur!

**- Sən mənə xəlvətcə de görüm, hansı tərəfi "gözaltı" eləmisən?**

- Heç kəsə demiyəcəksən ki? Demə haa!

**- Yaxşı... deməröm, mən xəbərçi deyiləm...**

-Agdərəni! Ora reylef baxımından Azərbaycanın ən çətin, ən gözəl, ən möcüzəvi bölgəsidir. Orada 1992-93 cü illərdə cox şəhid verdik. Hələ əlin ,ayagın itirənlər daha çox oldu. Agdərəni aldıq, amma sonra yenə, tökülən qanlara baxmayaraq , düşmənə təhvil verildi. Xaricdən gələn "Arabo " dəstəsi vardı . O vaxt döyüşənlər bilir .Ruslarla birlikdə çox ziyan vurdular bizə... İndi "Arabo"nu qəhrəman bilən ermənilərin gözü qarşısında gedib Ağdərədə bir qəşəng mənzildə həyatımı yaşayardım.

**- Neçə gündür, gülə-gülə , əşyaları və ailəsi ilə Qarabağı tərk edən erməni köçlərini seyr edirəm. Hamı seyr edir...Sevinsəm də, gözümün qarşısından, Xoçalı camaatı, Qaradağlı, Meşəli Kərkiçahan və sair kəndlərin soyqırıma düçar olmuş hər şeyini itirərək ayaqyalın, başıaçıq qarınşaxtanın altında öz yurdunu tərk edənlər keçir. Bütün qarabağlılar yada düşür... Bilirəm ki, çoxu eyni hissləri yaşadı.**

- O gülə -gülə gedən erməni dıgaları var ha, onlar hamısı, bəli, hamısı vaxtıilə bizə güllə atib, bizim uşaqları şəhid edənlərdi. Yenə imkanları olsa, yenə bizi qırarlar. Bu insanlığa ləkə olan bu qaniçənləri bizə mələk şəklində təqdim etməsin, bəziləri. Hələ şəhidlərimizin , körpələrimizin qanı qurumayıb. Erməni mənim də, nəslimin də, millətimin də düşmənidir. 17 yaşimdan bu günə qədər canımda ermənin mənə vurduğu gülləni və mərmi parçalarını daşıyıram . 31 ildə heç 31 dəqiqəlik agrısız yaşamadim. Ermənini necə bagişlayım? Silahdaşılarımın səngər yoldaşlarımın ruhu məni bağışlayarmı? Rədd olsunlar getsinlər. Bəsdir 30 il səfasın gördülər cənnət məkanlarımızın! İndi növbə bizimdir. Qarabag və Zəngəzur Azərbaycandır!

**- İnşallah! Bu günü yaşadıqsa, o o günü də yaşayacağıq! Bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

## Texniki baxışdan yayınmayın



**Avtomobillərin vaxtında texniki baxışdan keçirilməyi hərəkətin təhlükəsizliyi baxımdan önəmli əhəmiyyət kəsb edir.**

Bu mənada hər bir nəqliyyat vasitəsi qanunun tələb etdiyi formada texniki müayinədən keçirilməsi çox zəruridir. Təəssüf ki, bəzi sürücülər qanuna əməl etmir, bu məsələyə barmaqarası yanaşırlar. Amma bilmirlər ki, texniki nasazlıq üzündən qəzalar qaçılmaz olur , ölümlə nəticələnən hadisələr baş verir. Üstəlik də mövcud qanunu pozduğuna görə, sürücülər 50 manat məbləğində cərimə olunurlar.

Bununla yanaşı, texniki nasazlıq üzündən yolda xarab olaraq qalan avtomobil digər nəqliyyat vasitələri üçün qəza vəziyyəti törədir. Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin baş inspektoru, polis kapitanı Toğrul Nəsirli deyir ki, avtomobillərin texniki cəhətdən saz olması həmişə sürücülərin diqqət mərkəzində olmalıdir. Biz həmişə sürücülər arasında maariflәndirmə işləri aparırıq ki, onlar nəqliyyat vasitələrini vaxtında texniki baxışdan keçirsin. Ancaq buna əməl eləməyənlər var. Ona görə də hər bir sürücü vaxtında avtomobilini texniki baxışdan keçirsin. Deməli, bu işin vaxtında icra edilməsi hər bir hərəkət iştirakçısını mövcud təhlükədən xilas edir!

## Pomidorun qiyməti kəllə-çarxa qalxdı

**Biz axşam yatıb, səhər yuxudan duranda görürük ki, çox şeyin qiyməti bahalaşıb.**

Artıq biz buna qarşı öyrəşmişik. Amma gəlin onunla razılaşaq ki, tay bu qədər də bahalaşma olmaz axı! Lap bu, ağ oldu ey! Reallıq budur ki, qiymətlər ceyran belinə qalxıb. İndi də son vaxtlar digər tərəvəz məhsulları kimi , pomidorun da qiyməti ildırım sürətilə artır. Məsələn, bir həftə bundan əvvəl kiloqramı 1 manata olan pomidor indi 3 manatla 6 manat arasında satılır. Hətta bəzi bazarlarda bu gün pomidorun kiloqramı 10 manatdır.

Bir çoxları qiymət artımını məhsul qıtlığı və fasiləsiz yağışların yağması ilə əlaqələndirirlər. Bu fikirlər bir o qədər də inandırıcı görünmür. Çünki süni qiymət artıb və monopoliya burada əsas rol oynayır. Ona görə də ilk növbədə süni qiymət artımının qarşısı alınmalıdır. Həmin vəzifəni isə İqdisadiyyat Nazirliyinin Antiinhisar Departamenti icra etməlidir.



Görünən odur ki, məlum qurum mövcud nöqsanlara göz yumur, neqativ catışmazlıqları aradan qaldırmağa cəhd eləmir. Çox təəssüf!

## Çörəyi zibil qutusuna atmaq...

**Həmişə müharibələr olanda insanlar birinci cörəkdən, aclıqdan əziyyət çəkirlər. Digər ərzaq malları olmasa, adamlar birtəhər yaşaya bilər.**

Amma çörək və su olmasa, heç şübhəsiz müharibədə çoxlu sayda insanlar acından ölər. 1941-44- çi illərdə Sovet ittifaqında milyonlarla insan acından ölüblər. Lakin biz Birinci və İkinci Qarabağ savaşında bu aclığı yaşamadıq. Çünki Azərbaycan iqtisadi çəhətdən çox zəngin bir ölkədir.



Ancaq bu , o demək deyil ki, biz çörəyə israfçılıq eləməliyik. O günü bir zibil qutusuna zibil atırdım, gördüm ki, ora selefan dolu çörək atıblar. Hansı ki, indi Ukraynada acından ölməmək ücün onun bir tikəsini axtaran adamlar var. Çörəyi zibil qutusuna atmaq, vallah, böyük günahdır və Allaha ağır gedər! Ona görə də bu cür israfçılığın qarşısı alınmalı, çörəyə məhəbbətlə yanaşmalıyıq. Yoxsa, çörək bizdən üz döndərər!

## Onlara yuxarıdan aşağı baxmayın

**Çoxlarımız şirin yuxuda olanda sübh tezdən onlar əllərində süpürgə Bakının küçə və prospektlərini təmizləyirlər.**

Qışın şaxtasında, yayın istisində həmişə işbaşında olurlar. Çox təəssüf ki, bəzi insanlar onlara yuxarıdan aşağı baxır. Əlbəttə, belə düşünənlər heç də düz eləmirlər. Ən azından ona görə ki, bu insanlar mənən çoxlarından təmiz və halal insanlardır. Onlar heç kimin haqqına girmir, öz halal alıntərlərilə yaşayırlar.



Bəlkə də bu süpürgəçilər dünyanın ən təmiz adamlarıdı. Hətta bəzi hallarda onlar həyatlarını təhlükəyə atır, məsuliyyətsiz sürücülər onları maşınla vurub, hadisə yerindən qaçırlar. Hansı ki, hadisə baş verəndə o insanlar kömək göstərilsə, həyatlarını xilas etmək olar.

Əfsuslar olsun ki, belə səhlənkar sürücülərin günahı üzündən bu səpgili yol- nəqliyyat hadisələri qaçılmaz olur. Ona görə də belə zəhmətkeş insanlara heç kim yuxarıdan aşağı baxmamalı, əksinə hamı onlara hörmətlə yanaşmalıdır!

**Emil Faiqoğlu**

*Məzahir ƏHMƏDZADƏ*

# CƏLLADSIZ EDAMLAR



***Müəllifdən: Ölkədə intiharların artması haqqında yeni-yeni məlumatlar dolaşır. Xoşagəlməz haldır. Məsələyə hər yöndən ciddi müdaxilələr olmalıdır. Mən bu yazını bir dostun xahişi ilə "Metamorfoz" kitabımdan götürüb dərc etməyi vacib bildim. Dostum mənə izah edir ki, 8 il bundan əvvəl yazılmasına baxmayaraq indi də aktuallığını saxlayır.***

***Təəssüf ki, belədir...***

***

**Son illər sosial-iqtisadi inkişafın cəmiyyətə müəyyən nikbinlik təlqin etməsinə baxmayaraq, keçmişlərə nisbətən intihar və qətl hadisələrinin artması ciddi narahatlıq yaratmaqdadır. Biz uzaq okeanlarda balinaların, bəzən də delfinlərin kütləvi intiharlarına o qədər acıyır və bütün bunların səbəblərini öyrənməyə o qədər dərin maraq göstəririk ki, az qala ömrümüz boyu görmədiyimiz bu dəniz məməlilərini okeanşünaslar səviyyəsində tanıya bilirik. Heyvanlara sevgi və mərhəmətimizdəndirmi?**

**... Ölkədə isə hər ay orta hesabla 5-6 intihar hadisəsi qeydə alınır. Yeniyetmələr, gənclər, orta yaşlılar, hətta 80-85 yaşa qədər ömür sürənlər... Tanrı dərgahına hazırlaşan qocaların intiharı daha ağırdır, daha faciəvidir. Çox yaşamağın, uzunömürlülüyün, bütün bunların sonunda quruca bir varlıq kimi taqətdən düşüb bu dünyayla vidalaşmaq istəyinin çarəsi heç vaxt intihar ola bilməz. Balinalar da belə etməz. Guya ki, ekologiyanın pozulmasına etiraz olaraq kütləvi intihar təşkil edirlər. Əsl həqiqəti tapa bilməyən alimlərin uydurmasından başqa bir şey deyil.**

**Xarakiri də tamam ayrı fəlsəfədir - müasir intiharlarla əlaqəsi yoxdur.**

**Folknerin əsərlərində isə bənzər düşüncələrə rast gəlirsən və inanırsan ki, taqətsizlik 95-105 yaşlı insanı məhz bu cür danışdıra bilər: "İlahi pərvərdigar! Bu dünyadan bezdik axı. Bu qədər də yaşamaq olar?..." Vəssalam! Yoxsa ki, tez-tələsik kəndir və kətil axtarmaq? İnsan ömür boyu rahatlıq arzulayır. Ancaq hər dəfə Tanrısı ilə söhbət edə-edə buna nail olur.**

**Mən fikir vermişəm. Mətbuatımız da, sosioloqlar və digər qurum üzvləri də ölkədə baş verən intiharlara statistik məlumat və müəyyən qədər də mücərrəd faciə səviyyəsində diqqət yetirirlər. Səbəblər araşdırılmağa başlayan kimi yarımçıq qalır, unudulur. Bəzən bir çox məsələlər cəmiyyətdən gizlədilir də. Hələ də mentalitet və xahiş-minnətlər öz rolunu oynayır. Elə əsasən də biz özümüz, mətbuat işçiləri başqasının "dərdini təzələmək" istəmirik. Başa düşüləndir, ancaq...**

**Keçmişlərdə, lap elə yaxın keçmişin sovetlər dönəmində intihar hadisələri nadir hallarda baş verirdi. Adətən ruhi əsəb çatışmazlığı və iradəsi zəif olan qadınlar hansısa banal səbəb üzündən üstünə neft töküb kibriti çəkirdi. İnsanlar bu cür hadisələri eşidib dəhşətə gəlirdilər, uzun müddət bu faciədən danışırdılar.**

**Keçmişlərdə adi, sıravi adamların özünəqəsd faktı bəzən illərlə, onillərlə ara verib. Əksinə, yuxarı təbəqənin və məşhurların intiharları daha çox diqqət mərkəzində olub. Təbii ki, məşhurların intihar yolu ilə həyata vaxtsız vida etmələri uzun illər boyu danışılıb və danışılmaqdadır. İmpressionizmin dahi nümayəndəsi Van Qoqun, eləcə Mayakovskinin, Yeseninin, Hemenqueyin... intiharı, Mayerlinq əhvalatı... Bunlar daha çox aristokrat intiharlar da sayıla bilər.**

**Qəfildən respublikamız timsalında fikirləşəndə ağrılı intiharlar sırasında ilk yadıma düşənlər Heydər Hüseynov, indi demək olar hamının unutduğu Sərdar Əsəd və mərhum qardaşımın tələbə yoldaşı Ülkərin faciələridir. Əliağa Kürçaylının qızı Ülkərin...**

**Sonra başqalarını da xatırlayacağam. Ancaq məqsəd bu deyil, məşhur və ya tanış intiharlardan məlumat xronologiyası hazırlamıram. Əsas məqamı diqqətə çatdırmaq istəyirəm. İndi intihar edənlərin əksəriyyəti kasıb təbəqənin, müəyyən qədər də hələ formalaşmamış orta təbəqənin insanlarıdır. Uşaqlardan tutmuş qocalaradək! Mən demirəm ki, varlılar, ünlülər də bu bəşəri faciəyə qoşulsunlar. Allah qorusun! Ancaq ətrafımızda baş verən bu qeyri-adi ölüm hadisələrinə laqeyd qalmağa haqqımız yoxdur. Xüsusilə də mətbuatın. Ciddi müdaxilə lazımdır. Dolanışıq və kasıblıq mütləq bəhanə ola bilməz. Xatırlasaq çox kasıb və acınacaqlı dövrlər olub və heç o vaxtlar da indiki intiharların onda biri baş verməyib.**

**Cəmiyyətin bu dərəcədə biganəliyi də olmayıb!**

**Heç din xadimlərimizin də səsi çıxmır...**

## 5 il ərzində 80 min km yol qət etdi, 50 astronavtdan müsahibə aldı



**Alman fotoqraf Kristof Otto bu layihəyə 2018-ci ildə alman astronavtı Alexander Gerst ilə görüşərək başlayıb.**

Kosmik Tədqiqatçılar Dərnəyinin təşkil etdiyi 34-cü Planet Konqresinə qatılmaq üçün Bursaya gələn Otto, kosmonavtlarla apardığı müsahibələr zamanı kosmos səyahətinin insanlara hansı perspektivlər verdiyini öyrəndiyini söyləyib. Otto, "5 il əvvəl Alexander Gerst kosmosa getməyə hazırlaşarkən Hyustonda başqa astronavtlarla tanış oldum" dedi. Onlardan "Kosmosa gedəndə özünüzü necə hiss etdiniz?" deyə soruşduqda, aldığım cavabdan titrədim. O, mənə dedi: "Dünyaya baxanda onun necə təsir edici olduğunu görürük. "Bunu ağlımızla bilsək də, kosmos təcrübələri bunu bütün bədənimizdə hiss etdirdi" deyirlər. İnsanın burada döyüşməməli olduğunu, hər kəsin bütöv şəkildə formalaşdığını, dünya və insanların sadəcə bu formalaşmanın bir orqanizmi olduğunu öyrəndim. Məni təsirləndirən başqa bir şey isə Beynəlxalq Kosmik Stansiyada bütün xalqların olmasıdır. "Ora gedən astronavtların hamısı dost kimi bütövlükdə öz vəzifələrini birlikdə yerinə yetirirlər" deyib.

Otto bildirib ki, layihə həm də sərgi və kitab şəklində çap olunacaq.

**Emin**

## Günahsız olduğu öyrənilən adam 28 il sonra azad edildi



**1995-ci ildə ABŞ-ın Los-Anceles şəhərində baş verən hücum və zorlama hadisəsində günahlandırılan Qerardo Qabanillasın DNT testi nəticəsində günahsız olduğu məlum olub.**

Adalet.az xəbər verir ki, həbs edilən adam 28 il sonra azadlığa buraxılıb. Araşdırmalar nəticəsində məlum olub ki, hadisədən adı hallanan iki nəfərdən biri Qerardo deyil və bu illər ərzində ondan başqa heç kim həbs edilməyib.

Qerardonun həbsinə qərar verən rayon prokuroru George Qascon baş verənlərlə bağlı üzr istəyib.

**Vasif Əlihüseyn**

## Ordubadda dövlət tarix-mədəniyyət qoruğu yaradılacaq

**Ordubad şəhərinin qədim məhəllələrini əhatə edən ərazidə dövlət tarix-mədəniyyət qoruğu yaradılacaq.**

Bu, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda əksini tapıb. Plana əsasən, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Mədəniyyət Nazirliyi ilə birgə 2023-cü ildə Ordubad şəhərinin qədim məhəllələrini əhatə edən ərazidə dövlət tarix-mədəniyyət qoruğunun yaradılması ilə bağlı müvafiq normativ hüquqi aktların hazırlanmasını təmin etməlidir. Eyni zamanda, 2023-cü il ərzində Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Dövlət Uşaq Filarmoniyası; Naxçıvan Dövlət Kukla Teatrı və Naxçıvan Dövlət Uşaq Teatrı üçün yeni binanın tikintisi ilə bağlı layihə sənədləri hazırlanmalıdır.

## AZAL Türkiyədə təhsil alan tələbələrə güzəşt edəcək

**Azərbaycan Hava Yolları QSC (AZAL) Türkiyədə ali təhsil alan Azərbaycan vətəndaşları üçün xüsusi güzəştli tariflər təklif edəcək.**

Bunu Axar.az-a AZAL-dan bildirilib. Məlumata görə, tələbələr üçün endirimlər aviaşirkətin Bakıdan Türkiyənin şəhərlərinə və əks istiqamətə yerinə yetirilən reyslərinə şamil olunur. Endirimli biletlərin bronlaşdırılması üçün aviaşirkətin çağrı mərkəzinə (callcenter@azal.az) müraciət etmək lazımdır. Güzəştli aviabiletlərin rəsmiləşdirilməsi üçün yaşayış icazəsini təqdim etmək zəruridir. Aviabiletlərin bronlaşdırılması planlaşdırılan gediş tarixindən ən gec 14 gün əvvəl həyata keçirilməlidir. Tələbələrə səyahətlərini əvvəlcədən planlaşdırmaq və qeyd edilmiş vaxt ərzində biletləri bron etmək tövsiyə olunur. Tələbələr bu təklifdən ildə 2 dəfə yararlana bilər ki, bu da təhsil müddətində səyahət xərclərini əhəmiyyətli dərəcədə azaltmaq imkanı verəcək. AZAL yaxın gələcəkdə digər xarici ölkələrdə təhsil alan tələbələr üçün də xüsusi endirimli tariflər tətbiq etməyi planlaşdırır.

# Azər Turan - 60



## TƏBRİKLƏR... ARZULAR...

***Sentyabrın 16-da "Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru, tənqidçi, publisist Azər Turanın 60 yaşı tamam oldu.***



**Xalq yazıçısı Anar:** Azər Turana mənim çox böyük hörmətim var. Həm yazıçı kimi, həm tədqiqatçı kimi, həm də "Ədəbiyyat qəzeti"nin baş redaktoru kimi Azər Turan çox faydalı işlərlə məşğuldur. Azərin atası rəhmətlik İmamverdi müəllim çox dəyərli ziyalımız idi, zəngin kitabxanası vardı, araşdırmalar aparırdı, bir sözlə ensiklopedik biliklərə sahib olan bir adam idi. Azər Turan da belə bir mühitdə yetişdiyi üçün geniş dünya görüşünə malik insandır.

**Xalq yazıçısı, akademik Kamal Abdulla:** Azər Turan deyəndə ilk növbədə mənim yadıma Hüseyn Cavid düşür, onun zəngin ədəbi, mədəni irsinin yorulmaz və fədakar tədqiqatçısı düşür. Azər Turan deyəndə Azərbaycan ədəbiyyatının bu günkü mənzərəsini obyektiv, son dərəcə professional şəkildə təsvir edən bir naşir, bir münəqqid düşür. Və nəhayət, Azər Turan deyəndə mənim yadıma dostluqda fədakar, dostluqda sadiq, ləyaqətli bir insan, şəxsiyyət, vətən övladı düşür. Allah Azər Turana öz ürəyincə versin və bundan sonra da ədəbi uğurları ilə bizi sevindirsin.





**Xalq yazıçısı Elçin:** Azər Turanın Azərbaycan ədəbiyyatına türk ədəbiyyatı konteksində yanaşmasının böyük əhəmiyyət kəsb etdiyini düşünürəm. Azərin atası rəhmətlik İmamverdi müəllim görkəmli bir Azərbaycan ziyalısı idi, görkəmli qələm sahibi idi, tənqidçi, ədəbiyyatşünas idi. Mənim yadıma gəlir Azər Turanın təxminən 20 yaşı olardı, ədəbiyyatla ciddi məşğul idi, mənim özümdə də onun gənc yaşlarında mənə yazdığı məktublar var, altımışıncıların yaradıcılığına məlhəm kimi baxırdı, yanaşırdı, fikir söyləyirdi. Azərin Turan təxəllüsünü götürmək iddiası onun imkanları ilə üst-üstə düşür.

O, həqiqətən öz qələmi ilə təxəllüsünü doğrultdu. Hüseyn Cavidlə bağlı onun çox maraqlı tədqiqatları var. Müasir və klassik türk ədəbiyyatı Azər Turanın əsas tədqiq obyektlərindən biridir. Azərin yaradıcılığı da gözəldir.

Bu yaxında onun pyesi əsasında hazırlanmış tamaşaya baxdım. Azər Turanın 60 yaşı mənim üçün gözlənilməz səslənir. Azərin qələmi onun 60 illik təcrübəsini doğruldur, bədii, estetik, nəzəri təcrübəsinin çəkisini, sanbalını doğruldur. Təbrik edirəm, uğurlar arzulayıram.

**Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlı:** Azər Turan mənim üçün gənc, yaraşıqlı, ağıllı bir oğlandır, hələ Neftçala şəhərində orta məktəbdə oxuyur. Azərbaycanın tanınmış ziyalısı, görkəmli alimi İmamverdi Əbilovun evindərdir hələ, mən də o evə qonaq getmişəm, Azərlə orda tanış olmuşam. Onların zəngin kitabxanasına baxa-baxa tarixdən, gələcəkdən, millətimizin taleyindən söhbət eləmişik. Gənc olmasına baxmayaraq onunla söhbətimiz tutub, maraqlı alınıb. Bundan əlavə, o, Neftçalada, mən isə Bakıda yaşadığımız dönəmdə ondan xeyli məktublar almışam, o məktublar bu gün də məndə qalır, onlar gənc bir oğlanın yox, vətənpərvər bir ziyalının ağlı ilə yazılıb. Bu gün də Azər Turan o yolu davam elətdirir. Onun ən çox bəyəndiyim tərəflərindən biri bizim tariximizin çox nadir və parlaq şəxsiyyətlərindən biri ola Əli bəy Hüseynzadə yaradıcılığını öyrənməsi, nəşr etməsi, Hüseynzadə ilə bağlı bir çox açılmamış qapıların, sirlərin açılmasına kömək etməsi, o dövrdə yaşamış bir çox ziyalı haqqında, eləcə də Hüseyn Cavidlə bağlı, repressiya dövrünün ziyalıları haqqında yazılar yazmasıdır.



Eyni zamanda Azərin son dövrdə məni ən çox sevindirən işlərindən biri "Ədəbiyyat qəzeti"nin baş redaktoru kimi göstərdiyi fəaliyyətdir.

**Millət vəkili, yazıçı, jurnalist Aqil Abbas:** Azər Turan çox gözəl bir ziyalıdır, gözəl bir qəzet buraxır, ciddi tədqiqatçıdır. Onun Hüseyn Cavid haqqında araşdırmaları, Cavidin ailəsi ilə münasibəti, bu istiqamətdə gördüyü işlər hər adamın işi deyil. Digər tərəfdən Azər Turan çox dəyərli bir kişinin, ölkənin böyük ziyalısı İmamverdi Əbilovun oğludur. Onun evi muzeydir, onun evində Azərbaycanın bütün görkəmli ziyalıları olub. Mən də dəfələrlə ailəmlə birlikdə İmamverdi müəllimin sağlığında da, sonrakı dövrdə də bu evin qonağı olmuşam, o muzeyi görmüşəm, ziyarət eləmişəm. Bu gün Azər Turan çox maraqlı bir qəzet buraxır, indiki zamanda belə qəzet buraxmaq çox çətindir. Mən Azər Turanı təbrik edirəm, uzun ömür və işlərində uğurlar arzulayıram.



**Filologiya elmləri doktoru, professor, Əməkdar jurnalist Qulu Məhərrəmli:**

Azər Turan Əli bəy Hüseynzadə irsini yaxşı bilən, yaxşı araşdıran bizim böyük alimlərdən, tədqiqatçılardan biridir. Təbiət etibari ilə olduqca təvazökar adamdır, sadə, səmimi adamdır. İnsanlarla davranışı çox gözəldir. Onun hazırda rəhbərlik etdiyi "Ədəbiyyat qəzeti"nin səhifələrindən bizim ədəbiyyatın ümumi mənzərəsinin verilməsi, mövqeyindən, düşüncəsindən asılı olmayaraq fərqli müəllifləri çap eləməsi hesab edirəm ki, Azərin öz xarakteri ilə bağlıdır. Yəni tənqidə açıqdır, bu da çox ciddi məsələdir. Bizdə təssüf ki, müəyyən mövqeyi olan adamlar yalnız iki rənglə düşünə bilir, ağ və qara. Amma Azər Turanın düşüncəsi çox plüralistdir, tolerantdır və sözün həqiqi mənasında multikultural dəyərlərə söykənir. Mənim üçün o çox qiymətli adamdır. Atası rəhmətlik İmamverdi müəllimlə doğma münasibətimiz var idi. Azər Turan elə bir ocaqdan çıxıb ki, onun indiki görkəmi, ədəbiyyat bilicisi olması, publisist olaraq aktual məsələlərlə bağlı yazıları, araşdırmaları hər zaman məntiqəuyğun mövqeyi ilə maraq doğurur. Təbrik edirəm, hesab edirəm ki, keçən ömrünü havayı xərcləməyib, ortada böyük əsərləri var, araşdırmaları var və bu cür insanın "Ədəbiyyat qəzeti"nə rəhbərlik etməsini də yalnız alqışlamaq olar.



**AMEA-nın müxbir üzvü, millət vəkili, professor Musa Qasımlı:** İlk növbədə dəyərli ədəbiyyatşünas alimimiz Azər Turanı anadan olmasının 60 illik münasibəti ilə ürəkdən təbrik edirəm, ona möhkəm can sağlığı, işlərində uğurlar arzulayıram. Azər Turan dedikdə ilk növbədə rəhmətlik İmamverdi Əbilovu xatırlayıram. Azər müəllim İmamverdi müəllimin yadigarıdır. İmamverdi müəllimi Azərbaycanda tanımayan ziyalı yoxdur. Neftçalaya kimlər gedərdisə İmamverdi müəllimin evinə qonaq düşərdi. Çox sevindiricidir ki, bu gün Azər Turan İmamverdi Əbilovun adına layiq bir övladdır, o ənənəni davam etdirir. İkincisi, Azər Turan dedikdə gözümüzün önünə böyük Hüseyn Cavid araşdırıcısı gəlir. O, böyük turançı, türkçü şair Hüseyn Cavid yaradıcılığını təhlil etmiş, monoqrafiya yazmış və hətta Hüseyn Cavid yaradıcılığının Türkiyədə tanıdılmasında böyük işlər görmüşdür. Nəhayət, Azər Turan dedikdə gözümüzün önünə "Ədəbiyyat qəzeti"nin baş redaktoru, onu yaşadan bir şəxs, gözəl bir ziyalı gəlir. Azər Turan çox səmimi, təvazökar, sadə bir şəxsdir. Haqqında çox danışmaq olar. Mən ona bir daha uğurlar, uzun ömür, can sağlığı arzulayıram.



**Salam Sarvan:** Azər Turanı çoxdan tanıyıram. Zərərsiz insandır. Ədəbiyyat sahəsində kifayət qədər bilgili adamdır. Son illərdə "Ədəbiyyat qəzeti" məhz onun sayəsində oxunaqlı olub. Təbrik edirəm, can rahatlığı arzulayıram.



**Etibar Əbilov:** Azər Turan dünyanın ən yaxşı qardaşıdır. Qəlbi təmiz, saf bir insandır. Türkçülüdür, turançıdır. Turançılıq onun məsləki, amalıdır. Azər Turan öz fikrində prinsipialdır. Onun üçün göydə allah, yerdə dəyərlərdir. Digər tərəfdən Azər elə-obaya bağlı bi insandır. Son dərəcə kövrək insandır... Mən həyatda çox çətin günlər görmüşəm, onunla söhbət edəndə çox təmizlənirəm, nikbin oluram. Bir dəfə ona sual vermişdilər ki, düşmənin var? Cavab vermişdi ki, dostlarım var. Yəni Azər işığı görən, işığa can atan insandır. Bir dəfə gecə saat ikidə mənə zəng edib ki, qulaq as, sənə şeir oxuyacam.

Elşad Baratın şəhidlərə həsr etdiyi şeirini oxudu və ağladı. Yəni bu qədər həssas insandır Azər.

Hansısa müəllifin yaxşı bir yazısını oxuyanda onu özü yazıbmış kimi sevinir. Zəng vurub həmin mətnlə bağlı sevincini, təəssüratını bölüşür. Mən qardaşımı 60 illik yubileyi münasibəti ilə təbrik edirəm, uzun və mənalı illər arzulayıram.





**Aqşin Yenisey:** Məndən soruşsalar ki, bu gün milli ziyalı modeli kimdir, tərəddüd etmədən deyərəm: Azər Turan.

**Elşad Barat:** İkinci Qarabağ savaşından sonra şəhidlərimiz haqqında silsilə şeirlər yazmağa başladım. Bu şeirlər beş şəhid haqqında geniş məlumat ilə yanaşı hər buraxılışda "Ədəbiyyat qəzeti"ndə çap olundu. Elə bu dönəmdə Azər Turanı yaxından tanıdım. Onun sözə, sənətə, milli dəyərlərə necə bağlı olduğunu gördüm, türkçülük, turançılıq haqqında araşdırma yazılarını oxudum. Düşünürəm ki, Azər müəllim özünü turançılığa həsr etmiş, hər daim içində dəyərlər gəzdirən, qoruyan, milli kimliyimizin mahiyyətini daim uca tutan bir ziyalımızdır. Onun qardaşı Etibar Əbilovu və atası rəhmətlik İmamverdi müəllimi düşünəndə, bu üç insanın dünayaya baxışını və ümumi fəaliyyətlərini göz önünə gətirəndə deyə bilərəm ki, Azər Turanın muzeyə çevrilmiş ata evi bu gün Azərbaycan üçün ədəbi ocaq, ədəbi pirdir.



Uşaqlığı, gəncliyi o ocaqda, pirdə keçmiş Azər Turan bu gün həmin dəyərlərlə qəzet çap edir. Son illər "Ədəbiyyat qəzeti"ndə dəyərli yazıların çoxalması, ümumi səviyyəsinin inkişafı da məhz Azər Turanın əziyyətinin, zəhmətinin bəhrəsidir. 60 illik yubileyində Azər müəllimə öz istədiyi qədər ömrü öz istədiyi kimi yaşamasını arzu edirəm.

**Səhifəni təqdim etdi:**
**Elşad Barat**

# Çətinlikləri sözü ilə ram edən alim

**Peşəmlə bağlı çoxsaylı kitablar oxumuşam. Bəziləri var ki, onları otuz-qırx il bundan əvvəl oxusam da, bu gün yenidən gözdən kecirməyə ehtiyac duyuram və sevə-sevə oxuyuram. (Məsələn, Qlman İlkinin "Bakı və bakılılar. Manaf Süleymanovun "Son bahara çatdıq..." və s. ). Bəziləri də var ki, onlara az qala hər gün, hər ay dönə-dönə müraciət edirəm, onlardan bəhrələnirəm, öyrənirəm və bəzən onlarla həmsöhbət oluram, dərdləşirəm...**

Son illər yazı masamda özünəməxsus yer tutan belə kitablardan biri də Muxtar Kazımoğlunun "Söz haqqında söz" kitabıdır. Məqalələr və müsahibələr toplusu olan kitab 2020-ci ildə "Elm və təhsil" nəşriyyatında çap edilib.

Mənə elə gəlir ki, əsər haqqında məlumat verməzdən əvvəl oxucuma onun müəllifi haqqında, qısa da olsa bilgi vermək yerinə düşər. Çünki, hər sözün, hər imzanın arxasında ilk olaraq müəllif şəxsiyyəti, təfəkkürü, təxəyyülü, dünyagörüşü, həyata baxış tərzi durur. İmzasının və sözünün sahibi olan belə müəlliflər, mühacirşünas alim Abid Tahirlinin təbrincə desək "Sözlə yarananlar və sözü yaşadanlardır".

Ən böyük sərvəti söz olan, sözün qədrini bilən, onun qüdrətindən bəhrələnən, folklorşünaslıq sahəsində çoxsaylı elmi-bədii məqalələrin, sanballı əsərlərin, kitabların müəllifi, AMEA-nın Folklor İnstitutunun direktoru, Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, akademik Muxtar İmanovun məncə bərli-bəzəkli sözlərlə təqdimata ehtiyacı yoxdur. Çünki həm daxilən, həm xaricən sadə, səmimi, pafoslu çıxışlardan, bərli-bəzəkli sözlərdən uzaq olan, işıqlı əməllərin və amalların sahibidir, Muxtar müəllim. Ömrünü-gününü sözə çulğalayan, onun hər əzabına dözən, məsuliyyətini dərk edən, "sözünü özünəməxsus şəkildə deməyi bacaran", qarşılaşdığı çətinlikləri də sözü, qələmi ilə ram edə bilən bir söz əhlidir, Muxtar müəllim. Təbii bu hər qələm əhlinə nəsib olmur. Yalnız fədəkarlığı, prinsipiallığı, insanlığı həyat kredosuna çevrilənlərə məxsusdur. Müxtar məllimin həyat yoluna nəzər saldıqda bəlli olur ki, o, həm bir tədqiqatçı alim kimi, həm də bir pedaqoq kimi çətin və şərəfli bir yol keçib. AMEA-nın kiçik elmi işçisi kimi başlayaraq, AMEA-nın həqiqi üzvülüyünə ucalıb. Amma bu çətinliklər onu əqidəsindən, məsləkindən döndərə bilməyib. Əksinə "İnsanlığı tədqiq etməyin ən yaxşı yolu kitabdır" kalamını həyat devizinə çevirərək özünəməxsus söz dünyasını yaradıb. Bu dünyada sözüilə insanlıq, ləyaqət, paklıq, ədalət, əqidə, məslək qalasını ucaldıb.

Adətən kollektivdə müəssənin rəhərini ondan qorxduqları üçün "sevirlər" və ya "hörmət" edirlər. Amma mən bunu Muxtar müəllimin rəhbərlik etdiyi nə Folklor İnstitutunda, nə də Azərbaycan ədəbiyyatı kafedrasında görmədim. (Bir neçə il həmin kafedranın müəllimi olmuşam). Əksinə, Muxtar müəllim tabeliyində olan işçilərlə (vəzifəsindən, kimliyindən asılı olmayaraq) dost münasibətindədir. Onu tanıdığım gündən həmişə "Səsini deyil, sözünü yüksəlt" kalamının şahidi oldum. Çoxlarının gördüklərini, eşitdiklərini, duyduqlarını Muxtar müəllim bəziləri kimi görməzliyə, eşitməzliyə, duymazlığa vura bilmədi. Bax budur Muxtar müəllimi insanlara sevdirən. Atalar demiş "alim olmaq asandır, insan olmaq çətin".

"Yazılı ədəbiyyat və folklor münasibətlərinə yeni baxış gətirən", saysız-hesabsız folkulor nümunələrinə "dirilik" verən, folklorşünas alim orijinal, maraqlı fikirləri ilə bu gün yalnız Azərbaycanda deyil, bütün Türk dünyasında tanınır, sevilir. Uzun illərin gərgin axtarışlarından sonra sandallı əsərlər ortalığa qoyan müəllif, folklor tariximizin açılmamış, deyilməmiş səhifələrini üzə çıxarmaqla oxucularının görüşünə gəlir. Azərbaycan folklorunun toplanmasında, nəşr edilməsində, böyük xidmətləri olan Muxtar müəllim "Zəngəzur folkloru" (Azərbaycan folkloru antologiyası, VII kitab) və 9 cildlik "Qarabağ: folklor da bir tarixdir" toplularının layihə rəhbəri və həmmüəllifidir. Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının ayrılmaz bir parçası olan folklor, onun toplanması, tədqiqi, təbliği çox yüksək səviyyədə qayğı və diqqət tələb edən bir sahədir. Ömrünün uzun illərini bu sahəyə həsr edən Muxtar müəllim çoxsaylı tədqiqatları sayəsində folklor tariximizin kəşməkəşli, sanballı, möhtəşəm bir dövrünün mənzərəsini yaratmağa nail olub.

Bu fikrimə müəllifin "Söz haqqında söz" kitabını öxuyarkən bir daha əmin oldum. Müəllif digər əsərlərində olduğu kimi, bu dəfə də xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, adət-ənənələri haqqında çox qiymətli fikirlər söyləyərək, bu müqəddəs mirası yaşatmağı, nəsillərdən-nəsillərə ötürməyi dönə-dönə tövsüyə edir. "Azərbaycan dövlətçiliyinin tarixi kökləri ilə bağlı bir sıra vacib suallara məhz ümumtürk kontekstində cavab axtarmaq lazımdır" -söyləyən alim, "Azərbaycan dövlətçiliyi ümumtürk dövlətçiliyinin tərkib hissəsidir" deməkdə çox haqlıdır. Məhz buna görə "Dövlətçilik düşüncəsi və folklor" adlı məqaləsində bu düşüncənin təbliğinə daha geniş yer ayırır. Müəllif həmin məqalədə "Dədə Qorqud" dastanına müraciət edərək dövlətimizin, dövlətçiliyimizin yaşanmasında, qorunmasında ailələrin böyük rol oynadığın qeyd edir. "Oğuz ellərində ailələr dövlətə nə qədər bağlıdırsa, boy (tayfa) birlikləri də dövlətə bir o qədər bağlıdır".



Vətəninə, dövlətinə, torpağına bağlı vətəndaş yetişdirmək də ailənin rolu çox böyükdür. Buna görə müəllif bu fikirlərini məqaləsində dəfələrlə vurğulayır və gənc ailələri sağlam düşüncəli, vətənpərvər, millətsevər vətəndaşlar yetişdirməyə çağırır. Müəllif daha sonra dövlətçiliyin əsas şərtlərindən olan ordu məsələsinə geniş yer verərək yazır ki, "Qədim türklərdə bütövlükdə xalq ordu, ordu da xalq demək idi" və "ordu folklorda ideallaşdırılmış şəkildə təqdim edilir". Bu gün Qarabağda baş verən hadisələr göstərdi ki, rəşadətli ordumuz dövlətimizi, Vətənimizi qara qüvvələrdən qorumaq üçün xalq, ordu birliyi yarada bildi. "Milli mədəniyyət mücadiləsinin ibrət dərsləri" başlıqlı məqalədə müəllif "Milli oyanışımızın banisi" adlandırılan M.F.Axundzadə yaradıcılığından, şəxsiyyətindən, düşünçələrindən bəhs edir. "Axundzadənin öz xələflərinə qoyduğu ən böyük miras ədəbiyyatı milli varlığın ifadəsinə yönəltmək yolu və ənənəsidir". Müəllif əsərində sovet dövrü folklorşünaslığımızdan da geniş söhbət açır. "Məmmədhüseyn Təhmasib və folklorumuzun ağrılı nöqtələri" adlı məqalədə müəllif M.Təhmasibi "ustad folklorşünas" adlandırır və alimin çox əhatəli elmi yaradıcılığını təhlilə cəlb edir.

Kitabda diqqətçəkən və təqdirəlayiq məqalələrdən biri də ictimai xadim, ədəbiyyatşünas alim İsa Həbibbəylinin çoxşaxəli elmi yaradıcılığına həsr edilən "İlk sistemli dövrləşdirmə konsepsiyası" adlı məqalə oldu. Müxtar müəllim haqlı olaraq qeyd edir ki, "İsa müəllim irs, varislik məsələsinə son dərəcə həssaslıqla yanaşan bir tədqiqatçıdır". Həqiqətən də İsa müəllim elmi yaradıcılığında istər sovetlərin daima tənqidlə yanaşdığı romantiklərə, istərsə də realistlərə eyni qayğı və həssaslıqla yanaşır, romantiklər haqqında uzun illər söylənilən yanlış fikirlərə qarşı obyektiv münasibət bildirir. Müəllif məqaləsində İ.Həbibbəylinin bir necə əsərindən bəhs etsə də əsasən "Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" monoqrafiyasından danışır və onu təhlilə cəlb edir. Məqalədən bəlli olur ki, İsa müəllim bu monoqrafiyasında irəli sürdüyü problemləri ciddi, elmi-nəzəri təhlilini verib, faktları, hadisələri müasir tələblər baxımından çox yaxşı dəyərləndirib.

Əslində İsa müəllim təkcə bu monoqrafiyasında deyil, bütün elmi yaradıcılığında ən kiçik fakta belə əsl alim qayğısı, həssaslığı ilə yanaşıb, saf-çürük edib və elmi, nəzəri fikirlər söyləyib. Bildiyimiz kimi, dahi Mirzə Cəlil yaradıcılığının "Şah əsəri" adlandırılan "Ölülər" əsəri zamanından asılı olmayaraq "həmişəyaşar ədəbiyyat nümunəsi" olub. Müxtar müəllim kitabında bu əsərə də yer verərək, əsəri ustalıqla təhlil edərək yüksək qiymətləndirib.

**...Sonda təəssüflə qeyd etmək istərdim ki, ömrümü qırx ildən çoxdur ki, sözə culğalasam da, bu yazıda Muxtar müəllimə layiq nə qədər gözəl sözlər işlətsəm də, onun elmdə, ədəbiyyatda, həyatda bir "şəxsiyyət kimi portretini tamamlaya bilmədim". Onu oxucuma dəyərli alim, təcrübəli mütəxəssis, humanist bir öyrədici, təmənnasız insan, yüksək mənəvi dəyərlərə, əxlaqi keyfiyyətlərə maliki ziyalı, vəfalı, ləyaqətli ailə başçısı kimi tam açıqlaya bilmədim.**

**Qərənfil Dünyamin qızı**
**Əməkdar jurnalist**

# Politoloq: «Ruben Vardanyanın həbsi gözlənilən idi, çünki...»




**"Ruben Vardanyanın saxlanması gözlənilən idi, çünki son vaxtlar Vardanyan və Rusiya sülhməramlı kontingentinin nümayəndələri arasında bir az soyuqluq hiss edilməkdə idi. Ümumiyyətlə, Ruben Vardanyan son üç ay ərzində demək olar ki, küncə sıxışdırılmışdı. Rusiyalı nümayəndələr tərəfindən verilən açıqlamada da "biz Ruben Vardanyana sahib çıxmayacağıq, o, Rusiya vətəndaşlığından çıxıb. Digər vətəndaşlara da örnək olsun ki, Rusiya vətəndaşlığından çıxmağın bədəli nədir" deyilməsi də onu göstərir ki, Vardanyanla Rusiya sülhməramlı kontingenti, Rusiya və separatçı rejim arasında bir gərginlik var idi"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib. Politoloq Ruben Vardanyanın həbsinə belə münasibət bildirib:

"Ruben Vardanyanın son çıxacağı nöqtə Laçın keçid məntəqəsi idi və burda da onun həbs edilməsi qaçılmaz idi. Azərbaycan dövləti üç yüzdən artıq Ermənistandan və Qarabağdan olan cinayətkarın siyahısını hazırlayıb. Onların içində Vardanyan, keçmiş prezidentlər Serj Sarkisyan və Robert Köçəryan da var. Yəqin ki, onlar da zamanı gələndə həbs ediləcək. Amma hər halda artıq Ruben Vardanyanın saxlanması ona işarədir ki, Azərbaycan dövləti qarşısına qoyduğu hədəfləri həyata keçirdir. Çünki Azərbaycan ərazisində birinci Qarabağ savaşı dövründə və ondan sonrakı mərhələdə çoxlu sayda cinayət törətmiş şəxslərin belə asanlıqla Azərabaycan ərazisindən əlini-qolunu sallayaraq gedəcəyi inandırıcı görsənmirdi.

Eyni zamanda, Azərbaycan dövləti onu göstərmiş oldu ki, illər keçsə də cinayətkarın mühakimə edilməsi qaçılmazdır və o mühakimə ediləcək. Hər kəs cinayətinə görə məhkəmə, ədalət qarşısına cavab verəcək.

Təbii ki, Ruben Vardanyanın da cinayətləri çox olub. Ən böyük cinayəti odur ki, o, Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq gəlib və orada qondarma bir separatçı rejimin başında durub və özünü o rejimin "naziri" kimi təqdim edərək, Azərbaycanın ərazi bütövlüyünə şübhə ilə yanaşaraq, qəsb etməklə həmin ərazidə özünü qondarma rejimin lideri olaraq göstərməyə çalışmışdır. Əslində bu Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir, cinayətdir və düşünürəm ki, Ruben Vardanyanın həbs edilməsi qaçılmaz idi. Bu həbslər təkcə Vardanyanla bitməyəcək, çünki qarşıdakı dönəmdə digər cinayətkar ünsürlərin də həbs edilərək məhkəmə qarşısına çıxarılması və cinayətlərinin onlara sübut edilərək layiq olduqları cəzaları alması həyata keçiriləcək. Hesab edirəm ki, vacib olan şəxslər Vaqif Xaçaturyan, Ruben Vardanyan və digər cinayətkarların da həbs edilməsi qaçılmazdır".

**Vasif Əlihüseyn**

# Hərbi ekspert: "Bizə qarşı fəaliyyət göstərən qüvvələrin hər birini məsuliyyətə..."

**"Qarabağa xüsusi tapşırıqla Kreml tərəfindən göndərilən Vardanyan layihəsi artıq iflasa uğrayıb. Ruben Vardanyanın Azərbaycan güc strukturları tərəfindən saxlanması Davit Babayanı da bu addımı atmağa vadar edib və hazırda son məlumata görə kifayət qədər yüksək dırnağarası rəhbər vəzifələrdə təmsil olunan Babayan Xankəndindən Şuşaya yola düşərək Azərbaycana təslim olmağa qərar verib və bu haqda da o, öz sosial şəbəkə hesabında açıqlama yayıb"**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Hərbi ekspert daha sonra bunları əlavə edib:

"Biz Azərbaycan tərəfinin 300 nəfərlik bir siyahını Ermənistan tərəfinə təqdim etdiyindən də xəbərdarıq. O şəxslərin bəziləri Qarabağda, bəziləri isə Ermənistandadır.

Ermənistan tərəfi əgər Azərbaycanla sülh müqaviləsindən danışırsa, Azərbaycana qarşı cinayət törədənləri də təhvil verməlidir. Bundan sonra da nə Ermənistanda, nə də Qarabağda Azərbaycana qarşı ittihamlar səsləndirən, ərazi iddiaları irəli sürən, Azərbaycanın suverenliyini, bütövlüyünü, müstəqilliyini şübhə altına alan istənilən şəxs Azərbaycan qanunvericiliyi ilə hansı ərazidə olmasında asılı olmayaraq mütləq məsuliyyət daşıyacaq. Bu bizim əsası prioritetlərimizdən biri olacaq. Məğlub tərəf məğlubiyyətini qəbul etməlidir, onun ağır yükünü öz çiyinlərində daşımağı bacarmalıdır.



Yoxsa Azərbaycanın qələbəsini gah Rusiya, gah Türkiyə, gah da İsraillə əlaqələndirənlər, indi görsünlər ki, Azərbaycan hökuməti Bakıda yerləşməklə nəzarətində olmayan ərazilərdə də hər şeydən xəbərdardır. Hər şeyi izləyirik, hər şey bizə məlum idi və həmin bizə qarşı fəaliyyət göstərən qüvvələrin hər birini bir-bir məsuliyyətə cəlb edəcəyik və bu da digərlərinə dərs olacaq".

**Vasif Əlihüseyn**

Əbülfət MƏDƏTOĞLU



# TANRI DƏRGAHINDAKI SƏS

**Qarşımdakı esseni oxuyuram. Elə ilk cümlə məndə qəribə assosiasiya yaradır. Özüm-özümdən şəklənirəm, ətrafa boylanıram. Təkrar qayıdıb masamın üstündəki kitaba baxıram. Və birdən mən də eşidirəm o səsi - akademik Kamal Abdullanın dediyi səsi... Kamal müəllim deyir ki, "Füzuli başdan-başa Səsdi". Mənim də eşitdiyim səs Füzulinin səsidi. O qədər doğmadı ki, canımdan artıq sevdiyim insanın səsinə bənzəyir, ruhumu oxşayır - anamın laylası kimi... sevdiyimin pıçıltısı kimi... nəvəmin qığıltısı kimi... və bir az da Tanrı sədası kimi... Bu bənzətmələrim söz xatirinə deyil. Əksinə, bu bənzətmələr Göy üzündən gələn, şimşəkləri, buludları çəkib yerə gətirən, ulduzları axmağa məcbur edən, Ayı bədirləndirən səsdi... Və bu səs həm də Məcnunun səsidi... Leylinin hıçqırtısıdı... Və nəhayət, elə bu səs Kamal müəllim dediyi kimi, Füzulinin özüdü...**

**Oxuyuram esseni. Öncə Kamal Abdullanın fikirlərinin rəngini tutmağa çalışıram, onun çalarlarının dərinliklərinə enmək, düyün vurduğu nöqtələri duyğularımla açmaq və elə o yazının içindən Füzuliyə baxmaq istəyirəm. Görək alınacaqmı? Çox ağır bir yükün altına girdiyimi hiss**




**edirəm. Sözün rəngini tapmaq, fikrin yaratdığı mənzərəni öz sözünə çevirmək və bir də bu rənglə bu mənzərəni tamamlamaq... Beləcə, yapışdığım fikrin ətəyini buraxmadan dinləyirəm Füzulini - onun gah Leyli hıçqırtısını... gah Məcnun naləsini... gah da şair hikmətini... Bu üç məqam həm ayrı-ayrılıqda səsdi, həm də bir axarda, bir dildə, bir dodaqda puçurlayan səs... Nə qədər doğmalıq var bu üç səsin mayasında, canında, qanında. Ona görə də o səsi dinləyəndə yorulmursan, rahatsızlıq hiss etmirsən. Əksinə, sənə elə gəlir ki, ruhun qoşulur o səsə. Onun aurasında yavaş-yavaş səsləşməyə başlayır Füzuli səsiylə. Çünki Füzuli səsi Leyli səsi olanda sevgisinə qovuşmaq üçün ölümlə barışan bir nakam xanımla səsləşərək, ona hardasa "bu haqq yolun açıq olsun!" - söyləmək istəyindən özünü saxlaya bilmirsən. Bunu sənə Leyli səsi vadar edir. Digər tərəfdən əzabları, Məcnunluğu qəbul etmiş Qeysin səsini dinləyəndə isə "Leylin səni qovuşacağınız ünvanda gözləyir!" səsi Füzuli dilindən elə qopub gəlir ki, az qala Qeysə həsəd aparırsan. Axı bu səs vüsala, qovuşma anına tuşlanmış bir işarədir. Təbii ki, bu, məhz akademik Kamal Abdullanın sözünün rəngindən oxuyub özüm üçün çıxardığım nəticədi. Üstəlik, burda bir qənaətim də var. O da həmin Füzuli səsinin Kamal Abdulla sözünün rənginə qatılmasıdır. Yəni burda da bir qovuşma var - sözlə rəngin vüsal qovuşması. Zənnimcə, bu qovuşma idrakdadı, düşüncədədi və nəhayət, ürəkdədi. Yenə deyirəm, Füzuli səsi Kamal Abdullanın sözünün rənginin tamlığıdı. Məhz ona görə ki, o səsi mənə çatdıran, oxucuya eşitdirən akademik Kamal Abdullanın özü və sözüdür.**

**Essenin hər sətrində açıq duyulan Füzuli səsi yavaş-yavaş ürəyimin səsinə qarışır. Ona görə ki, bütün sevgiyə çevrilən nə varsa, hamısının evi məhz ürəkdi. Bunu Kamal Abdulla da qabardır, xatırladır, təqdim edir. Və həmin "evin" Leylinin də, Məcnunun da iqamətgahı olduğu bilinir. Bu məqam üzə çıxmaqla bahəm, həm də Füzuli səsinin o evin işığı olduğunu da göstərir. Deməli, sevginin, vüsalın evi olan ürəyimiz bu nöqtədə səsin işıqlandırdığı saray qədər möhtəşəmdir. Bu möhtəşəm saraydan gələn səs Məcnundan artıq aşiqliyi olan bir şairin, yəni Füzulinin əl çatmayan ucalığıdır. Sadəcə olaraq, biz o ucalığı görür, dinləyirik. Məndən və bir çoxlarımızdan fərqli olaraq, hörmətli Kamal Abdulla o ucalığa neçə köynək yaxın, neçə qat doğmadır. Mən "Səbr eyləmə, eylə tərki-aləm..." essesini oxuyanda yaşadığım və təkrar-təkrar dinlədiyim Füzuli səsinin qoynunda özümü Tanrıya çox yaxın hiss etdim. İnandım ki, şeyx Füzuli seçilmişlərdən biri kimi səsinin olduğu yerdən də öndədir...**

**Bəli, Füzuli səsini tanımaq, ona qulaq kəsilmək xoşbəxtliyini mənə yaşatdığı üçün essenin müəllifinə - sözünüzün rəngindən yapışıb dinlədim o səsi - demək istəyirəm.**

## *Şəhidlərimizin xatirəsinə Quran ziyafəti təşkil olundu*

**Türkiyə Səfirliyinin Dini İşlər Üzrə Müşavirliyi, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığıyla Bakı şəhəri Şəhidlər məscidində "Bütün Şəhidləri Anma, Xətm və Dua" adlı tədbir keçirilib.**

Adalet.az xəbər verir ki, tədbiri giriş sözü ilə açan Türkiyə Səfirliyinin Dini İşlər Üzrə Müşaviri İhsan Açık çıxışında Quran ziyafətini şəhidlərə vəfa olduğunu və onları unutmadığımızın nümunəsi olduğunu qeyd edib. Artıq üçüncü Quran ziyafətinin keçirildiyini və bu gözəl ənənənin davam edəcəyini vurğulayıb. O bütün şəhidlərimizi unutmayacaqlarını bildirib və qazilərimizə Allahdan acil şəfalar diləyib.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Bəxtiyar Nəcəfov öz çıxışında şəhidliyin yüksək zirvəsindən danışıb və şəhidləri ehtiramla anıb. Natiq öz çıxışında şəhidlərin ölü olmadığını, hər zaman diri olduğunu bildirib.

Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin şöbə müdiri Cahandar Əlifzadə öz çıxışında tədbirin təşkilatçılarına öz təşəkkürünü bildirib və şəhidlərimizin sadəcə bizim şəhidlər olmadığını eyni zamanda bütün İslam ümmətinin şəhidləri olduğunu qeyd edib. Rəsmi çıxışlardan sonra Türkiyə Cumhuriyyəti Diyanət İşləri Başqanlığı Müshəf Tədqiqləri və Qiraət Şurasının üzvü Fatih Okumuş, Süleymaniyə məscidinin İmamı Ekrem Nalbant və Fatih məscidinin imamı Yusuf Yılmaz, Əjdərbəy məscidinin imamı Azər Nafiyev öz gözəl Qurani-Kərim qiraətləri ilə Qurani-Kərim ziyafətinə öz töhfələrini veriblər. Bütün qiraətlərdən sonra məscid imamları tərəfindən oxunan ayələrin Azərbaycan dilində tərcüməsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirin sonunda məşhur qarilər tərəfindən şəhidlərin şanına həsr olunmuş ilahilər oxunub və Türkiyə Cümhuriyyəti Diyanət İşləri Başqanlığı Müshəf Tədqiqləri və Qiraət Şurasının üzvü Fatih Okumuş tərəfindən bütün şəhidlərimizin ruhuna dualar edilib və qiyabi cənazə namazı qılınıb.





Sona Vəliyeva

# Əllərini göy üzünə çiçək kimi açan şair...

**(Göy üzünü ayaqyalın gəzən, Allaha doğru ayaqyalın yüyürən, qəlbi yeni doğulan körpə kimi tər-təmiz, çocuqlaşa-çocuqlaşa saflaşan ruhuyla Ərafdan keçib bizi də əllərimizin göy üzünə çiçək kimi açılmasına çağıran, "yupyumru" Esqin sahibi Vaqif Bayatlıya ünvanlanan suallarıma cavab almaq üçün yazılan açıq məktub...)**

Milyon illərin o üzündə nə var, nə yox, şair? O illərdən baxanda insan oğlunun mənəvi biçimi yerindəmi?

Bəllidir, hər şeydən, yerdən, göydən, lap hər şeydən öncə yalnız Yaradan var... "Ol" deyincə hər şeyi "ol"duran, var edən, bölən, böldürən, artıran, çoxaldan, hərəkət və bərəkət mənbəyi kimi kainatın varlığını sonsuzluğa doğru, özü bildiyi vaxta qədər var edən Allah var... Allahdan insana, in-sanlığa gələn yolda milyon illər ərzində çox sular axdı; gah duruldu, gah da bulanıq olaraq qaldı. Rəhim, Rəhman xislətiylə kainatı yönəldən, tək olan Allah! Yerin-göyün "ol"maşına nizam ve-rən Tanrıya üz tutan şairin Göylərin lap dibinədək gedən səyahətindən bizə çatdırdıqları onun könül gözünün gördükləridir:

*Varı-yoxu dibində daş,*
*Yanında da daş balası.*
*Bu göy üzündən o yana*
*Tanrıyla öyünə-öyünə*
*Sevinə-sevinə axan su.*

Göyün, Yerin bünövrəsinə "daş" qoyan Tanrının daşa "daş balası" kimi həyan yaratması, suyun göy üzündən o yana dönüb gəlməsiylə, Tanrıya şükürlərlə öyünə-öyünə axmasını görən, bilən bu gərdişə şahid olan neçə şair var bu dünyada?

Şair, biz hamımız təbiətin bir parçasıyıq, bu, bir həqiqətdir. Təbiətdəki bütün varlıqların insan cis-mində, hətta kimyəvi təsdiqi mövcuddur... Deməli, Allah bizi zərrə-zərrə təbiətlə həmahəng yaradıb ki, ONUN varlığını insanoğlu hər an dərk etsin.

Amma çayın içində bir qonur daşın rəngindən gözlə-rinə uyğun rəng doğmalığı duymaq və bunu taleyi kimi qəbul etmək, dasda qardaş doğmalığı tapmaq sizi yenə göyün yerdəki adamı kimi "ələ verir":

*O bulaq içində bir qonur daş*
*taleyimdi mənim*
*biz qardaş kimi doğulsaydıq,*
*O, bulaq gözündə doğuldu ancaq,*
*Mən insan gözündə, insan şəklində.*
*O daşın qonuru o gündən bəri*
*qardaş rəngitək gözümdə qalıb...*

Bəli, şair, gözlərimiz qara, qonur, mavi daslarla "qardaslaşaraq" bulaq taleyini yaşayır, bir kövrək məqamda daş altından çağlayıb ürəyimizi qəlpə-qəlpə söküb aparır.

Yupyumru esqin sahibi şair qardaşım, dünya girdədir, yumrudur yolu, dolana-dolana insanları bir-biri ilə rastlasdırır, hadisələr oxşardır, təkrarlanır, yollar dünyanın belinə dolandıqca sonu hamımızı eyni məkana aparmağa yönəlib. Yumru, girdə yaradılan dünyanın basqa qaçış, çıxış yolu yoxdur.

Allah bilərəkdən ölçü-biçili yaratdı bütün kainatı... Yerin hərəkəti yolları dünyanın və bizim ömrümüzdən keçirərək, hamımızı bir məkanda, ilkin Vətəndə, gəldiyimiz yerdə, Allah hüzurunda məskunlasdıracaq... Amma bizə hərəkət qüvvəsi verən ESQİN bu dünyada neçə şair yumru olduğu-nu gördü, dərk edə bildi?

Göy üzü, göy üzündə olanlar hamımızın "Ol"dan əvvəlki ömrümüzdə gördüklərimiz, içindən gəldiklərimiz, nədən doğuluşumuzdan qırx gün müddətinə yaddaşımızdan pozulub, yenidən yazılır?

İlahi bilgilərin, mələk yaddaşının yer cazibəsində itirilməsi bir anlıq ömrümüzdə "lövhü-məhfuz-da" yazılan qismətidirsə, Yerin dərdi çox ağırdır, şair... "Eheyy, göy üzünün üzündəkilər, kimsiniz?" - deyə səslənsək də, göyün sirri sirr olaraq qalır, hər kəsə açılmır. Bəlkə, insan elə göyü, göy sakini olduğunu unudaraq yerdə "mənəm-mənəmlik" iddiasına, nəfsinin bəlasına buna görə düçar olur? Sizdən soruşub bilmək istədim, göy üzünün o üzündən bu üzünü dinləyərkən, göyə yerdən, yerə göydən baxarkən "Eşq"in Tanrıya çatacağı yolda yaranan çətinliklərə bəxtəvərlik demək olarmı?

*Hər an üzü Allaha tək bir yol olar ancaq,*
*Allah görünməz, duyular ancaq.*

- məqamına qədər ovudula bilməyən tənhalıqlar, kədərlər, sevgilər neçə kərə yanıb, kül olub, öz yoxluğundan "var" olmağa, əbədilik qazanmağa İlahi rüsxət ala bildimi?

Beləcə, yoxdan var olmağa gələn yolun əzablarının sevinc, kədərinin nəşə, ölümün isə əsl həyat, əbədi ömür demək olduğunu öyrədən mənəvi yüksəlişin sirrinə hər adam Vaqif olmaz. Ən böyük esqin göz yaslarının mənbəyinin "göy üzündən o yana Tanrıyla öyünə-öyünə, sevinə-sevinə axan su"dan baslaması da həqiqətdir. Əks halda, bütün doğmalarının yoxluğunda Allahdan təsəlli bulan insan oğlu, Allahını itirəndə, canlı meyitə çevrilib, sərgərdan olmazdı ki. Tanrının dərki də, ona sevgilər də, tökülən göz yasları da esqin çəkisində insana qanad biçimi ve-rirmiş, yüksəliş üçün, Tanrıyla qovusmaq üçün:

*Göyün göz yaşından sərxoş,*
*canın qəmdən!*
*Ağlama, dur!*
*Əsl göz yaşı ağlanmır,*
*əsl göz yaşı udulur...*

Var olsun içimizdə udulan mübarək göz yasları!

Əziz şair, udulan göz yaşında içimizin ucsuz-bucaqsız genisliyi qarış-qarış yuyulub arınır, təmiz-lənir, dualardan büllur qanad taxaraq, eşq səccadəsində



and namazı qıldırıb, bizi göy Vətəninə sakin olmağa uğurlayır... Amma hər adam gedib ORA çata bilmir. Göylərin sakini olan şairə, yerdə qəsrlər, saraylar ucaldılsa da, göyün qarşına belə dəyisməz:

*Ölümsüzlük səni dilər,*
*Ölüm hər adama gələr,*
*Ölümsüzlük gəlməz, gedilər...*

- deyirsiniz... Bəli, gedilir, yerin nəfsindən, qalmaqalından, bəhsə-bəhsindən, var-dövlət yarışından azad olarıq, qəfəsdən uçub, azadlıq qazanan quş kimi...

"An" məsələsini soruşacaqdım, şair...

Əziz şair, sizin üçün əsas olan ruhunuzun tarixidir, ruhunuzun ölməzliyidir... "Cismani, fiziki itki-lərin tarixi "an" məsələsidir" deyirsiniz...

Elə isə dünyada insanlar "an"lıq yaşamlarında bu qədər da-ğıntılara, müharibələrə, insan ölümlərinə, göz yaslarına səbəb olaraq etdikləri əməllərlə Allaha qarşı çıxmırlarmı? Elə isə dünya həyatı an olaraq bitdikdə, gözləri qapanana yaxın, "dünya söndükcə sən görünürsən, İlahi" fikri doğrulan an Allah qarşısında əməl imtahanının cavabı yaşam tərzi kimi öncə-dən öyrənilməli deyildimi? Şərin təlimçisinə uymamağa çağıran dörd müqəddəs səmavi kitabın göstərdiyi qurtuluş, xilas yolunu unutmağa nələr mane oldu, şair?

Dini rəvayətlərdə deyilir ki, on ikinci imam Mehdinin zühuru ilə yer üzü yeni əmin-aman inkişaf mərhələsini yaşayacaq. Silahlar eksponata çevriləcək və ya qurd quzuyla otlayacaq. Belə bir zaman mərhələsinə insanlıq qədəm qoyacağına göy sakini olaraq ümidiniz varmı, şair?

"Cinayət" və "cəza" sözlərinin lüğətdən silinməsində, isğal, müharibə, nifrət və irqçilik, əzən və əzilən təbəqələrin nə demək olduğunun mənasının lüğətlərdən axtarılacağı vaxtın-zamanın ye-tisməsinə insanlığın saflasmasına, arınıb, durulmasına şeirin gücü yetərmi? Axı Yer üzünə insanın Tanrı tərəfindən tərtəmiz, hətta qanadlı göndərildiyi halda qanadlarımızı yandıran şeytana niyə uymuşuq? Bu bir həqiqətdir ki, Tanrıdan uzaqlasdıqca fürsəti qisasçı şeytana buraxmışıq:

*Tanrıdan uzaqlasdıqca insanlar*
*Qanadsızlaşır, qəddarlaşır onlar,*
*Qəddarlaşır onların*
*Yerişi, yolu, izi də.*
*Çəkilib insanlardan*
*Göy üzünün o üzünə*
*Qəm çəkir Tanrının özü də...*

-deyirsiniz... Allahın "qəm çəkməsi" fəlakətdir, şair. Bir ərköyün, nadinc övladla bir ata-ana əsir, yesir, naəlac qalır. Yer üzü, insanlar haqq yolundan sarpanda Allah qəm çəkə-çəkə, səbirlə dözər.

Allahın qəmindən, qəzəbindən yaranan zəlzələ, sunami, torpaq sürüşməsi dünyanı bürüyəndə, yayın qorabişirən ayında qar yağdıran Allahın "yolunuza qayıdın" mesajındakı işarələr az adama agah olur.

Xilas yolu yenə də Allaha, Yaradana, onun yer üzündə təcəlla etdiyi varlıqlara sevgiylə, eşqlə yanasmaqdır. Eşqdə var olan hər şey gözəl və bütün isimləri ilə mükəmməl Allahı, vəsf etdiyindən insanın saflasmasına, mübarəkləsməsinə inamlar çoxalır, artır. Könüllərə uçuş edən, könüllərdən haq-qa doğru ucalan qanadlı, yupyumru eşqlər var olsun, şair...

Əgər şeir Tanrıya doğru uçusdursa, Nəri-man Qasımoğlunun Sizə ithaf olunan "Eşq elçisi" şeirində deyildiyi kimi, İlahi uçuşa, qanadçalmaya ruhən könül vermiş şairin səmaya ucalarkən saf əməllərin, təmənnasız sevginin nurundan başının üzərində yaranmış halə belə bir basqa qiyafədə Yaradana doğru canatım, deyilmi?!

*Sən də oldun eşq elçisi,*
*yükün nə gözəl!*
*Göy üzündə süzür ruhun,*
*peykin nə gözəl!*

*Bu eşq alayı bir yazı,*
*dərgahdan gəlir avazın,*
*açırsan Tanrı qapısın,*
*ərkin nə gözəl!*

*Hey uçursan könlümə tuş,*
*mələklər sevgindən bihuş,*
*bu nə qanad, bu nə uçuş,*
*halın nə gözəl!*

*Qəlbindən nur qəlbilənir,*
*yanağında ləpələnir,*
*başında nur təpələnir -*
*halən nə gözəl!*

Bizi belə öyrətdilər, məbədə, pirə, məscidə ayaqyalın girin, dili dualı girin, "Bismillah"la, "La İlahə İllallah"la girin... Min illərdir Allah kəlamı olan müqəddəs məkanları həm də könül məbədi bil-dik, ürəyimizin dərdlərin, qəlbimizin munis istəklərinin məhz buradan Tanrıya tez çatacağına inandıq. Siz isə milyon illərdir, Allahın ilk yaratdığı nəslin nümayəndəsi kimi, saf-müqəddəs arzularınızla göyün, yerin - bütün kainatın sakini olaraq, göy üzünə ayaqyalın qədəm qoyaraq bizi Allaha doğru səsləyirsiniz. Sizə qoşulub uçduqca bəzi həqiqətləri daha dərindən dərk edirik. Gözümüzü qapayaraq iç dünyamızın gözləri ilə hamının görə bilmədiyi yerləri, gözəllikləri görürük. Qulaqlarımızı qapaya-raq heç kimə duyulmayan səsləri eşidə bilərik. Tanımadığımız, bəlkə də, doğulmayan adamların sev-gisi ilə həsrət çəkə-çəkə bəxtəvər olarıq.

Yenə sizə dönürəm: "Xoş gəlmisiniz! Lütfən, ayaqyalın keçin, göy üzündə hər an üzü Tanrıya doğru ayaqyalın yüyürün, yüyürürkən körpələşən, çocuqlaşan, hər ulduzla öpüşən ayaqlarınız, üzü Tanrıya açılan bütün çiçəklərtək göy üzünə açılan əlləriniz, hər an Allaha "Can!" deyən canınız yup-yumru bir duayla, yupyumru bir göylə, "xoş gəlmisiniz" - deyirsiniz, Buyurun! - deyirsiniz, saflaşın, ayrılıqlara son qoyaraq Allaha dönün!" - söyləyirsniz:

*Min ildir, milyon ildi,*
*Göylərdə ayaqyalın*
*Sənə sarı qaçıram,*
*Ayaqlarım sevinir,*
*Yolum sevinir, Allah!*

Duaları, "UÇUŞ"ları ilə bizi də göylərə doğru uçuş xəttinə səsləyən şairə sonsuz sayğı və sonu bitməyən suallarımla...

# Nicatsız göz yaşları

**Valideyn üçün ən böyük ağrı, dözülməz dərd öz övladını, balasını, ciyərparasını torpağa tapşırmaq dərdidir. Heç bir valideyn bu dərdi axıra qədər qavraya, başa düşə və ya daşıya bilmir. Və nədənsə valideyn həyatın, təbiətin, Tanrının bu cür yazısını bağışlaya bilmir, özünü ömrünün axırına qədər, son nəfəsinədək dünyasını vaxtsız, vədəsiz tərk etmiş övladı qarşısında əbədi müqəssir, günahkar sayır. Və bu da bir həqiqətdir ki, bir çox xəstəlik müalicə olunur, sonda sağalır. Dərd isə heç vaxt, heç zaman sağalmır, ona çarə, əlac yoxdur. Dünyanın heç bir təbibi, loğmanı dərdin dərmanını tapmaq iqtidarında deyil. Dərd səni tapdısa, ünvanını sənin ömründən, günündən saldısa, bu dərdi gərək çəkəsən. Əlbəttə, əgər çəkə bilirsənsə... Dərd çəkilir, istəməsən də, bacarmasan da onu çəkməlisən. Nə qədər dözülməz, çəkilməsi mümkün olmasa da onu daşımalı, onunla yanaşı yaşamalısan. Əgər buna yaşamaq demək olarsa.**

Dərd səndə özünə əbədi məskən salıbsa o, atıq sənindir. Bədəninin, vücudunun, düşünən beyninin bir parçası, ayrılmaz hissəsidir. Onu qəlbindən çıxara, beynindən silə bilməzsən. Bu qeyri- mümkündür. Saçın ağarsa da, ürəyin ağrıdan saralıb solsa da, belin bükülüb qırılsa da, ömrün yarı yolda qalsa da bəxtinə, taleyinə tuş gələn bu dərdi çəkməlisən. O, canından, gözündən, sözündən, dözümündən, özündən pay almalıdır sənin. O, özünə səndə məskən salır ki, səni də bir gün özü ilə aparsın, özününki etsin. Sən dərdi çəkdikcə o, da böyüyür, ərsəyə çatır və bir gün son mənzilin qapısını üzünə ikiəlli açır... Bu dərd o qədər dəliqanlı və xudbindir ki, başqa dərdləri (çəkilməsi mümkün olan) qısqanır, sənə yaxın düşməyə qoymur. Sənin bütün fikir və diqqətini, düşünən sağlam beynini özünə çəkir. Və istəyir ki, hər nazına dözüb, qayğısını çəkəsən. Çünki dərd də canlıdır. Odur ki, canlı insanın canından qurban istəyir. Canlıları məhv edən, can alan, adamı həyatdan aparan qəddar və rəhmsiz bir ixtiyar sahibidir dərd. Dərd saçını sənin içində ağardıb, ömrünü də səninlə bir yerdə başa vurmaq məqsədi güdür. Yanında başqa dərdlərin olması onun heç vecinə də deyil:

*Məni qəbrə*
*dartıb*
*salacaq bu ağrı.*
*Qoymayacaq*
*dərdini çəkəm*
*Başqa dərdlərimin ...*

...Bir ömür bəxş edir bizə Ulu Tanrı, Yaradan. Və nədənsə, niyəsə bu ömrü ağrının, dərdin ağuşunda, qucağında keçiririk. Bax bunu fikirləşəndə şüurun kütləşir, əsəbin gərginləşir. Baş aça bilmirsən bu dünyanın təzadlı gedişatından. Bu qədər gözəl, məsum, dəyərli insanların dünyanı vaxtsız tərk etmələri, sıramızdan qəfil getmələri adamı yandırıb tökür. Cızdağın yanır, tüstün təpəndən çıxır. Hər yerdən, tərəfdən yanırsan. İçəridən də, çöldən də. Başqalarının dərdinə sən də yanırsan, onların özlərinin yandığı kimi. Çünki əsl insan başqasının dərdinə şərik çıxmalı, onu öz dərdi kimi qəbul etməyi bacarmalıdır. Məncə, bu insanın ən ümdə, bəşəri borclarından biri olmalıdır. Yoxsa:

*Kədərimə sevinənlər*
*Sevincimə*
*Şərik olmadılar....*

....İlahi, o nə qədər gənc, gözəl, insanpərvər, gözəgəlimli idi! Dilim yanır onun barəsində keçmiş zamanda danışanda. Yanıb tökülürəm içəridən. Dilim dolaşır, ürəyim sözümə baxmır. Elə bil qəlbimə ancaq qara qanlar axır.

Danışığı, vücudu, yaraşığı ilə göz oxşayırdı. Təhsilli, bilikli idi. Tanrı onu yaradanda insani məziyyətlərdən heç birini əsirgəməmişdi.

Onda çoxlarının görüb, sezə bilmədiyi bir cazibə qüvvəsi var idi. Çəkirdi insanları özünə tərəf. Başqalarının dərdinə yanır, halına acıyırdı. Sanki Nicat adı ona əvvəlcədən çox uzaqgörənliklə verilmişdi. Çoxlarının nicat yeri idi. Əbəs yerə demirlər ki, adamlar xasiyyətləri ilə adlarına oxşayırlar.

Adı Nicat idi. Başqalarına kömək əli uzadan, nicat verən, imdadına yetən. Bəs sən özün niyə nicat tapmadın, qardaş?! Cavan, gülər, bəxtəvər, gənc ömrünü əcəlin, ölümün əlindən ala bilmədin. Bir qəfil gülləyə tuş gəldin. Ölümün pəncəsi, məngənəsi bərk-bərk sıxdı gənc həyatını. Ölüm ac, tamarzı kimi, bir göz qırpımında ağuşuna aldı səni. Acgöz, ac ölüm qapdı ömrünü. Qara xətlə yazılıbmış alın yazın. Görə bilmədin doyunca həyatın baharın, yazın.

Bu ölümün gözləri qaralmışdı. O, kor idi. Görmədi nurlu çöhrəni, gənc yaşını, yaraşığını. Çünki ölümün dünyagörüşü, həyata baxışı, yaşam anlayışı bizim düşündüklərimizdən tam fərqli olur. Biz kədər, qəm dediyimizə o, sevinc, xoş gün deyir. Onun nə vecinə, çox zaman bizi dərd, ələm içəridən birnəfəsə yeyir.

Bu namərd gülləsi hardan, necə gəldi, qardaş! Bilən, görən olmadı. Təkcə səni ölümə aparan, sel kimi axan qanını görən oldu. Vaxtsız ölüm saçını hörən oldu. Nə idi bu dünyada qəbahətin, günahın? Cavan, ağıllı, yaraşıqlı olmağınmı... Niyə ərşə yetdi nalən, ahın. Bunu anlamaq olmur adama yaxın.

Nicat və ölüm! Bir Allah bilir bu sözləri yazanda əlimdə qələm necə əsir. Axı bu ölüm niyə belə etibarsız və tələ-



sən olur. Niyə biz qəfil ölümün əlində oluruq əsir... Hərdən sənin ölümünü düşünəndə ağrılı fikirlərdən tüstüm təpəmdən çıxır. Şanına, şöhrətinə, şərəfinə min bir nəğmələr qoşulan dünyanın əməllərindən baş çıxara bilmirəm. Odur ki, sevinib gülmürəm. İnsan gərək təmənnasız və labüd ölümün çarəsini, əlacını tapana qədər sevinib gülməyə. Bir ömrün xoşbəxt çağında, yaşamağın baharında ömür çırağımız qəfil sönüb, həyata əlvida deyəcəyiksə, biz bu dünyaya niyə gəlirik. Və doğma ana bətnindən dünyaya göz açan körpənin ilk qığıltısı niyə hönkür-hönkür ağlamaq olur? Aldığımız hava, nəfəs körpənin ciyərlərinə ilk dəfə dolanda o, mütləq şəkildə ağlayır. Di gəl belə olanda dünyanın keşməkeşli gedişatından baş aç.

...Yazığın gəlmədi boyunu sevən, səni hər gecə yuxuda görən, qara saçlarını sığallayıb qəlbində min bir arzu, istək hörən anana. Cəfanı çəkib, dərdinə yanana. Niyə məhz ölümə sarı getdin, günümüzü qara etdin. Yoxluğunu necə rəva bildin səni dünyalar qədər sevən bacına. Qoymadın əli yetə xoş bəxtin tacına. İndi bacın oğluna sənin adını qoyub. Təsəlli olsun deyə . Getdin, tək buraxdın səni çox sevən atanı. O, boylanır, səni görsün deyə axtarır hər yanı. Səninlə öyünən, qəlbi bir döyünən atan. Səndən sonra sancır atanın tez-tez ürəyi. Ağardıb saçları, bükülüb kürəyi. Dünya itirib mənasını, həyat düşüb gözündən. Kədər, qəm, ağrı tökülür hər sözündən. Görüb, tapa bilmir mənalı, məsum baxışını. Elə hey pıçıldayır, xatırlayır gənc yaşını. Nə etsin, silə bilmir süzülən göz yaşını. Mən də söykək ola bilmirəm dünənədək dağ gövdəli olan atana. Girə bilmirəm ancaq onun olan, onu içəridən oyan, saçını yolan dərd dünyasına. Mən də onun Sən adlı böyük Dərdinə şərikəm. Səni xatırlayanda içimdə ancaq kədər, qüssə, qəm əkirəm.

Sevinc hamıya çatır, hamının olur. Ağrılı kədər isə nədənsə yalnız sənin bəxtinə tuş gəlir, sənin taleyinə dolur.

Atana, dərdini çəkəninə son qəmin olsun deyib, təsəlli verə bilmirəm. Dilim gəlmir. Axı necə son qəmin olsun deyim?! Məgər bundan böyük qəm olarmı? Və başqa qəmin mümkünlüyü mövcuddurmu? Mən bir də düşünürəm ki, başqasına təsəlli vermək, heç də onun dərdinə yanmaq deyil. Bu, belə demək mənsə, səni tərk edəni unut deməkdir. Səni unutmaqmı olar, qardaş! Sən həmişə qəlbimizin ən dərin guşəsində, aynasındasan. Orda yerin görünür. Ürəyimiz həmişə səni anıb döyünür.

Adam dərdi ikiyə bölə, kiçildə, parçalaya bilmir. Sevincini başqaları ilə bölən insan kədərinə başqasını yaxın buraxmır.

Dərdini tək çəkir adam. Kədər, dərd paylaşılmır axı. Amma dərd birdən o qədər böyük olur ki, ürəyə sığmır. Ürəyin partlayır, rahatlıq içində yerindən didərgin düşür. Nə yaxşı ki, təmiz ürəklər üçün məsafə uzaqlığı mövcud deyil.Könüldən könülə yollar görünür...

Dərd bir olsa yaşamağa nə vardı ki! Bəzən elə bil dərdlər əvvəlcədən sözü bir yerə qoyub üstünə gəlirlər. Beyninə girir, ürəyinin başında elə rahat oturur, gözləyirlər ki, gəl görəsən.

Bəzi dərdlər xudbinliklə özünə sitayiş edir, başqa dərdlərə yer, macal vermirlər:

*Məni qəbrə*
*dartıb salacaq*
*Bu Dərd!*
*Qoymayacaq*
*dərdini çəkəm*
*başqa dərdlərimin...*

Hərdən fikirləşirəm ki, quru bir ad üçün gəlirik dünyaya. Bizdən sonra bizsiz qaldığına görə darıxan, ağlayan, ürəkləri dağlayan ad üçün. Bu quru, cansız, qansız adı tənha qoyub, geriyə boylanmadan, baxmadan gedirik. Və düşünmürük ki, təkcə bu addan ötrü dünyaya gəlməyə dəyərmi. Axı tədricən həyatda hər şey zamanın axarına yuvarlanıb unudulur. Təkcə qoyub getdiyimiz, yaşatmağa qadir olduğumuz addan başqa. Amma qəribə olsa da, biz bu adı çox sevirik. Ondan ötrü minbir əzab-əziyyətə dözür, hər şeyi edirik. Bu addan ötrü ömür sürürük. Bəzən ağlaya-ağlaya, yaxınlarımızın ürəyini dağlaya-dağlaya. Hərdən buna yaşam, yaşamaq deyə bilmirik. Çünki çox zaman biz yaşamır, sözün əsl mənasında çabalayır, əməllibaşlı sürünürük. Dərdi, ələmi şelləyib ürəyimizin, beynimizin başına, belimiz qırıla-qırıla, dilimiz tutula-tutula guya yaşayırıq. Dərd bizi diz çökdürür. Nə bilim, diz çöküb yaşamaqdansa,bəlkə də ölüm yaxşıdır ayaqda, ayaq üstə.

Dərdin xisləti boş əllə gəlib, əlidolu getmək istəyidir. Təmənnasız ölüm kimi gələn, nədənsə həmişə qurbanını bizim sıramızda, içimizdə arayıb tapır. Dərd bizdən ötrü heç bir şey əsirgəmir. Ən kəskin ağrını, acını, içi daima dolu olan ələmi də.

Nikbin olmaq, ruhdan düşməmək istəyindəyəm. Ancaq əlim hara çatır, ünüm hara yetir ki. Nicatım, qardaşım Nicat! Tez-tez atana baxıram. Özümü mən də onunla bərabər oda yaxıram. Ona kömək, yardım əlini uzatmağın mümkünsüzlüyü məni dəli edir. Yanır, içəridən piltim-piltim qovrulur, parçalanıram. Və həmyerlimiz, mərhum şair-filosof Əhməd Elbrusun misraları yadıma düşür, pıçıldayıram:

*Ay ellər ovucla qanını içək,*
*Yağı düşmənim də məyus olmasın*
*Axsın göz yaşı sel kimi sevincdən,*
*Kimsənin qəm üçün gözü dolmasın.*

**Kaş bu dünyada hər şey şairin dediyi kimi olaydı. Qəlbimizə sevinc göz yaşları hakim kəsiləydi. Kaş!!! Ancaq nə etməli, həqiqətdə çox zaman bunun əks tərəfini görürük. Sevinc bizdən uzaq qaçır. Nicatımız isə acı göz yaşları olur, Nicatsız göz yaşları...**

**Adil Misirli,**
**Qarabağ üzrə bölgə müxbiri**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

№ 37 (2361) 29 sentyabr 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# AZADLIQ SÖZDƏN BAŞLAYIR

**İnsan dünyaya gələndən ölənə qədər çox şey haqqında düşünür, fikirləşir. Amma düşündüklərinin heç də hamısını həyata keçirə bilmir. Ən azından ona görə ki, o arzuları gerçəkləşdirmək üçün insan ömrü bir o qədər də vəfalı olmur. Şübhəsiz ki, hər bir insanın, hər bir vətəndaşın azad, demokratik və rahat yaşamaq hüququ mövcuddur. Ancaq bu hüququ heç də bütün ölkələrdə insanlara bəxş etmirlər.**

Çünki hər quruluşun, hər ölkənin bu və ya digər dərəcədə qanunları var, bu ölkə də həmin qanunlarla idarə olunur. Gərək bu qanunlar demokratik, sivil və hüquqi olsun ki, insanlar həmin cəmiyyətdə normal yaşasınlar, fəaliyyət göstərsinlər və inteqrasiya olunsunlar. Heç kim deyə bilməz ki, biz çox asanlıqla demokratik hüquqlara və prinsiplərə sahib çıxmışıq. O ölkədəki insanlar öz hüquqlarını bilirlər və bu yolda heç nədən qorxmadan, hətta ölümdən çəkinmədən mübarizə aparırlır, əlbəttə, onlar gec-tez öz istəklərinə, məqsədlərinə və məramlarına qovuşmağı bacarırlar.

Deyirlər ki, Avropa ölkələri və eləcə də Amerika çox demokratik, hüquqi və sivil bir məmləkətdir. Amma bu məmləkətlərdə də demokratiya anlayışı həmin ölkələrin maraqlarına və inkişafına uyğun olaraq hesablanır. Hansı ölkədəki çevriliş eləmək istəyirlər və orda mövcud quruluşu devirməyə cəhd eləyirlər, deyirlər ki, insanların hüquq və azadlıqları pozulub və bu şüarla da onlar həmin ölkələri işğal edir, öz siyasətlərini həyata keçirir, maraqlarını təmin edirlər.

Azərbaycanın dünya siyasətində və iqtisadiyyatında öz yeri, öz mövqeyi olub. Düzdür, Sovet dönəmində də Azərbaycan bu və ya digər dərəcədə müəyyən prinsiplərə uyğun həyat qurmuşdu və ona da uyğun fəaliyyət göstərirdi. Başqa sözlə demiş olsaq Sovet rejiminin bütün qayda-qanunları Azərbaycanda da reallaşırdı. O dövrdə də mətbuat, televiziya və o cümlədən müxtəlif kütləvi informasiya vasitələri fəaliyyət göstərirdi. Ancaq birmənalı olaraq deyə bilərik ki, KİV-lərin fəaliyyəti senzura şəraitində mövcud idi. Senzuranın, daha doğrusu, ”qlavlit”in mütəxəssislərinin razılığı, yoxlanışı və möhürü olmadan heç bir qəzet çap oluna bilməzdi. Guya həmin materiallar oxunmasa, nəzarət edilməsə dövlət sirləri mətbuatda yayılar, ölkənin ideoloji iş sahəsindəki fəaliyyətinə kölgə düşərdi. Həmin dövrdə həm də Mərkəzi Komitədə ideoloji katib və eyni zamanda ideoloji şöbə fəaliyyət göstərirdi və hər şey də onların nəzarətində idi.




Azərbaycan müstəqillik qazandıqdan sonra bütün sahələrdə olduğu kimi, mətbuat, televiziya və qəzet sahəsində də böyük islahatlar həyata keçirilməyə başladı. Müstəqil ölkənin öz ideoloji xətti, öz tutduğu uğurlu yol əsas prioritet vəzifə oldu. Və burda da birmənalı olaraq ölkənin daxilində azad sözə, müstəqil mətbuata, düşüncə və fikir azadlığına , plüralizmə xüsusi önəm verildi. Qısa zaman kəsiyində ölkədə iqtidar mətbuatı ilə yanaşı, müxalifət mətbuatına da ”yaşıl” işıq yandırıldı. Təbii ki, demokratiya havası, onun ruhu insanlarda xoş ovqat yaratmaqla yanaşı, bəzi problemləri də bizə yaşatdı. Yəni bir çoxları elə təsəvvür elədi ki, demokratiya pərdəsi altında istənilən oyundan çıxmaq mümkündür, nə istəsən etmək olar. Bəzən insanlara həddindən çox azadlığın və demokratiyanın şamil edilməsi bir çox hallarda insani dəyərlərə, dövlətə və dövlətçiliyə bu və ya digər dərəcədə xələl gətirir. Amma bütün bunlara baxmayaraq, ölkəmizdə yaradılmış sağlam mühit, sağlam düşüncə, fikir və plüralizm azadlığı insanların daha sərbəst və rahat fəaliyyət göstərməsinə münbit şərait yaratdı.

Hətta ölkə daxilində belə demək mümkünsə, tamamilə fərqli düşünən və bir az da dövlətçiliyə xələl gətirə bilən mətbu orqanlar da fəaliyyət göstərməyə başladı. Amma demokratiya və azadlıq o demək deyil ki, ölkənin imicinə , dövlətçiliyinə müəyyən zərbələr vurulsun. Bütün bu məsələlər diqqət mərkəzindən yayınmadı, sağa-sola və nala-mıxa vuran bəzi mətbuat orqanları heç şübhəsiz məhkəmə məsuliyyətinə cəlb edildilər.



Bütün bunlara rəğmən ölkəmizdə çoxlu sayda müxtəlif nəşrlər, saytlar, qəzetlər və hətta sosial şəbəkələr fəaliyyətini sürətlə davam etdirdi. Və bu gün də deyə bilərik ki, Azərbaycan elə bir demokratik mühitdir ki, burda bütün xalqların və millətlərin birgə yaşaması, fəaliyyət göstərməsi, eləcə də işgüzar mühit yaradılması üçün hər cür şərait mövcuddur. Təbii ki, bu mövcudluğu bir çox hallarda daxildəki və xaricdəki qara qüvvələr görmək istəmir, ölkəmizin əleyhinə təbliğatlar aparır, məmləkətimizdə mövcud olan demokratik prinsiplərə, hüquqi azadlıqlara və fikir plüralizminə kölgə salmaq istəyirlər. Hətta bu cür qara qüvvələr, daha doğrusu, sapı özümüzdən olan baltalar xaricdəki düşmən qüvvələrlə birləşərək ölkəmizə qarşı qarayaxma kampaniyalarını davam etdirirlər. Həmin zərərli ünsürlər hətta İkinci Qarabağ savaşında və eləcə də 24 saatlıq lokal antiterror əməliyyatının keçirildiyi gündə də yenə düşmənin dəyirmanına su tökdülər və onlardan heç nələri ilə fərqlənmədilər. Amma Azərbaycansa bir daha dünyaya sübut etdi ki, bizim xalq bəşəri dəyərlərə və demokratik prinsiplərə yüksək qiymət verir, ən ağır müharibə şəraitində belə düşmənin mülki əhalisinin bir nəfərinin ölümünə imkan vermir. Amerika kimi qüdrətli dövlət İraqda hərbi əməliyyat apararkən nə qədər mülki əhalinin ölümünə rəvac verdi, ancaq Azərbaycan bir daha dünyaya sübut etdi ki, o demokratik bir dövlətdir, beynəlxalq hüquqa çox böyük hörmətlə yanaşır.

**Söz və mətbuat azadlığından, fikir plüralizmindən söhbət düşəndə Mədəniyyət və İncəsənət Universitetinin professoru, kulturologiya elmləri doktoru İlqar Hüseynov deyir ki, biz Sovet dönəmində də yaşamışıq və müstəqillik dövründə də yaşayırıq. Onda elə bir mühit var idi ki, adi auditoriyada mühazirə oxuyanda çox diqqətli olurduq. Əgər tələbəyə Məhəmməd Əmin Rəsulzadə və eləcə də digər Müsavatla bağlı olan insanlar haqqında fikirlər çatdırılsaydı istər-istəməz həmin müəllimin vəziyyəti yaxşı olmayacaqdı. Ən azından deyəcəkdilər ki, sən Sovet hökumətinin əleyhinə təbliğat aparmısan və buna görə o müəllimləri çək-çevirə salacaqdılar. Ancaq müstəqillik dövrünə qədəm qoyandan sonra nə auditoriyada, nə də cəmiyyətdə heç bir məhdudiyyətlər qoyulmadı, yəni biz hər şeyi, həqiqəti, hətta acı həqiqəti belə tələbələrə çatdıra bilirik. Bu da ölkəmizdə söz və mətbuat azadlığının inkişafı, çiçəklənməsi və eyni zamanda fikir plüralizminin genişlənməsi deməkdir. Düşünürük ki, biz müstəqilliyin şirinliyini zaman-zaman daha dərindən hiss edəcək və buna görə dövlətimizə, hökumətimizə minnətdar olacağıq.**

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Vaqif İSAQOĞLU*

### DEYİL

**Bütün analardan göyçəkdi anam,
Dünyada ən zərif çiçəkdi anam.
Allahın yanında mələkdi anam,
Mələklər heç zaman öləsi deyil.**

**Mənim ürəyimə köçüb yaşayır,
Dirilik suyunu içib yaşayır.
Haqqın dərgahına köçüb yaşayır,
Haqqın dərgahından enəsi deyil.**

**Könül sarayımda kədər ulayır,
Ana, dərd əlindən gəl məni ayır.
Bu haqsız dünyanı yaxşı tanıyır,
Bu haqsız dünyaya gələsi deyil.**

**Ümid yollarını bağlama, Vaqif!
Dəniz tək kükrəyib çağlama Vaqif!
”Ana”, ”Ana”, - deyib ağlama Vaqif!
Gəlib göz yaşını siləsi deyil.**

### SƏNİNDİ

*Anama*

**Yatdığın məzar da cənnət qoxuyur,
Mələklər adına çələng toxuyur.
Qonub başdaşına quşlar oxuyur,
Dünyanın ən gözəl qəbri sənindi.**

**Nə tez köçüb getdin, qurban yaşına,
Mən də gəlib çatdım sənin yaşına.
Tanrı sığal çəkib sinə daşına,
Dünyanın ən gözəl qəbri sənindi.**

**Sənsiz yaşamağım öz günahımdı,
Daşı da əridən mənim ahımdı.
Müqəddəs məzarın səcdəgahımdı,
Dünyanın ən gözəl qəbri sənindi.**

**Mənim həyatımın mənası idin,
Qəmlənsəm od tutub yanası idin.
Dünyanın ən gözəl anası idin,
Dünyanın ən gözəl qəbri sənindi.**

### ALLAHIN VAQİFƏ YAZIĞI GƏLMİR

**Hələ ki, qələmlə gor qazıram mən,
Hələ ki, öz gorum qazılmayıbdı.
Tanrının alnıma yazdığı yazı,
Heç kimin alnına yazılmayıbdı.**

**Mənim ürəyimi gün bişirəmməz,
Mənim ürəyimi bişirən dərddi.
Başımı götürüb qaça bilmirəm,
Axı dərddən qaçan özü namərddi.**

**Daha dərdlərimlə dost olmuşam mən,
Bu da bir taledi, neyləmək olar?
Nə qədər Allaha şikayət edib,
Nə qədər dərdini söyləmək olar?**

**Dünyanın hər dərdi mənə tanışdı,
Dünyanın dərdləri sinəmi dəlir.
Allahın Vaqifə yazığı gəlmir,
Vaqifin Allaha yazığı gəlir.**

### ÇİNAR

**Bu Çinar ağacının-
Min ildir yaşı, bilin.
Şərəfli tarixidir,
Bizim obanın, elin.**

**Buludlardan nəm çəkir,
Bir baxın qol-budağı.
Müsəlləh əsgər kimi
Qoruyur bu torpağı.**

**Bir elin sevincidi,
Bir elin dayağıdı.
Bu Çinar bizim kəndin-
Müqəddəs bayrağıdı.**

### QURBAN OLUM

**Vətən sənin torpağına,
Bir quruca yarpağına,
Haqdan yanan ocağına,
Hər daşına qurban olum.**

**Təmiz adın-dövlət, varın,
Pozularmı düz ilqarın?
”Oğul” deyən anaların,
Göz yaşına qurban olum.**

**Vəfalı ol öz yarına,
Qoyma cana dərd sarına.
Şəhidlərin məzarına,
Başdaşına qurban olum.**

### ÖZÜM ÇƏKİM

**Ömrün günortası olmayıb hələ,
Ürəkdə arzular solmayıb hələ.
Bü həyat bir daha düşərmi ələ?
Qoy sənin nazını mən özüm çəkim.**

**Göz üstə saxlaram inan yar səni,
Döyməz yağış səni, döyməz qar səni.
Qorxuram başqası aldadar səni,
Qoy sənin nazını mən özüm çəkim.**

**Ürəkdə həsrətin közü - gözəldi,
Yaxıb-yandırsa da düzü- gözəldi.
Bu yaşda naz çəkmək özü gözəldi,
Qoy sənin nazını mən özüm çəkim.**

**Sənsiz can sevinib üzüm gülərmi?
Vaqifə xoşbəxtlik yaxın gələrmi?
Bir kimsə nazını çəkə bilərmi?
Qoy sənin nazını mən özüm çəkim.**

# Qırğızıstanda Türk Əməkdaşlıq Təşkilatlarının ortaq layihəsi təqdim olunub

**Qırğızıstanın Bişkek şəhərində Alykul Osmonov adına Qırğızıstan Milli Kitabxanasında Türk Akademiyasının və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə əməkdaşlığı çərçivəsində nəşr olunan ”Saqımbaydın Manası” kitabının təqdimat mərasimi keçirilib. Layihə çərçivəsində ”Manas” eposunun Sagımbay Orozbakovun variantı Qırğızıstanın görkəmli sənətçisi və manasçısı Rısbay İsakovun redaktorluğu ilə ilk dəfə nəsr şəklində yayımlanıb.**

Tədbirdə Qırğız Respublikası Prezidenti Administrasiyasının Siyasi və İqtisadi Araşdırmalar şöbəsinin müdiri Oktyabr Kapalbayev Qırğız Respublikasının Dövlət Katibi Suyinbek Kasmanbetovun təbrik məktubunu oxuyaraq, Türk Akademiyası və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən yayımlanan layihənin əhəmiyyətini vurğulayıb.

Tədbirdə çıxış edən Türk Akademiyasının prezidenti Şahin Mustafayev vurğulayıb ki, ”Yarım milyon misradan ibarət ”Manas” dastanı dünya miqyasında və Türk Dünyasında ən irihəcmli dastan hesab olunur. V-XII əsrlərdə qədim türklərin dövründə meydana çıxan Manas dastanı Oğuz Kağan dastanı ənənəsi ilə indiki dövr arasında simvolik əlaqə yaradır”. Tədbirdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva şifahi ənənə ilə əsrlər boyu nəsil-



dən-nəslə ötürülən Manasın qırğız xalqının daxili dünyasını, mənəviyyatını əks etdirdiyini bildirib. O, ”Manas qırğız xalqının gücüdür. Eposda qırğızların qəhrəmanlıq səhifələri, Vətənə sevgisi, torpağın müdafiəsinə hər zamankı istəyi özünü göstərir”, - deyə qeyd edib. Günay Əfəndiyeva Azərbaycanın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin Bişkekdə ”Manas” dastanının 1000 illiyinə həsr olunmuş tədbirdə ”Manas bizim hamımızın, türk xalqlarının hamısının ulu babasıdır” sözlərini xatırladaraq, eposu Türk Dünyasını birləşdirən amil kimi qiymətləndirib. Günay Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun bu səpkidə fəaliyyətlərindən bəhs edərək, Azərbaycanın tanınmış alimi Adil Cəmilin Manasın tədqiqinə və təhlilinə dair kitabının Azərbaycan və qırğız dillərində nəşr edildiyini, təşkilatın mərkəzi qərargahında ”Manas Günü”nün təşkil olunduğunu və bu xüsusda digər tədbirlərin keçirildiyini bildirib.

Qırğız Respublikasının mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin birinci müavini Kayrat İmanaliyev çıxışında Manas irsinin öyrənilməsinə və təbliğinə dəstək verən təşkilat rəhbərlərinə minnətdarlığını bildirərək, bu cür təşəbbüslərin türk ölkələri arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsinə töhfə verdiyini qeyd edib.

Tədbirdə Qırğız Respublikası Joqorku Keneşinin deputatı Nurcigit Kadırbekov, Azərbaycan Respublikasının Qırğız Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov, akademik Abdıldacan Akmataliyev, ”Muras” Fondunun prezidenti, tarixçi Kıyas Moldokasımov, Qırğız Respublikası Milli Yazıçılar Birliyinin sədri Nurlan Kalıbekov çıxış edərək, müasir dövrdə qədim türk dastanlarının araşdırılmasının və daha dərindən öyrənilməsinin əhəmiyyətindən bəhs edib, Türk Akademiyasının və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun bu səpkidə fəaliyyətlərini yüksək qiymətləndiriblər. Tədbirdə həmçinin, dövlət və ictimai xadimlər, ziyalılar, şair və yazıçılar, manasçılar, tarixçilər və Arabayev adına Qırğızıstan Dövlət Universitetinin tələbələri iştirak ediblər.

Tədbir çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevaya və Türk Akademiyasının prezidenti Şahin Mustafayevə fəaliyyətlərinə görə xüsusi Manas medalları təqdim olunub.

# Şəhid xanımı: “Dedi ki, mən yola düşürəm, narahat olma...”

**Xəbər verdiyimiz kimi bu gün Vətən müharibəsindən üç il ötür. Anım günündə ölkəmizin hər bir rayonunda tədbirlər keçirilir, Şəhidlərimiz ziyarət olunur.**

44 günlük Vətən müharibəsində şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq hərbi qulluqçusu şəhid Taleh Səndəl oğlu İsmayılovun xanımı çox təsirli paylaşım edib.



Adalet.az xəbər verir ki, şəhid xanımı həyat yoldaşıyla sonuncu danışığını belə xatırladığını bildirib: ”Mən yola düşürəm, sən narahat olma, hər şey yaxşıdır dedi və yola düşdü. Beləliklə 44 günlük Vətən müharibəsinin 39-cu günündə qəhrəmancasına döyüşən və qanı ilə tarix yazan qəhrmanın döyüş yolu...”.

Qeyd edək ki, Taleh İsmayılov 1986-cı il noyabrın 26-da Lənkəran rayonunun Boladi kəndində anadan olub. 2004-cü ildə Goranboyda əsgəri xidmətdə olub. 2015-ci ildən isə Ağcabədidə müddətdən artıq hərbi qulluqçu kimi xidmətə başlayıb. 2016-cı il Şanlı aprel döyüşlərində iştirak edib. Vətən müharibəsi zamanı isə Füzulinin, Cəbrayılın, Qubadlının, Xocavəndin və Ağdam rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Müharibənin 39-cu günü Şuşanın azadlığı uğrunda gedən döyüşlər zamanı 4 noyabr 2020-ci il tarixində qəhrəmancasına şəhid olub.

Ölümündən sonra ölkə başçısı tərəfindən ”Vətən uğrunda”, ”Şücaətə görə”, ”Döyüşdə fərqlənməyə görə”, ”Xocavəndin azad olunmasına görə” medalları və 3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeni ilə təltif edilib.

**Allah cəmi şəhidlərimizə rəhmət eləsin!**

**Vasif Əlihüseyn**

# Türkiyəli professor İstanbul zəlzələsi ilə bağlı: "800 mindən çox insanın həyatı təhlükə altında qala bilər"

**Türkiyəli professor, yerşünaslıq üzrə alim Naci Görür mümkün İstanbul zəlzələsi ilə bağlı açıqlamalar verib.**

”Zəlzələnin mənbəyi yerin daxilindədir. Onu Amerika gəmisi, yaxud kosmosda hərəkət, isti və ya soyuq hava ilə əlaqələndirmək mənasızdır”, - deyə Naci Görür bildirib. Naci Görürün sözlərinə görə, Şimali Anadolu qırılma xəttinin şimal qolu Mərmərə qırılma xəttidir, uzunluğu 160 kilometrdir, Tekirdağ, Adalar və Kumburqaz adlı 3 hissədən ibarətdir. ”Bu qırılma xətti qapalıdır və orada gərginlik yığılmağa başlayır. Süxurları sındırmaq üçün yığılan qüvvəyə gərginlik deyilir. Beləliklə, bu qırılma xətti güc yığır. Kumburqaz və ya Adalar qırılma xətlərinin sınmasını gözləyirik.



Əgər bu xətlər sınarsa, baş verəcək zəlzələnin gücü 7,2-7,6 bal olacaq. Deməli, İstanbulda minimum 7,2 bal gücündə zəlzələ gözləyirik. Tekirdağ qırılma xəttinin sınması ehtimal olunmur. Dəniz tədqiqatları zamanı Tekirdağ xəttinin 1912-ci il Şarıköy zəlzələsində sındığını və enerjisini boşaltdığını düşünürük”, - deyə o qeyd edib. Naci Görürün fikrincə, İstanbulda sürüşmə sürətinə görə Avropa hissəsi ən riskli zonadır, Anadolu hissəsində isə dərələr, su axını kanalları və çimərliklər istisna olmaqla torpaq sürüşməsi riski yoxdur.

Görürün sözlərinə görə, zəlzələlərə qarşı keyfiyyətli binalar inşa etmək kifayət deyil.

”Torpaq qatını nəzərə almayan inşaatçılar məyusluq yaşaya bilərlər”, - deyə o nəzərə çatdırıb.

Naci Görür bildirib ki, İstanbulda mümkün zəlzələ zamanı 100 minə yaxın bina çökə bilər. ”20 min binanın dağılması halında belə 800 min insanın həyatı təhlükə altında qala bilər”, - deyə o vurğulayıb.



*Leyla Mustafayeva*

## Dünya Qatil Deyilmiş

**Xəstə saldı dünya bizi...**
**yox, yox, insan bizi,**
**Dünya gözəl dünyadı,**
**insan vurdu ziyanı...**
**Zəhər qatdı qidaya,**
**bomba atdı səmaya...**
**hər tərəfi yandırdı,**
**İnsan insanı qırdı...**
**Meşələrə od vurdu,**
**sonra cah-cəlal qurdu,**
**qurutdular adanı,**
**bu insanın nadanı...**
**Xəstəliklər çoxaldı,**
**neçə cavan can aldı**
**Nə vicdan var, nə qeyrət,**
**analar çəkir zillət,**
**övladlar gedir əldən**
**Korlandı her şey birdən**
**Od ələndi göylərə,**
**Dağıldı dərə-təpə**
**Neylədiksə təbiətə,**
**saldı bizi zillətə...**
**Dünya qatil deyilmiş,**
**İnsan kimi tanınan vicdansız insan imiş!...**

## Hər zəfərdə adı var

**Bu vətənin bir oğlu var,**
**səngər onun otağı,**
**silah onun çırağı...**
**adı Babək,**
**O düşmənlə qalsa da tək,**
**əzib keçər başını,**
**heç kim görməz göz yaşını...**
**Vətən onun canıdır,**
**vətən onun qanıdır,**
**yaralı əli ilə silah tutdu,**
**su yerinə tüstü uddu,**
**Heç fərqinə varmadı evdə neçə körpə varsa,**
**onun üçün vətən evdir ,**
**düşünmədi onlar onsuz qalarsa,**
**Düşmən canın alarsa ,**
**düşünmədi bunları,**
**sərhəddəki əskərlər oldu onun canları...**
**Fəxr edirik hər zaman ,**
**körpəlikdən qəhrəman,**
**İgid adı eşidib , böyüyüb boya çatdıq,**
**Babək kimi qəhrəman**
**Yenə olacaq hər an!**

## "BORÇALIDAN ŞUŞAYA GEDƏN YOL" ADLI KİTABIN İKİNCİ HİSSƏSİ İŞIQ ÜZÜ GÖRÜB




**Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlunun yeni kitabı işıq üzü görüb. "Bakı Mətbəəsi" ASC-də nəfis poliqrafik tərtibatda işıq üzü görmüş "Borçalıdan Şuşaya gedən yol" (II kitab) adlı bu kitab 2020-ci ilin payızında Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda gedən 44 günlük müharibədə şərəflə vuruşaraq şəhid və qazi olmuş Borçalı əsilli soydaşlarımızdan bəhs edən "Borçalıdan Şuşaya gedən yol" adlı kitabın (2021-ci il) ikinci hissəsidir.**

Kitabda əsasən Birinci Qarabağ müharibəsində iştirak edərək şəhidlik zirvəsinə ucalan, döyüşlərdə itgin düşən Borçalı əsilli cəsur döyüşçülərdən və bu gün müharibə veteranı kimi şərəfli bir ad daşıyanlardan söhbət açılır. Burada eyni zamanda 44 günlük müharibənin iştirakçısı olmuş və müəyyən səbəblərdən birinci kitabda barələrində məlumat verilməyənlərə də yer ayrılıb. Kitabda haqqinda söhbət açılanlardan üç nəfər Azərbaycanın Milli Qəhrəmanı, 40 nəfər isə şəhidlik zirvəsinə ucalanlardır.

Kitabın redaktoru polkovnik Elşad Həsənov, məsləhətçi isə polkovnik Telman Budaqovdur.

## Azərbaycan futzalçısı Çempionlar Liqasının bombardirləri siyahısında



**UEFA futzal üzrə Çempionlar Liqasında ən çox qol vuran oyunçuların siyahısını açıqlayıb.**

Qol.az xəbər verir ki, bu haqda Azərbaycan Futzal Federasiyası məlumat yayıb.

Siyahıda uzun illər "Araz-Naxçıvan"ın formasını geyinən və bu klubla bürünc medal qazanan, həmçinin Serbiya çempionu "Ekonomaç"la analoji yarışa qatılan Vitali Borisov da var. O, yarışda 45 qol vurub. V.Borisov bu göstərici ilə 4-cü pillədədir.

Lider isə Portuqaliya futzalının əfsanəsi Rikardinyodur. Cari mövsümdə Latviya çempionu "Riqa"nın forması ilə Çempionlar Liqasında iştirak edən məşhur "10 nömrə"nin aktivində 55 qolla var. Andre Vanderley 54, Lusio isə 50 qol vurub. İlk "5-liy"i Kirilo qapayır - 44 qol.

Qeyd edək ki, karyerasını başa vurmuş Vitali Borisov hazırda Azərbaycan millisinin və "Araz-Naxçıvan" klubunun baş məşqçisidir.

# II Qarabağ savaşı – düşmənə ibrət dərsi



*Yaqut Bahadurqızı*
*Filologiya üzrə fəlsəfə doktoru*

**Qələm - yazanda, qılınc - kəsəndə, Ordu da ancaq hücuma keçəndə özü olur - demiş Əbu Turxan. 30 il dunyanın ədalətinə inanıb, ədalətsizliyə dözdük. Münaqişənin sülh yolu ilə həllini tapması üçün aparılan mənasız danışıqlara qulaq asdıq. Danışıqlar isə zamanın çarxını, saatın əqrəbini düşmənin xeyrinə fırladırdı. Bütün dünya Azərbaaycanın haqlı tərəf olduğunu, beynəlxalq hüququn, qanunların bizim tərəfimizdə olduğunu bilir, lakin susurdu. Və nəhayət ədalətsiz "ədalət carçılarına" anlatdıq ki, sizin səbr kasanızın dibi çox dərinmiş, hətta yırtıqmış. Bizim səbr kasamızsa çoxdan dolub, daşır. Azadlıq aşiqi Babəki xatırladıq: "Azadlıq verilmir, alınır! Qan bahasına, qurban bahasına!" Və bir də haqqa, ədalətə xəyanət edənlərə anlatdıq ki, qanla itirilən torpağı, zülm, istibdad ilə itirilən azadlığı, sülhlə, cəfəng vədlərlə geri qaytarmaq olmaz... Torpağımızla bərabər namusumuzu, şərəfimizi, milli qürurumuzu murdar düşmən tapdağından azad etməyə gücümüz, qüdrətimiz, qeyrətimiz çatar. Və 30 illik istibdad yolunu 44 günə qət edən Ordumuz, illərlə arzusunda olduğumuz Qələbəni, Zəfəri qazandırdı bizə.**

"Ümid sənədir ancaq, Azərbaycan əsgəri!" - deyən xalqın ümidini, etimadını, etibarını qazandı, rəşadətli Azərbaycan Ordusu.

Və bu Ordunun qətiyyətli sərkərdəsi, Ali Baş Komandanının 44 günlük müharibə ərzində dünyanın ən mötəbər, ən məşhur kütləvi informasiya vasitələrinə bir ordunun zəfər yürüşünə bərabər verdiyi müsahibələr onun dünyanı heyrətə gətirən siyasi hazırlığı rəvac verdi Qələbəmizə.

Dağlıq Qarabağ münaqişəsinin müasir mərhələsi 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı iddiaların əsasında başlayıb. 1991-1994-cü illərdə Azərbaycanın Dağlıq Qarabağ ərazisi uğrunda Ermənistanla Azərbaycan arasında şiddətli müharibə olub. Nəticədə Azərbaycan ərazilərinin 20 faizi - Dağlıq Qarabağ və ətraf 7 inzibati rayon işğal olunub, 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Hərbi əməliyyatlar 1994-cü ilin may ayında Bişkekdə Azərbaycan və Ermənistan arasında imzalanmış atəşkəs sazişi ilə başa çatıb.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk qrupu məşğul olmağa başladı. 1996-cı ilin dekabrından isə Minsk qrupunun Rusiya, ABŞ, Fransadan ibarət həmsədrlik institutu fəaliyyət göstərir və münaqişənin sülh yolu ilə həllini tapması üçün danışıqlar aparır. Əfsuslar olsun ki, Ermənistan tərəfi ötən bu müddət ərzində müxtəlif bəhanələrlə münaqişənin həllini uzadıb, cəbhə xəttində atəşkəsi dəfələrlə pozub, hətta mülki əhalini də hədəfə alıb. 2016-cı ilin aprel ayında da erməni silahlı birləşmələri növbəti dəfə atəşkəsi pozdu, təxribat törədərək mövqelərimizə soxulmağa cəhd etdi. Lakin Azərbaycan ordusunun güclü müqaviməti və əks-hücumu nəticəsində düşmən geri otuzduruldu, ona sarsıdıcı zərbə vuruldu, bir sıra strateji yüksəkliklər işğaldan azad edildi. Aprelin 5-də tərəflər arasında yenidən atəşkəs haqqında razılıq əldə edildi. Buna baxmayaraq, Ermənistan silahlı birləşmələri yenə də razılaşmaya əməl etmir, cəbhəyanı yaşayış məntəqələrimizi iri çaplı silahlardan, artilleriya qurğularından, minatanlardan və zirehli texnikadan atəşə tutdular.

Ermənistanın Dövlətimizə qarşı növbəti təxribatının qarşısının alınması uğrunda onlarla gənc hərbçimiz şəhidlik zirvəsinə ucaldı. Onların şəhadəti bütün gənclərimizi "Vətən sağ olsun!", "Biz varıq! Bitməmişik! Olacağıq! Qalib gələcəyik!" çağırışına köklədi.

Əsgərlərimizdə - bütövlükdə bütün xalqımızda üçrəngli bayrağımızın tezliklə hərbçilərimiz, rəşadətli Ordumuz tərəfindən Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda və işğal olunmuş digər torpaqlarımızda dalğalanacağına inam, əminlik yarandı.

Müdriklərdən belə bir kəlam da miras qalıb: Tarix 2 halda təkrar olur - ibrət götürəndə - yaxşı məqamlar, götürməyəndə - pis məqamlar. Aprel döyüşlərində xaincəsinə hücuma keçib burnu ovulan, böyük itkilərlə rüsvay olan Ermənistanın 12 iyul 2020-ci ildə xain niyyəti yenə baş tutmadı, Ermənistan ordusunun atəşkəsi növbəti dəfə pozaraq Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutmasına Ordumuz tutarlı cavab atəşi və əkshəmlə tədbirləri ilə düşmənin hücum cəhdinin qarşısını aldı. Bir neçə gün davam edən Tovuz döyüşləri zamanı Ordumuzun 12 nəfər hərbi qulluqçusu, o cümlədən general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev şəhid oldu. Ermənistan ordusunun 120-dən çox əsgər və zabiti xeyli miqdarda hərbi texnikası məhv edildi. Tovuz döyüşləri, General Polad Həşimovun şəhadətə qovuşması, xalqın milli ruhunu, gənclərin vətənpərvərlik duyğularını alovlandırdı və minlərlə Azərbaycan gənci könüllü olaraq torpaqlarımızı işğaldan qurtarmaq, Şəhidlərimizin qisasını almaq naminə Ordu sıralarına yazılmaq üçün qeydiyyatdan keçdilər...

Hər kəs gözləyirdi bu müharibəni. Müharibə ağırdı - ölümdü, itkidi, dağıntı, qan-qadadı. Ancaq işğal olunmuş torpaqlarımızı, tapdanmış ləyaqətimizi qaytarmaq üçün yeganə vasitə idi. 27 il yalançı müqavilələrlə, sazişlərlə aldadıldıq və anladıq ki, türkün türkdən başqa dostu, arxası yoxdur. Və həmin gün - qisas günü gəldi. Sentyabrın 27-dən başlayaraq cəbhə xəttində işğalçı Ermənistan ordusunun təxribatlarına cavab verən şanlı Azərbaycan Ordusu qısa zamanda Qarabağ uğrunda başladığımız haqq savaşını Qələbə ilə başa vurdu. 44 gün davam edən İkinci Vətən müharibəsində qəhrəman oğullarımız düşmənə sarsıdıcı zərbələr endirərək, onları 27 ildir işğal altında saxladıqları torpaqlarımızdan iti qovan kimi qovdular.

**44 günlük Zəfər müharibəsi bir daha sübut etdi ki, bu millətin qəhrəman keçmişi, əcdadı var. Şərəfli tarixi, qeyrətli oğulları, dəyanətli rəhbəri, birləşməyi, "Dəmir yumruq" olmağı bacaran Xalqı, əzəmətli Dövləti var. Vətən müharibəsi bizə şərəfli Qələbəni qazandırdı.**



*Cəvahir Tanrıverdi*

## SƏN EY BU VƏTƏNİN ASLAN QADINI

*(Qənirə xanım Paşayevaya dərin sevgilərlə)*

**Sən ey bu vətənin aslan qadını,**
**Sənə bu vətəndə varlıq yaraşır.**
**Vətənlə tay tutduq uca adını,**
**Məğrur duruşuna şadlıq yaraşır.**
**Sənə bu vətəndə varlıq yaraşır.**

**Qələbə çıxışı duyaq səsinlə,**
**Biz də nəfəs alaq şad nəfəsinlə.**
**Gənclik bir yol alsın sənin izinlə,**
**Bu yerdə ümidlə xəyal qarışır:**
**Sənə bu vətəndə varlıq yaraşır.**

**Sən ki bu torpağın Tomris qızısan,**
**Vətənçün alışan dan ulduzusan.**
**Ellərə səs salan bahar, yazısan.**
**Səninlə çağlayan çaylar yarışır,**
**Sənə bu vətəndə varlıq yaraşır.**

**Nə qədər ümidlər sənə boylanır,**
**Bu torpaq eşqinlə alışıb yanır.**
**Adın qəlbimizdə dualardadır.**
**Sözünün odundan dünya alışır,**
**Sənə bu vətəndə varlıq yaraşır.**

**Haqqın yox bizləri sənsiz qoymağa,**
**Sükuta qərq edib səssiz qoymağa.**
**Dünyaya yol alan izsiz qoymağa.**
**Kədərin qoruna qəlblər alışır,**
**Sənə bu vətəndə varlıq yaraşır!**

**Əl açmışıq sənə, ulu Yaradan,**
**Gəl bizi hifz eylə qada - bəladan.**
**Yoxluqdan, qıtlıqdan, şər və cəfadan.**
**Vətənə vülqarın, adın yaraşır.**
**Sənə bu vətəndə varlıq yaraşır!**

## Ronaldo bunu bacaran ilk futbolçu oldu



**"Əl-Nəsr"in və Portuqaliya millisinin hücumçusu Kriştiano Ronaldo futbol tarixində mindən çox məğlubiyyətsiz oyun keçirən ilk futbolçu olub.**

Qol.az xəbər verir ki, bu barədə Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası məlumat yayıb.

Asiya Çempionlar Liqasında "Persepolis"ə qarşı matç (2:0) 38 yaşlı forvardın karyerasında 1000-ci məğlubiyyətsiz görüşü olub. Bundan sonra futbolçu Səudiyyə Ərəbistanı çempionatında komandasına "Əl-Əhli"ni məğlub etməkdə (4:3) köməklik edib.

**Ümumilikdə Ronaldonun hesabında 777 qələbə, 224 heç-heçə və 182 məğlubiyyət var. 1001 məğlubiyyətsiz oyunun 21-i "Sportinq"də, 284-ü "Mançester Yunayted"də, 386-sı "Real"da, 114-ü "Yuventus"da, 27-si "Əl Nəsr"də və 168-i Portuqaliya millisində oynayarkən olub.**

# Qatil aktrisa Tereza

**Tereza Cimmi Fransina Knorr 14 mart 1946-cı ildə Amerikanın Kaliforniya ştatında anadan olmuşdu. Onun valideynləri zəhmətkeş insanlar idi. Atası Cim pendir istehsalçısı işləyirdi, anası Svanni isə qələm istehsalçısı idi. Tereza 15 yaşında olarkən anası ürək çatışmazlığından vəfat etmişdi. Bu hadisə onun depressiyaya düşməsinə səbəb oldu. Nəticədə o iddia edirdi ki, uşaqlıqda ögey ana tərəfindən zorakılığa məruz qalırdı. Ailənin dostları tərəfindən göstərilən informasiyaya əsasən Tereza öz bacısı Rozmariyə paxıllıq edirdi.**

29 Sentyabr 1962-ci ildə o Kliffard Klayd Sanderslə ailə həyatı qurur. 1963-cü ildə cütlüyün Hovard adlı oğlu dünyaya gəlir. 1964-cü ilin 7 iyun tarixində Tereza öz həyat yoldaşını güllə ilə qətlə yetirir, ancaq bu hadisəni "özünümüdafiə" kimi təqdim edərək həbs cəzasından qurtulur. Sandersin ölümündən sonra Robert Vallos Knorrla görüşməyə başlayan Terezanın Robertdən bir qızı dünyaya gəlir. 1965-ci ilin sentyabr ayında Tereza Robert Knorrla evlənir. Terezanın ikinci evliliyində 4 uşağı - Syuzan Marlen (1966), Uilyam Robert (1967), Robert Vallas kiçik (1968), Tereza "Terri" Meri (1970) dünyaya gəlir. Bir müddət sonra Tereza Knorrla boşanır və sonra bir neçə dəfə ərə gedir.

"Cold Case Files" sənədli serialında Knorrun qızı Terrinin müsahibəsinə əsasən, qadın həmişə öz qızlarıyla (xüsusən Syuzanla və Şeli ilə) amansızcasına rəftar edirdi. Terri iddia edirdi ki, Knorr qızlara nifrət edirdi, çünki onların gözəlliyinin paxıllığını çəkirdi Qızı bildirmişdir ki, Knorr bəhanəsiz onları daim



döyürdü və onların dərisində siqaret söndürürdü. Tereza Knorr oğullarına bacılarını döyməyi öyrədirdi. 1983-cü ildə Tereza Knorr 22 kalibrli tapançası ilə qızı Syuzanı vurmağa çalışdı. Güllə Syuzanın sinəsində ilişdi, amma Syuzan sağ qaldı. Bundan sonra qızının sağ qaldığını görən Tereza onu sağaltmağa çalışdı, ancaq təcili tibbi yardıma müraciət etməkdən imtina etdi. 1984-cü ildə Knorr anasteziyaedicilər kimi tioridazindən və likördən istifadə edərək qızın bədənindən gülləni çıxarmağa çalışdı, lakin alətlər steril olmadığından Syuzan sarılığa yoluxdu, daha sonra onda dəlilik əlamətləri yaratmağa başladı. Tereza digər uşaqlarını inandırmağa çalışdı ki, qız iblis tərəfindən tutulmuşdur. 1984-cü ildə Syuzana aid olan hər şeyi onunla birlikdə yandırmağı qərara aldı. Əşyalarını bir çantaya yığdı, Syuzanın ağzını bağladı və yandırdı. Tereza Syuzanı Serra-Nevada dağlarına aparmaq işini isə oğlanlarına tapşırmışdı. Sonrakı tədqiqatlarda Syuzanın diri-diri yandırıldığı müəyyən olmuşdur. Terezanın qızlarına etdiyi zülmlər bununla da bitmədi. O digər qızı Şeliyanı fahişəliklə məşğula məcbur edirdi. Daha sonra isə Şeliyanı ittiham etdi ki, qızı onu unitazı vasitəsilə zöhrəvi xəstəliyə yoluxdurmuşdur. Cəza olaraq isə Tereza Şeliyanı otaqda bağlı saxladı, bir neçə həftədən sonra qız aclıqdan öldü.

1993-cü ilin 28 oktyabrında Terezanın qızı Terri "America's Most Wanted" verilişinə baxdıqda polisə müraciət etmişdir. Polislər əməliyyat nəticəsində Syuzanın cəsədini tapmışdır. Bundan sonra onlar Terrinin sözlərinə inanaraq əməliyyatı davam etdirmişdilər. Həmin ilin 10 noyabr tarixində Tereza Salt Lake City-dəki evində tutulmuşdur. Onun oğlu William 8 noyabr tarixində yaşayıb, işlədiyi Woodland şəhərində yaxalanmışdır. Həbs olunarkən Tereza cinayətlərini təkzib etsə də, oğullarının onun əleyhinə şahidlik etdiyini bildikdən sonra başqa şansı qalmır.

Terezaya 1995-ci ilin oktyabrında 2 dəfə ömürlük həbs cəzası verilmişdir. 2027-ci ildən tez olmayaraq Tereza Knorr apelyasiya məhkəməsinə müraciət edə bilər.

Qeyd üçün deyək ki, Tereza özü hal-hazırda həyatda olsa da onun həyatda qalan yeganə qızı Terri 2011-ci ildə vəfat etdi.

**2010-cu ildə çəkilmiş qorxu film "The Afflicted" (həmçinin "Another American Crime") Tereza Knorrun cinayətləri əsasında çəkilmişdir. Film real həyat hadisələrini əks etdirsə də, sonluq fərqlidir. Filmin sonunda ən gənc qız intiharından öncə anasını və qardaşının birini öldürür.**

**Eminquey**

# «Zirə» şikayət etdi, AFFA qərar çıxardı



**AFFA-nın Apellyasiya Arbitraj Tribunalı futbolçu Pyer Zebli ilə bağlı "Zirə" klubunun apellyasiya şikayətini qismən təmin edib.**

Qol.az xəbər verir ki, 25 yaşlı yarımmüdafiəçinin 2 oyunluq cəzasının çəkilməmiş hissəsi, yəni 1 oyunluq cəza şərti tətbiq edilib. Oyunçuya şərti cəzanın çəkilməsinə görə 3 ay sınaq müddəti təyin edilib.

Futbolçu bu müddət ərzində törədilən qayda pozuntusuna görə əlavə 1 oyunluq cəza alacaq. "Zirə"nin 1500 manat məbləğində cərimələnməsi qüvvədə saxlanılıb. Apellyasiya Arbitraj Tribunalının qərarından Lozannadakı (İsveçrə) İdman üzrə Arbitraj Məhkəməsinə (CAS) şikayət verilməsinin mümkünlüyü maraqlı tərəflərə izah edilib.

*Şəhanə Müşfiq*

## Bir az sərt olacaq, amma deməsəm olmaz!



***Bir az sərt olacaq, amma deməsəm olmaz! Siz allah, intihar edən şəhid nişanlısını "şəhid" adlandırmayın! Səbəb nə olursa olsun, canına qıyan heç kim şəhid ola bilməz! Sevən insan sevgisini yaşadar, onun anasına, ailəsinə dəstək olar.***

***Bu günlərdə gördüm toyuna 20 gün qalmış rəsmi nikahı olan nişanlısı şəhid olandan sonra qız gedib oturub şəhidinin evində. Deyir, nolsun ki, toyumuz olmadı, mən onun soyadını daşıyıram, burada da onun xatirəsi və valideynləri ilə birgə yaşayacam! Şəhidin atası da deyir ki, balamın iyini gəlnimdən alıram! Budur ucalıq! Budur əsl sevgi! Yoxsa canına qıymaq, bir dərdin üstünə daha ağır dərd gətirmək deyil. Siz də onları ucaldıb, başqalarını da intihara təhrik ermeyin. Sonra da deyəcəksiz "niyə artdı axı bu intiharlar?" Bax, sizin kimi pafos xəstələrinə görə artır intiharlar.***

***Zamanında Fərizəni şəhidlər xiyabanında şəhid statusu ilə dəfn edərkən qoyulmuşdu bu səhvin təməli, siz davam etdirməyin! Noldu, ana, ata balasının ölümünə dözdü, yar dözmədi? Siz Allah, bəsdirin!***

## Xalq artisti: "Ermənistan bunlara məhəl qoymadı"



**Xalq aristi Faiq Ağayev Qarabağda antiterror əməliyyatının keçiriləcəyinin gözlənilən olduğunu qeyd edib.**

Adalet.az xəbər verir ki, sənətçi proqramların birində Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinə qarşı aparılan lokal xarakterli antiterror tədbirlərindən danışıb:

"2020-ci ildə Azərbaycan Ordusunun o parlaq qələbəsindən sonra məhz Azərbaycan barışıq yolunu və beş prinsipi təklif etdi. Görürsünüz ki, bu üç il ərzində Ermənistan bunlara məhəl qoymadı. Bu baxımdan antiterror tədbirləri olmalı idi. Mən Azərbaycan ordusu, zabitləri və əsgərləri ilə fəxr edirəm. Ali Baş Komandanımız İlham Əliyev cənablarına bir Azərbaycan vətəndaşı kimi çox minnətdaram. Milli qeyrət hissimizi yenidən partlatdı. Eşq olsun, Azərbaycan ordusuna. Qarabağ Azərbaycandır!".

## Elza Seyidcahan qəzəbləndi: "Bunları efirə buraxmaq olmaz!"



**Əməkdar artist Elza Seyidcahan ləhcə ilə danışan ali təhsilli gənci tənqid atəşinə tutub.**

Adalet.az xəbər verir ki, müğənni "Gün işığında" proqramında ləhcə ilə efirdə danışmaqdan kəskin danışıb:

"Bir gənc məktəbdən ali məktəbə gəlib. Amma hələdə ləhcə ilə danışırlar. Bu düzəlməyəcək. Belə adamları efirə buraxmaq olmaz. Belə olmaz axı. Bizim ədəbi dilimiz var. Ən pis hal odur ki, bəzi müəllimlər də ləhcə ilə danışır. Bu yolverilməzdir! Olmaz belə şeylər! Ən kobud ləhcə dağlı ləhcəsidir. Mən o ləhcədə danımışam? Təbii ki, yox. Danışamaram axı, bura efirdir. Biz ekran vasitəsiylə cəmiyyətə mədəniyyət aşılamalıyıq. Ləhcə ilə danışanlara demək lazımdır ki, xanım (yaxud da bəy) diplomunu götür get. Efirə gəlib, deyir ki, mən jurnalist olmaq istəyirəm. Amma nitqi bərbaddır. Mənim o qıza yazığım gəlir. Belə bir məsəl var: Ağladan yanında otur, güldürən yanında yox. Biz nə qədər yalandan gülməliyik?! Bizim tərbiyəmiz ilk növbədə danışıq üslubumuzdur, ədəbi dilimizdir. Cızıldayan çaynikləri efirə buraxmaq olmaz!"

## Psixoloq: "...danışanda ağzından tüpürcəklər uçur"



**Tanınmış psixoloq Samirə Bağırova fikirləri ilə gündəm olub. Adalet.az xəbər verir ki, psixoloq, yaşlı nəslin gənclərə yer verməməyindən danışıb:**

"Bir məmurun qəbuluna getmişdim. Dedilər ki, hələ yatıb. İstəyirsinizsə, gözləyin. Deyirəm ki, necə yəni yatıb. İndi iş saatıdır axı. Anlayıram ki, bu insan yaşlıdır. Rejimlə yatıb-durmalıdır. Belə insanlar istəyirlər ki, yaşıdlarının arasında seçilsinlər ki, bax, hələ də bu enerjiyə sahibəm, statusum var,. Baxmayaraq ki, 80- 85 yaşım var. Ancaq bir çoxlarının heç enerjisi belə yoxdur. Az qalsın pamperslə işə gəlib- gedirlər. Onun dərisinin yaşlı qoxusu var. Bütün bunların qətiyyəən fərqində olmurlar. Bəziləri fərqində deyil ki, danışanda ağzından tüpürcəklər uçur.Anlamırlar ki, getmək vaxtıdır."

## Bakı Bulvarında skuter sürmək qadağandırsa...

**Şəhər sakinləri bulvarda skuter sürənlərlə bağlı narazılıqlarını bildiriblər.**

Adalet.az-ın məlumatına görə, sosial şəbəkədə bununla bağlı video yayımlanıb. Şəhər sakini "Bulvarın rəhbərliyi hara baxır?! Yerə düzülmüş daşlar demək olar ki, skuter sürülməkdən pis haldadır, sınıq-sınıqdır. Bayaqdan 5-6 dəfə ayağımın altında qalan sınıq daşları düzətmişəm. Bulvarda xəbərdarlıq lövhələrinin yerləşdirilsə də, buna məhəl qoyan yoxdur. Bu özbaşınalıqdır. Belə olmaz axı. Bulvarda hərəkət etmək mümkün deyil. Gah daşları sındırırlar, gah da skuteri adamların üstünə sürürlər. Bunların bir əlacı olmalıdır axı. Ya ciddi nəzarət olunsun, ya da skuter üçün zolaq ayrılsın. Skuter sürənlər həmin zolaq üzrə hərkət etsinlər" deyə qeyd edib.

**Əntiqə Kərimzadə**

**Samux rayon Sərkar kənd tam orta məktəbi tərəfindən Əhməd Asimi oğlu Quliyevin adına 2005-2006-cı il tədris ilində verilmiş 208078 №li şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

***

**Talıbov Nazim Əlkişi oğlunun adına verilmiş "Əfqanıstan müharibəsi veteranı" vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Təsviri sənət və sənətşünaslıq" fakültəsinin "Sənətşünaslıq" ixtisasının 2 - ci kurs tələbəsi Mamedova Şəlalə Məhərrəm qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 148**
Çapa imzalanmışdır:
28.09.2023